Xalqın qəzeti!

# Xalq qəzeti

№ 63 (30757) 3 aprel 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

Azərbaycan–Çin strateji tərəfdaşlığının ortaq hədəfləri



Səhifə ⇨ 14

## Azərbaycan–Almaniya: Anlaşma və əməkdaşlıq dərinləşir



Səhifə ⇨ 2

## Berlin sülhə səsləyir – Bakı hazırdır, İrəvan isə...

*Azərbaycan və Almaniya liderlərinin mətbuata bəyanatlarına sözardı*



**Prezident İlham Əliyev Azərbaycanda səfərdə olan Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə birgə mətbuata verdiyi bəyanatında bildirib ki, 2024-cü ilin yanvarına qədər Ermənistanın təkidlə sülh müqaviləsinə salmaq istədiyi "Dağlıq Qarabağ respublikası" yoxdur və bu, ancaq Ermənistanın xülyalarında mövcud olub.**

Azərbaycanın Qarabağ bölgəsinin olduğunu vurğulayan dövlətimizin başçısı diqqətə çatdırdığımız fikirlərini cənab Ştaynmayeri Bakı – İrəvan sülh prosesi ilə bağlı məlumatlandırarkən dilə gətirib. Fikrimizcə, ölkəmizin lideri, kifayət qədər dolğun mesaj verib. Yəni başlıca məqam budur ki, Qarabağın Ermənistana bağlılığı, yaxud onun hansısa formada ayrıca erməni subyekti kimi göstərilməsi, heç bir halda, mümkün deyil.

Bəli, mesaj Qarabağ avantürasını ən müxtəlif hiyləgərlik metodları ilə gündəmdə saxlamağa çalışan qüvvələrə ünvanlanıb. Həmin qüvvələr bilməlidirlər ki, danışıqlar prosesinə yeni gündəm gətirmək cəhdləri həmişə olduğutək, yenə iflasa uğrayacaq. Hər halda, Almaniya kimi vacib ölkənin Prezidentinin Bakıya səfərini onlar da diqqətlə izləyirdilər. Şübhəsiz, bu qüvvələr alman liderdən Ermənistanın müdafiəsi ilə bağlı hansısa fövqəladə bəyanat və açıqlama gözləyirdilər. Əlbəttə, "gözləntiləri" özünü doğrultmadı və doğrulda bilməzdi.

Yeri gəlmişkən, Prezident Frank-Valter Ştaynmayer də mətbuata bəyanatında Azərbaycan – Ermənistan sülh prosesinə toxundu. Hesab edirik ki, alman liderin münasibəti diplomatikliyi ilə yadda qaldı. Məsələn, o, sözügedən prosesin çox böyük əhəmiyyətinin olduğunu vurğuladı. Son bir il ərzində mövcud istiqamətdə atılan addımlar və əldə olunan irəliləyişlər münasibətilə təbriklərini ifadə edən Almaniya Prezidenti razılaşmanın əldə olunması ilə bağlı mühüm anın yetişdiyini vurğuladı. "Ümid edirəm ki, bu andan istifadə olunaraq sülh müqaviləsi imzalanacaq və sizin regionda əsl davamlı sülh yaranacaq. Mən buna çox böyük ümidlər bəsləyirəm", – deyən Prezident Ştaynmayer ölkəsinin lazımi dəstək verməyə hazır olduğunu da diqqətə çatdırdı.

(ardı 7-ci səhifədə)

## Bakıdan dünyaya ismarıc, İrəvana isə xəbərdarlıq



**"Əgər Ermənistan, doğrudan da, sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın iki legitim şərtini qəbul etməlidir". Prezident İlham Əliyev bu sözləri ölkəmizdə rəsmi səfərdə olan almaniyalı həmkarı Frank-Valter Ştaynmayeri Azərbaycan–Ermənistan sülh prosesi barədə məlumatlandırarkən deyib.**

Əslində, təkcə Almaniya Prezidentinin deyil, ermənipərəst "kollektiv Qərb"in diqqətinə çatdırılan bu ismarıc İrəvana son xəbərdarlıq kimi qəbul edilməlidir. Rəsmi Bakının sülh sazişinə əlavə olaraq irəli sürdüyü, beynəlxalq hüquqa əsaslanan hamıya məlum legitim şərtlərini qarşı tərəf bir ildən çoxdur ki, özünə sərfəli formada interpretasiya etməklə məşğuldur. Bu zaman Paşinyan komandası üzvlərinin fərqli, bəzən bir-birini təkzib edən, ikibaşlı şərh və açıqlamalarını da az eşitməmişik.

Görünən odur ki, Ermənistanda Azərbaycanın irəli sürdüyü hüquqi və məntiqi tələblərin qəbul edilməsi haylar üçün ağrılı prosesə çevrilib. Ən böyük problem də elə bundan ibarətdir. Müstəqil qərarlar qəbul etməkdən, siyasi iradə sahibi olmaqdan məhrum edilmiş rəsmi İrəvan problemi tipik erməni düşüncə tərzinə, daha doğrusu, hay xəstəliyinə uyğun şəkildə "həll etməyə" çalışır.

(ardı 11-ci səhifədə)

## Papa Fransisk, Maloyan və erməni ruhaniliyinin terror sifəti

*Vatikan qondarma "erməni soyqırımı"nı təbliğ edir*

**Papa Fransisk qondarma "erməni soyqırımı" zamanı qətlə yetirildiyi bildirilən erməni keşişi İqnatius Maloyanın kanonlaşdırılması (müqəddəsləşdirilməsi – red.) barədə qərar verib. Bir sözlə, Vatikan onun müqəddəsləşdirilməsi tələbini qəbul edib. Tələbi irəli sürən isə Kilikiyanın katolik patriarxı XXI Rafael Petros olub.**



Aydındır ki, Roma papasının addımı "erməni soyqırımı" cəfəngiyyatını yenidən dövriyyəyə gətirmək, anti-Türkiyə ovqatı yaratmaq məqsədini daşıyır. Maloyanın kanonlaşdırılması qərarının elan edilməsi üçün seçilmiş vaxt da təsadüfi deyil. Məlumdur ki, aprelin 24-də qondarma iddianın 110 illiyidir.

(ardı 8-ci səhifədə)

## Aprel döyüşləri – Qarabağ Zəfərinin müjdəçisi



Səhifə ⇨ 12

## Qarabağ separatçıları "bəlkə də qaytardılar" sevdasında

Səhifə ⇨ 7

## Bakı 30-cu Enerji Həftəsinə hazırlaşır

**İyunun 2-4-də Bakıda enerji sahəsinin ən böyük hadisələrindən olan 30-cu "Bakı Enerji Həftəsi" keçiriləcək. Bu barədə ölkəmizdə sərgilərin təşkilatçıları olan "Caspian Event Organisers" və "İteca Caspian" şirkətləri məlumat yayıb.**

(ardı 14-cü səhifədə)

BAKU ENERGY FORUM

# Azərbaycan–Almaniya: Anlaşma və əməkdaşlıq dərinləşir

## Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycana rəsmi səfəri

### Rəsmi qarşılanma mərasimi







**Aprelin 2-də Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Almaniya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Almaniya Prezidenti Frank-Valter Ştaynmayeri və birinci xanım Elke Büdenbenderi qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Almaniya Prezidentinə raport verdi.

Almaniya Federativ Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

### Prezidentlərin təkbətək görüşü



**Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olub.**

### Geniş tərkibdə görüş



**Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü keçirilib.**

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Cənab Prezident, əziz qonaqlar, xoş gəlmisiniz. Sizə burada yaxşı vaxt keçirməyi arzulayıram. Bizim elə indicə cənab Prezidentlə məhsuldar görüşümüz oldu. Görüş zamanı biz ikitərəfli gündəliyə daxil olan geniş, əhatəli məsələləri, eləcə də beynəlxalq məsələləri müzakirə etdik. Almaniya Prezidentini Azərbaycanda qəbul etməkdən çox məmnunam. Bildiyiniz kimi, bizim mütəmadi təmaslarımız olub. Biz keçən il Berlində görüşmüşdük və mən dəvətimi qəbul etdiyinizə görə Sizə minnətdaram. Əminəm ki, səfər çox faydalı, məhsuldar olacaq və bizim ikitərəfli əlaqələrimizə yeni təkan verəcəkdir. Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident Frank-Valter Ştaynmayer dedi:** Təşəkkür edirəm, cənab Prezident. Səmimi dəvətinizə görə təşəkkür edirəm. İcazə verin bildirim ki, uzun illərdən sonra yenidən Azərbaycanda olmaq xoşdur. Sonuncu səfərim xarici işlər naziri qismində 2016-cı ildə oldu. Ötən 9 ildə geosiyasi dəyişikliklərə gəlincə, bu, əbədiyyət kimi görünür. Lakin düzünü söyləsək, mən təxminən iki il bundan əvvəl Azərbaycan ərazisində - Xəzərin şərq hissəsində olmuşam. Sizin Aktaudakı logistika mərkəzini ziyarət edərkən və Azərbaycan gəmisinə minərkən mən öyrəndim ki, bu gəmi Azərbaycan ərazisidir. Ona görə də buraya, Bakıya yenidən qayıtmaq və bu günlərdə zəruri olan çox geniş fikir mübadiləsi aparmaq üçün imkana malik olmaq xoşdur.

*

Görüşdə Orta Dəhliz layihəsi və bu layihədə Azərbaycanın rolu, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi, yaşıl enerji ilə bağlı əməkdaşlığa toxunuldu. COP29-un Azərbaycanda yüksək səviyyədə təşkil edildiyi və həmin tədbir zamanı iqlim gündəliyi ilə bağlı mühüm nəticələrin əldə olunduğu vurğulandı.

Söhbət zamanı humanitar əlaqələrin inkişafına toxunuldu. Alman icmasının uzun illər Azərbaycanda sülh və əmin-amanlıq şəraitində yaşaması və onlara dövlət səviyyəsində göstərilən yüksək diqqət qeyd edildi.

# Liderlər mətbuata bəyanatlarla çıxış ediblər

**Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer mətbuata bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**



### Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, Sizi bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Mən şadam ki, bizim aramızda siyasi dialoq müntəzəm olaraq aparılır. Keçən ilin aprel ayında mən Berlində səfərdə olarkən Sizinlə görüşmüşdüm və şadam ki, mənim dəvətimi qəbul edib Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz.

Həm təkbətək görüşdə söhbət əsnasında, həm də nümayəndə heyətlərinin iştirakı ilə apardığımız danışıqlarda Almaniya–Azərbaycan əlaqələrinin gələcək inkişafı müzakirə edilmişdir. Mən tam əminəm ki, bu səfər bizim əlaqələrimizə yeni müsbət təkan verəcəkdir. İqtisadi sahədə əldə edilmiş nəticələr bizi təbii olaraq ruhlandırır. Çünki bu ilin yanvar–fevral aylarında bizim ticarət dövriyyəmiz təxminən üç dəfə artıb. Bunun əsas səbəbi Azərbaycandan Almaniyaya ixrac edilən xam neftin həcminin artması olmuşdur. Ona görə biz hesab edirik ki, gələcək illərdə öz ticarət dövriyyəmizin şaxələndirilməsi ilə bağlı daha fəal addımlar atmalıyıq, xüsusilə bərpaolunan enerji sahəsində - harada ki, Almaniya şirkətlərinin çox böyük təcrübəsi var, Azərbaycanın da çox böyük proqramı, planları var. Biz xarici investorların sərmayəsi hesabına 2030-cu ilə qədər bərpaolunan enerji növlərinin istehsal gücünü 6 giqavata çatdırmaq fikrindəyik və bu, tam realdır, bunun bir hissəsi Avropaya ixrac ediləcəkdir.

Bildiyiniz kimi, keçən il Azərbaycan COP29 beynəlxalq iqlim konfransına ev sahibliyi etmişdir. Bu istiqamət üzrə də bizim Almaniya ilə çox fəal əməkdaşlığımız olub. COP29-da 197 ölkəni təmsil edən 77 mindən çox iştirakçı qeydiyyatdan keçmişdir və bu konfrans böyük, uğurlu nəticələrlə zəngin idi. İştirak etməyən yeganə ölkə Ermənistan olmuşdur. Bu da təbii olaraq təəssüf hissi doğurur. Çünki xüsusilə indiki şəraitdə – Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin uğurla getdiyi bir zamanda Ermənistan tərəfinin bu beynəlxalq konfransı boykot etməsi başadüşülən deyildi. Bu gün bu məsələ də müzakirə olundu və Azərbaycanın mövqeyi Almaniya tərəfinə çatdırılmışdır.

Azərbaycan 30 il ərzində erməni işğalından əziyyət çəkmişdir. Bizim xalqımız etnik təmizləməyə məruz qalmışdır. Bir milyon azərbaycanlı erməni aqressiyasına görə evsiz-eşiksiz qalmışdır və torpaqlarımızın təxminən 20 faizi işğal altına düşmüşdür. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı ciddi addım atmamışlar. Azərbaycan bu münaqişəni və beynəlxalq hüququ özü döyüş meydanında və siyasi müstəvidə həll etmişdir. Məhz bu tarixi Zəfərimiz sülh danışıqlarına yol açmışdır. Hesab edirəm ki, bu gün Azərbaycanın və Ermənistanın sülhün əldə edilməsində mövqeləri bir-birinə kifayət qədər yaxınlaşmışdır.

Eyni zamanda, bu gün digər beynəlxalq məsələlər də müzakirə edildi, o cümlədən Amerika–Avropa İttifaqı gərginliyi, Rusiya–Qərb gərginliyi. Bütün bu məsələlər təbii olaraq bütün dünyaya təsir edir və səmimi fikir mübadiləsi aparmaq mənim üçün çox önəmli idi.

Bir daha demək istəyirəm, əminəm ki, bu səfərin çox müsbət nəticələri olacaqdır. İkitərəfli münasibətlərimizin tarixində bu, Almaniya Prezidentinin Azərbaycana birinci rəsmi səfəridir. Əminəm ki, səfərin yekunları bizim ölkələrimizi bir-birinə daha yaxın edəcəkdir.

Bir daha xoş gəlmisiniz.

**(ardı 3-cü səhifədə)**

# Liderlər mətbuata bəyanatlarla çıxış ediblər

(əvvəli 2-ci səhifədə)



**Sonra Almaniya Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident Frank-Valter Ştaynmayerin bəyanatı

– Hörmətli həmkarım cənab Prezident, bu səmimi dəvətə görə dərin təşəkkürümü bildirir və göstərilmiş qonaqpərvərliyə görə bütün alman nümayəndə heyətinin adından təşəkkür edirəm. Çox ürəyimizcə oldu. Siz qeyd etdiniz ki, Azərbaycanda birinci dəfə deyiləm, bu vəzifədə ilk dəfədir gəlirəm. Prezident kimi birinci dəfə gəlirəm. Əvvəllər Azərbaycanda dəfələrlə olmuşam. Amma axırıncı dəfə 2016-cı ildə səfər etmişdim və artıq doqquz il keçib üstündən. Hazırda dünyada vəziyyət çox sürətlə dəyişir və geosiyasi baxımdan 9 ildə o qədər dəyişikliklər olub ki, 2016-cı ildə ölkənizə səfərim mənə artıq uzaq keçmiş kimi görünür. Şadam ki, bu gün yenidən gəlib görüşdük və çox geniş fikir mübadiləsi apara bildik. Əslində, həmişə bu mübadiləni aparmışıq. Bakıda olmasa da, başqa yerlərdə görüşmüşük, telefonla söhbət etmişik. Münxen Təhlükəsizlik Konfransında görüşmüşük, eləcə də Sizin Berlinə səfərinizi yaxşı xatırlayıram. Keçənilki görüşdə müzakirə apardıq və şadam ki, səfərinizə cavab olaraq bu gün ölkənizdəyəm.

Cənab Prezident, biz ölkələrimiz arasındakı münasibətlərin tarixi haqqında danışmışıq. Əvvəla, şvabiyalı kəndlilərin burada - Azərbaycanda məskunlaşmasını, şərabçılıq ənənələrini yaratmasını xatırlaya bilərik. Onlar kənd təsərrüfatının inkişafında iştirak ediblər. Əlbəttə, sənayeləşmədə də onların xeyli iştirakı olub. Alman təşkilatları, böyük şirkətlər sənayenin inkişafında, mis çıxarılmasında, elektrik enerjisi şəbəkəsinin qurulmasında iştirak ediblər. Bir çox almanlar Azərbaycanda yaşayıblar. Bunu ona görə xatırladıram ki, bu münasibətlərimizin uzun keçmişini, Almaniya ilə Azərbaycan arasında bu münasibətlərin çoxdan olduğunu bilmək vacibdir. Çox məmnunam ki, Azərbaycanda alman dilinə və Almaniyada təhsilə böyük maraq var. Azərbaycan gəncləri Almaniyada təhsil almağa böyük maraq göstərirlər və hesab edirəm ki, biz məhz elmi əməkdaşlıq sahəsində əlaqələrimizi genişləndirməliyik.

Bu cür mübadilədən çox məmnunam. Şadam ki, bir-birimizlə həmişə açıq danışa bilmişik. Həm ümumi fikrimiz olduğu mövzularda, həm də mövqeyimiz fərqləndiyi məsələlərdə səmimi danışa bilmişik. Hər iki tərəf geniş söhbətlər əsnasında bir-biri ilə açıq danışıb, söhbətlər aparıb. Hazırda çox sürətli və dramatik dəyişikliklərin baş verdiyi dünyada yaşayırıq. Cənab Prezident, Siz ölkələrimizi birləşdirən meyarları artıq qeyd etdiniz. Beynəlxalq hüququn qorunması, dünyanın tənzimlənən əsaslarla inkişaf etməsində marağımız da bizi birləşdirir və biz gələcək nəsillərə də düzənsiz dünyanı qoyub getmək istəmirik.

Bizim üçün strateji mövzularda da müzakirə apardıq. Eyni zamanda, iqtisadi əməkdaşlıq perspektivlərimizi müzakirə etdik. Siz artıq bir neçə meyarı qeyd etdiniz. Bununla belə, 2022-ci ildə Azərbaycan Almaniyada böyük rol oynayıb. Rusiyadan aldığımız qaz təchizatında dayanma baş verdiyi zaman Azərbaycan üzərinə böyük məsuliyyət götürdü və mən buna görə Sizə çox təşəkkür edirəm. Sizin sözlərinizdən elə başa düşdüm ki, burada qaz ilə yanaşı, infrastrukturun genişləndirilməsinə də ehtiyac var. Beləliklə, infrastrukturun yaxşılaşdırılması üzərində Avropada işləməliyik. Çünki o, hələ də kifayət həcmdə deyil. Bir sözlə, bu görüşlərdən sonra yeni ev tapşırıqlarımız da var.

Çox şadam ki, Azərbaycan inkişaf edərək mühüm məkana çevrilib və buradan olduqca vacib ticarət yolları keçir, öz növbəsində həmin amil dünyanın birləşməsinə əsas ola bilər. Biz iqtisadi-ticari münasibətlərimiz haqqında danışdıq. Yalnız Mərkəzi Asiya ilə deyil, həm də Uzaq Şərqlə, o cümlədən Cənub-Qərbi Asiya və Çinlə Almaniyanın ticarət əlaqələrində ölkənizin rolu var. Bilirik ki, hazırkı mövcud yolların imkanları məhduddur. Ölkənizdən keçən yollar, həmçinin Orta Dəhlizin rolu alman iqtisadiyyatı üçün vacibdir, yaxşı perspektivdir və bu, daha maraqlı olacaq. Son illərdə cərəyan etmiş hadisələrdən sonra Cənubi Qafqaz regionunuz daha sabit bölgəyə çevriləcək. Bununla mən, cənab Prezident, Sizin toxunduğunuz bir məsələyə də münasibət bildirmək istəyirəm. Siz qonşu Ermənistan arasında sülh münasibətləri haqqında danışdınız. Bu sülh prosesinin çox böyük əhəmiyyəti var. Kənardan müşahidə edən bir şəxs kimi deyə bilərəm ki, bu, bizə böyük təəssürat bağışlayır. Yəni, son bir il ərzində çox böyük addımlar atılıb, çox böyük irəliləyişlər olub. Hər iki tərəfi bu münasibətlə təbrik edirəm ki, artıq anlaşma yaranıb. Martın 13-də bu sülh müqaviləsinin mətninin razılaşdırılması barədə bəyanat verildi. Bu müqavilə haqqında mən bu gün səhər danışanda cənab Prezidentə dedim ki, bu anlaşma ilə ümid doğuran bir an yaranıb. Bu razılaşma əldə olunduğuna görə ümid edirəm ki, vəziyyət daha da inkişaf edəcək və ondan istifadə edərək tezliklə sülh müqaviləsinin imzalanmasına gəlib çıxacaqsınız, nəhayət sizin regionunuzda əsl və davamlı sülh yaranacaq. Mən buna çox böyük ümid bəsləyirəm və sizi həmin anı əldən buraxmamağa çağırıram. Bütün çətinliklərə və maneələrə baxmayaraq, bu yol qət edilib, xeyli addımlar atılıb və sona qədər getmək lazımdır. Bununla belə, təbii olaraq, kompromislər üçün cəsarət, siyasi iradə lazımdır, nəticədə siyasi müqavilə həqiqətən də həyata keçə bilər və qüvvəyə minər. Ümid edirəm ki, hər şey alınacaq və biz, həmçinin kənardan bacardığımız qədər, necə mümkündürsə öz dəstəyimizi verəcəyik. Çox sağ olun.

*

Daha sonra jurnalistlərin sualları cavablandırılıb.

***Berlində fəaliyyət göstərən DPA informasiya agentliyindən Ullrix Ştaynkol:***

***– Cənab Əliyev, Sizin İrəvandakı həmkarınız bildirmişdir ki, bu müqavilənin həyata keçirilməsində yaranmış maneələr aradan qaldırıla bilinəcək maneələrdir. O, özü bunun üçün çalışır. Çətinlik ondadır ki, Sizin ölkəniz daha əlavə tələblər irəli sürür. Xahiş edirəm, izah edin, sülh müqaviləsini imzalamaqda nə qədər ciddisiniz? Sülh Sizin üçün nə qədər ciddidir? Daha bir sualım cənab Federal Prezidentədir ki, Siz öz növbənizdə Ermənistandan Azərbaycana hər hansı mesaj gətirmisinizmi?***

**Prezident İlham Əliyev:** Bu gün söhbət əsnasında mən cənab Prezidenti Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı kifayət qədər məlumatlandırdım. Bildirdim ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycan və şəxsən mən sülh danışıqlarının başlanmasının təşəbbüskarı olmuşam. O vaxt nə Ermənistan, nə də ki, o vaxt hələ fəaliyyət göstərən ATƏT-in Minsk qrupu belə bir təklif irəli sürməmişdir. Bu təklifi Azərbaycan tərəfi vermişdir. Bu, özlüyündə onu göstərir ki, biz sülh müqaviləsinin bağlanmasında nə qədər maraqlıyıq. Ermənistandan hər hansı bir cavab gəlmədiyi üçün biz mümkün olan bu müqavilənin əsas prinsiplərini də ortaya qoyduq. Yadımdadır, 5 əsas prinsip irəli sürülmüşdü və bu prinsiplər əsasında müzakirələrə start verildi. Danışıqların əsas maneəsi ondan ibarət idi ki, 2024-cü ilin yanvar ayına qədər Ermənistan təkidlə sülh müqaviləsinə dırnaqarası Dağlıq Qarabağ respublikasının taleyini salmaq istəyirdi. Biz isə buna qəti etiraz edirdik. Çünki "Dağlıq Qarabağ" adlı respublika yoxdur. Bu, ancaq Ermənistanın xülyalarında mövcud olub. Azərbaycanın Qarabağ bölgəsi mövcuddur. Bu, bizim daxili işimiz olduğu üçün biz təbii ki, dövlətlərarası müqaviləyə belə bir bəndin salınmasına heç vaxt razı ola bilməzdik.

Ancaq 2023-cü ilin sentyabr ayında Qarabağ torpağında separatizmə son qoyulandan bir neçə aydan sonra Ermənistan təkidlə irəli sürdüyü o maddəni sülh müqaviləsinin mətnindən çıxarmağa razı oldu. Faktiki olaraq real danışıqlar təqribən bir il bundan əvvəl başlamışdır. Bu günə qədər sülh müqaviləsinin mətni tam razılaşdırılıb, 17 paraqrafdan ibarətdir. Azərbaycan burada hər hansı bir əlavə şərt irəli sürməyib. Bizim şərtlərimiz Ermənistan üçün bəllidir, yenilik deyil. Bu şərtləri biz uzun müddət ərzində irəli sürürük. Ancaq Ermənistandan bu günə qədər hər hansı bir ciddi cavab almamışıq. Nədən ibarətdir bu? Birincisi, ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Bunun da məntiqi ondan ibarətdir ki, 1992-ci ildə yaradılmış ATƏT-in Minsk qrupunun mandatı Qarabağ münaqişəsinin həlli idi. Qarabağ münaqişəsini Azərbaycan özü həll edib - BMT Nizamnaməsi əsasında və beynəlxalq hüquq çərçivəsində. Münaqişə həll olunduğu üçün və Ermənistan rəsmən Qarabağı Azərbaycan torpağı kimi tanıdığı üçün ATƏT-in Minsk qrupunun de-yure fəaliyyətinə heç bir əsas qalmamışdır. Onsuz da de-fakto bu qrup fəaliyyət göstərmirdi. Ermənistanın buna razı olmaması bizdə haqlı olaraq şübhələr doğurur. Görəsən, nə üçün? Bəlkə Ermənistan bizə qarşı yenə də ərazi iddiası ilə çıxış etmək istəyir? Onların sürətli silahlanması, öldürücü silahlar əldə etməsi, bu sahədə onlara əsas yardımçı olan Fransanın onları yeni təxribatlara təhrik etməsi bu şübhələri təbii olaraq artırır. Yəni, bu, birinci məsələdir.

İkinci məsələ Ermənistanın konstitusiyası ilə bağlıdır. Ermənistan konstitusiyasında Ermənistanın müstəqillik aktına istinad var. O, konstitusiyanın tərkib hissəsidir. Orada isə Azərbaycanın hüquqi, tarixi ərazisinin Ermənistanla birləşməsi haqqında müddəa var və bu, bizə qarşı açıq ərazi iddiası sayılır. Ona görə Ermənistan konstitusiyasından bu bəndin çıxarılması bizim legitim tələbimizdir. Bu iki şərt təmin ediləndən sonra sülh müqaviləsini imzalamaq üçün heç bir maneə olmayacaq. Necə deyərlər, top Ermənistanın tərəfindədir. Əgər doğrudan da Ermənistan sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın bu iki legitim şərtini qəbul etməlidir.

*

**Prezident Frank-Valter Ştaynmayer:**

– Xanımlar və cənablar.

Son üç onillik ərzində bu münaqişəni, onun kəskinləşməsini və yaratdığı əzab-əziyyətləri, eləcə də xeyli qurbanlara səbəb olmuş müharibələri müşahidə edən hər bir insan başa düşür ki, bu cür münaqişənin həlli, eləcə də tərəflər arasında qarşılıqlı etimadın bərpası üçün xeyli vaxt və səy tələb olunur. Bunu öncədən qeyd etdim və bilirəm ki, belə münaqişələrdən sonra çox böyük səylər tələb olunur. Həmin səylərə də hörmət bəsləyirəm ki, müqavilənin mətni işlənib hazırlanıb. Hazırkı dövrdə razılığı əldə etmək çox böyük işdir. Ümidvaram ki, həmin müqaviləyə əlavə olaraq cənab Prezident Əliyevin indicə qeyd etdiyi şərtlər üzərində də razılaşma olacaq. Fikrimcə, onlar Azərbaycanla Ermənistan arasında davamlı sülhün əldə olunmasında maneəyə çevrilməməlidir. Təkrar edirəm, çox önəmli qətiyyət var, vacib an yetişib, onun ritmini itirmək məsuliyyətsizlik olardı. Yadda saxlamaq lazımdır, Almaniyanın da, Avropanın da təcrübəsi göstərir ki, müqavilənin hazırlanması və onun həyata keçirilməsi ilk addımdır. Sonra isə müqavilənin həqiqətən də qüvvəyə minməsi, reallıqda barışığa çevrilməsi neçə nəsilləri tələb edir. Bu, çox uzun bir prosesdir. Belə bir etibarlı barışığın həyata keçirilməsi hər iki ölkədən və xalqdan hələ çox vaxt tələb edəcək. Ona görə də bu barışığa uzun zaman tələb edildiyini diqqətdən qaçırmaq olmaz. Amma ilk addım müqavilənin hazırlanması, imzalanması, ratifikasiyası, qüvvəyə minməsi və həyata keçirilməsidir. Sonra isə digər problemlər də həll oluna bilər. Ümid edirəm ki, bu, tezliklə baş tutacaq.

*

***REAL Televiziyasından Vəfa Həmzəyeva:***

***– Hər ikinizi salamlayıram. Sualım cənab Ştaynmayerədir. Cənab Prezident, Siz çıxışınızda qeyd etdiniz ki, Ermənistan ilə Azərbaycan arasında olan bu prosesləri, münaqişəni və indi gəldiyimiz nöqtəni izləyirdiniz və biz əminik ki, proseslərin fərqindəsiniz. Ermənistan 30 ilə yaxın bir müddətdə Azərbaycan ərazilərində təcavüzkar müharibə aparıb və beynəlxalq hüququn normalarını ciddi şəkildə pozub. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin 20 faizini işğal etmişdi. Yəqin ki, hələ o dönəmdə Ermənistana qarşı sanksiyalar tətbiq olunsaydı, münaqişə daha tez həllini tapardı. Necə düşünürsünüz, Qərb niyə Ermənistana qarşı konkret addımlar atmadı? Təşəkkür edirəm.***

**Prezident Frank-Valter Ştaynmayer:**

– İlk növbədə, demək istəyirəm ki, suala görə çox sağ olun. Amma dediklərimə, yəqin, qulaq asmamısınız. Mən müxtəlif vəzifələrdə Cənubi Qafqazdakı münaqişələrlə məşğul olmuşam, Azərbaycan ilə Ermənistan arasında münasibətlərlə də uzun müddətdir tanışam. Almaniya hökumətlərinin son illərdə siyasətlərinə nəzər yetirsəniz, yəqin, görəcəksiniz ki, orada həm Ermənistana, həm Azərbaycana çox balanslaşdırılmış münasibət olub. Yəni, çalışmışıq elə yanaşma göstərək ki, həssas məqamlar diqqətdən kənarda qalmasın və bu vaxta qədər biz beynəlxalq hüquq normalarına uyğun münasibət bildirmişik. Dediyim kimi, biz sülh müqaviləsinin hazırlanmasını çox alqışlayırıq və Qarabağ regionunun Azərbaycan ərazisi olduğunu bilirik, tanıyırıq. Bu, bizim mövqeyimizdir və bu mövqe Azərbaycan tərəfindən də konkretləşdirilə bilər.

*

***Almaniyanın ARD telekanalının müxbiri Silviya Ştöber:***

***– Cənab Prezident Əliyev. Siz 17 bəndi qeyd etdiniz. Bu 17 bənddən Azərbaycan üçün hansı ən vacibidir?***

***Cənab Prezident Ştaynmayer, Siz barışıq sözünü işlətdiniz. Bu barışıq İkinci Dünya müharibəsindən sonra Almaniyanın bərpası üçün vacib idi. Həmin amil Avropadakı ölkələrin xalqlarının bir-birinə yaxınlaşması işində necə rol oynamışdır? Bu barədə də danışsanız, minnətdar olaram.***

**Prezident İlham Əliyev:** Əslində, belə tarixi müqavilələrdə hər bir paraqraf, hər bir bənd böyük əhəmiyyət daşıyır. Mən Prezident Ştaynmayerlə söhbət əsnasında bildirdim ki, Azərbaycan bilərəkdən bu müqaviləni həddindən çox yükləmək də istəməmişdi, ona görə o, çox yığcam müqavilədir, əsas prinsipləri əhatə edir. Yenə də deyirəm, hər bir məsələ orada ciddi əhəmiyyət daşıyır. Bu sənəd üzərində iki ölkənin mütəxəssisləri, hüquqşünasları, Xarici İşlər nazirliklərinin nümayəndələri fəal işləyiblər və hesab edirəm ki, hər iki tərəf xoş niyyət göstərib. Əks təqdirdə, bu sənəd ərsəyə gəlməzdi. Bu, birincisi. İkincisi, Ermənistanda və bəzi Qərb dairələrində Azərbaycanı müqaviləni imzalamamaqda günahlandırmaq istəyirlər. Bu da tamamilə əsassızdır. Çünki artıq qeyd etdiyim kimi, bu prosesin təşəbbüskarı Azərbaycan olub. Əsas prinsipləri işləyən də Azərbaycan olub və biz xoş niyyət göstərərək bu danışıqlarda iştirak etmişdik. Əgər biz müqaviləni imzalamaq istəməsəydik, elə qeyri-real bir şərt qoyardıq ki, Ermənistan onu qəbul etməzdi.

O ki qaldı, həmin prinsiplərin ən əsasına, ən vacibinə, əlbəttə ki, bu, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımasıdır - Qarabağ daxil olmaq şərti ilə. Özü də o Ermənistan hökumətindən ki, 2019-cu ildə bu hökumətin başçısı Xankəndidə - Azərbaycan ərazisində, - haraya ki, qanunsuz gəlmişdi, - mitinqdə elan etmişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bu gün bəziləri, - mən bunu bir neçə dəfə demişəm, - Ermənistanı "sülh göyərçini" kimi təqdim etməyə çalışırlar. Amma Ermənistan hökuməti həmin hökumətdir ki, hakimiyyətə 2018-ci ildə gələndən sonra o vaxta qədər aparılmış bütün danışıqları sıfra bərabər etdi. Bildirdi ki, Azərbaycan dırnaqarası, qanunsuz "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bizə qarşı əsassız ərazi iddialarını nəinki aradan götürmədi, hətta öz tələblərini daha da sərtləşdirdi. Bax bugünkü həmin Ermənistan hökumətinin müdafiə naziri açıq demişdir ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır. Yəni, indi bugünkü Ermənistan hökumətindən və onun başında duranlardan "sülh göyərçini" düzəltmək tamamilə yanlış və əsassızdır. Bu gün razılaşdırılmış mətn onu göstərir ki, Ermənistan bu sülh müqaviləsinə məcburən imza atır. Çünki döyüş meydanında əldə etdiyimiz Qələbə, ondan sonra siyasi müstəvidə Azərbaycanın mövqeyinin üstünlük təşkil etməsi Ermənistanın arxasında duran bəzi Avropa ölkələrinin səylərinə rəğmən, nə BMT Təhlükəsizlik Şurası, nə Avropa İttifaqı Azərbaycana qarşı hər hansı bir məhdudlaşdırıcı ölçü götürmədiyi üçün bu gün Ermənistan məcbur olub Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Ona görə bu bəndlər arasında təbii olaraq məhz budur - "Qarabağ Ermənistandır və nöqtə" deyən bir adam bu gün "Qarabağ Azərbaycandır" deyir. Hesab edirəm ki, bu, gözəl bir təkamül prosesidir və biz bunu alqışlayırıq.

*

**Prezident Frank-Valter Ştaynmayer:**

– Mənə verilən suala cavab olaraq bir neçə cümlə deyim. Barışıq necə qurulmalıdır? Buna necə təşəbbüs göstərmək olar? Bunun üçün istənilən yerdə tətbiq oluna biləcək bir resept və ya standart yoxdur. Məlumdur ki, müharibə apardıqdan sonra inam yalnız müəyyən vaxt keçdikdən sonra yaranır. Etimad birdən-birə yox, tədricən və ya ehtiyatla qazanılır. Qarşılıqlı inam bu cür formalaşır. Sizin suala cavab olaraq Avropadan bir misal çəkim: Ullrix Vikard, alman jurnalisti, tanıdığınız həmkarınız, bu yaxınlarda alman-fransız münasibətləri haqqında kitab dərc edib. O yazır ki, son 400 il ərzində Almaniya ilə Fransa arasında 23 müharibə baş verib. 1870-ci, 1914-cü və 1939-cu illərdəki son 3 müharibə lap çox qurbanlarla yadda qalmışdır. Bu iki ölkə bir-birinə sonsuz ədavəti olan düşmən idilər. Keçmiş tarix kitablarında Fransa Almaniyanın əzəli düşməni kimi qələmə verilirdi. Əslində, çoxsaylı qurbanlardan sonra yaxın dostluq münasibətlərinin yaranmasını gözləmək çox da asan deyildi. Əski tarix kitablarına baxsaq, bunu təsəvvür etmək belə mümkün deyil. Hər iki tərəf həm qətiyyət, həm siyasi iradə göstərərək keçmişi geridə qoyub yeni gələcəyə doğru addım atıb. Hər bir regionda, dünyada, o cümlədən Cənubi Qafqazda da azad və sülh şəraitində həyatı hər kəs arzulayır. Bununla belə, dinc şəraitdə yaşamaq üçün, həmçinin müəyyən siyasi işlər görülməlidir.

*

**Azərbaycanın** ***AnewZ televiziyasından Orxan Amaşov:***

***– Mənim sualım Prezident Ştaynmayerədir. Azərbaycanın Qarabağ regionunda Ermənistan tərəfindən yaradılmış qondarma separatçı rejimin keçmiş rəhbərlərinin hazırda Bakıda məhkəməsi gedir. Onlar öz ifadələrində etiraf edirlər ki, 100-dən artıq mülki şəxsin ölümü ilə nəticələnən Azərbaycanın şəhər və kəndlərinin bombardmanı Ermənistanın hazırkı rəhbərliyinin, daha dəqiq desək, baş nazir Nikol Paşinyanın birbaşa əmrləri ilə aparılmışdır. Həmin müharibə cinayətlərinə gəldikdə, nəyə görə Avropa İttifaqı və onun təsisatları Ermənistana və onun siyasi-hərbi rəhbərliyinə qarşı sanksiya tətbiq etməyib? Sağ olun.***

**Prezident Frank-Valter Ştaynmayer:**

– Almaniyanın xarici siyasətinə nəzər salsaq görərik ki, mən son dövrlərdə bu siyasətin iştirakçısı olmuşam, bir çox hökumətlərdə iştirak etmişəm. Öz adımızdan onu deyə bilərəm ki, biz bu regionda qeyri-sülh şəraiti ilə heç vaxt barışmamışıq. Bir tərəfin digər tərəfə ərazi iddialarına heç vaxt dəstək verməmişik. Düşünürük ki, beynəlxalq səviyyədə tanınmış sərhədlər qüvvədə olmalıdır, tanınmalıdır və onlara hörmətlə yanaşılmalıdır. Almaniyanın mövqeyinə gəldikdə deyə bilərəm ki, biz öz xəttimizə, mövqeyimizə həmişə sadiq olmuşuq. Ümid edirəm ki, bu, sizin regionda da anlaşılar. İstəyirik ki, iki dövlət arasında qeyri-sülh dövrü geridə qalsın və sabitlik gətirəcək yeni bir gələcək yaransın. Həm Ermənistan, həm də Azərbaycan üçün Cənubi Qafqaz sülhün bərqərar olduğu regiona çevrilməlidir.

# Prezident İlham Əliyevin adından Almaniya Prezidentinin şərəfinə rəsmi nahar



**Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin şərəfinə rəsmi nahar verilib.**

# Prezidentlər Heydər Əliyev Mərkəzində təşkil olunmuş konsert proqramında



**Aprelin 2-də Heydər Əliyev Mərkəzində məşhur Azərbaycan və alman bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı təşkil olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer, birinci xanım Elke Büdenbender tədbirdə iştirak ediblər.

Konsertdən sonra furşet təşkil olunub.



# Almaniya Prezidenti İçərişəhərdə



**Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer və xanımı Elke Büdenbender aprelin 2-də dünya mədəni irs abidələri sırasında yer alan İçərişəhərlə tanış olublar.**

Ali qonağın İçərişəhərə gəzintisi tarixi memarlıq abidəsi olan Qız Qalası ilə tanışlıqdan başlayıb. Almaniya Prezidenti qala divarlarının inşasının tarixi barədə məlumatlandırılıb.

Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir.

Gəzinti zamanı Almaniya Prezidenti və xanımına UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, həmçinin burada aparılan təmir, abadlaşdırma və bərpa işləri barədə də ətraflı məlumat verilib. Qeyd olunub ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.

Sonra ali qonağa Xalq yazıçısı Maqsud İbrahimbəyovun xatirəsinə yaradılmış Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi haqqında məlumat verilib.

Almaniya Prezidenti orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Sarayı Kompleksi barədə də məlumatlandırılıb.

İçərişəhərlə tanışlıq Prezident Frank-Valter Ştaynmayerdə və xanımı Elke Büdenbenderdə xoş təəssüratlar yaradıb.

# Birinci xanımların görüşü



**Aprelin 2-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Almaniya Federativ Respublikasının birinci xanımı Elke Büdenbender ilə görüşü olub.**



# Şəhidlər xiyabanını ziyarət



**Azərbaycanda rəsmi səfərdə olan Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer və xanımı Elke Büdenbender aprelin 2-də Şəhidlər xiyabanını ziyarət ediblər.**

Prezident Frank-Valter Ştaynmayer Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən ali qonağa və xanımına Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Almaniya Prezidenti "Bakı Ağ Şəhər"də

**Aprelin 2-də Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer "Bakı Ağ Şəhər"də olub.**



# Səfər başa çatdı



**Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 2-də başa çatıb.**

Bildirilir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayeri hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

*AZƏRTAC*

# Prezident İlham Əliyev Çin Kommunist Partiyası MK-nin şöbə müdirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonu qəbul edib.**

Dövlətimizin başçısı Lü Tzyançaonun səfərinin ölkələrimiz arasında dostluq münasibətlərinin gələcəkdə də möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin yaxşı inkişaf dinamikasının olduğunu və bir çox sahələri əhatə etdiyini dedi. Dövlətimizin başçısı vurğuladı ki, ötən il Si Cinpinlə görüşünün nəticələrinə əsasən qəbul edilən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" dostluq, tərəfdaşlıq və əməkdaşlığımızın nümayişi olmaqla, qarşılıqlı fəaliyyətimizin səviyyəsini yüksəldib.

Azərbaycan Prezidenti gələcəkdə də ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf edəcəyinə əminliyini bildirdi, siyasi, iqtisadi, nəqliyyat sahələrində əməkdaşlığın regionda təhlükəsizliyin və çoxtərəfli əməkdaşlığın möhkəmlənməsi işinə xidmət etdiyini vurğuladı.

Lü Tzyançao dövlətimizin başçısı ilə görüşməkdən şərəf hissi duyduğunu deyərək, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Ölkəmizə ilk dəfə gəldiyini deyən qonaq Bakıda şahidi olduğu inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, bərpaolunan enerji, nəqliyyat, Orta Dəhliz və "Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında münasibətlərin inkişafına dair fikir mübadiləsi aparıldı.

# Əli Əsədovun Çin Kommunist Partiyası MK-nin nümayəndə heyəti ilə görüşü

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 2-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazirlər Kabinetindən bildirilib ki, görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin siyasi iradəsi və birgə səyləri sayəsində iki ölkə arasında əlaqələrin yüksək inkişaf dinamikası nümayiş etdirməsindən məmnunluq ifadə olundu.

Ötən il dövlət başçıları tərəfindən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbul edilməsinin dövlətlərarası münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırdığı bildirildi.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirildi, bu əməkdaşlığın iki ölkə arasında əlaqələrin inkişafı baxımından əhəmiyyəti vurğulandı.

Görüşdə Azərbaycan–Çin qarşılıqlı faydalı tərəfdaşlığının gündəliyində duran aktual məsələlər və bir sıra konkret istiqamətlər üzrə perspektivli layihələr nəzərdən keçirildi, həmçinin ticarət-iqtisadi, investisiya, yaşıl enerji, nəqliyyat-logistika, rəqəmsal inkişaf və innovativ texnologiyalar, mədəni-humanitar, turizm sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olundu.

Söhbət zamanı Baş nazir tərəfindən Orta Dəhlizin bütövlükdə Avrasiya, o cümlədən Cənubi Qafqaz ölkələri üçün əhəmiyyəti qeyd edildi, Zəngəzur dəhlizinin açılmasının Orta Dəhlizin inkişafına təkan verəcəyi vurğulandı.

***XQ***

# Azərbaycan–Çin: Strateji tərəfdaşlıq və parlamentlərarası əməkdaşlıq müzakirəsi



**Aprelin 2-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Mərkəzi Komitənin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lu Tzançaunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Qeyd edilib ki, ölkələrimiz bir çox sahələrdə uğurla əməkdaşlıq edir və xüsusi əhəmiyyət kəsb edən məsələlərdə daim qarşılıqlı dəstək nümayiş etdirilir. Azərbaycan hər zaman birmənalı olaraq "Vahid Çin" siyasətini və Çinin ərazi bütövlüyünü dəstəkləyib. Azərbaycan da Çinin ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstəyini yüksək qiymətləndirir və ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində bir-birinin maraqlarını müdafiə edirlər.

Bildirilib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan əlaqələrimiz Prezident İlham Əliyev və Çin Xalq Respublikasının sədri Si Cinpin tərəfindən uğurla davam etdirilir.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığın yaradılmasına dair Birgə Bəyannamənin, qarşılıqlı etimada əsaslanan yüksəksəviyyəli siyasi dialoqun əhəmiyyəti, Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında qurulan müntəzəm təmasların ikitərəfli münasibətlərin inkişafında rolu, iqtisadi, ticari, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb. Söhbət zamanı iki ölkə arasında mədəni və humanitar mübadilənin əsas hərəkətverici qüvvəsi olan Heydər Əliyev Fondu və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında əlaqələrin inkişafının ölkələrimizə verdiyi töhfələr vurğulanıb.

Azərbaycan və Çin arasında parlamentlərarası əməkdaşlığın əhəmiyyətindən danışan Sahibə Qafarova qeyd edib ki, Milli Məclis Çindən olan həmkarları ilə əməkdaşlığın gücləndirilməsinə xüsusi önəm verir. Bu sahədə Milli Məclisdə Çinlə parlamentlərarası əlaqələr üzrə işçi qrupu uğurla fəaliyyət göstərir.

Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Mərkəzi Komitənin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lu Tzançau Azərbaycana səfər etmək arzusunun həyata keçməsindən məmnunluğunu bildirib. Qonaq ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişafı, diplomatik münasibətlərimizin yaradılmasından ötən müddət ərzində görülmüş işlər, bu sahədə ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri barədə fikirlərini bölüşüb.

Söhbət zamanı qonaq Azərbaycanın "Vahid Çin" siyasətinə verdiyi dəstəyə görə təşəkkürünü ifadə edib.

***XQ***

# "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Somali Federativ Respublikasının Təhsil, Mədəniyyət və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il fevralın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Somali Federativ Respublikasının Təhsil, Mədəniyyət və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Somali Federativ Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 aprel 2025-ci il**

# Ölkənin təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı



**Ümummilli lider Heydər Əliyevin 23 mart 1997-ci il tarixli sərəncamı ilə 28 mart Azərbaycan təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü kimi təsis olunub. Azərbaycan təhlükəsizlik orqanlarının yaradılmasının 106-cı ildönümü ilə əlaqədar aprelin 2-də Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və Xidmətin əməkdaşları Fəxri xiyabanda Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildirərək, məzarı önünə əklil və gül dəstələri qoyublar.**



Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

DTX-nin mətbuat xidmətindən bildirilib ki, daha sonra Şəhidlər xiyabanında respublikamızın müstəqilliyi yolunda canlarından keçmiş şəhidlərimizin və Azərbaycanın Milli Qəhrəmanları olan təhlükəsizlik orqanlarının mərhum əməkdaşlarının məzarları ziyarət olunub, Xidmətin adından "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Dövlət Təhlükəsizliyi Xidmətinin akt zalında Xidmətin şəxsi heyətinin və veteranlarının iştirakı ilə təşkil olunmuş tədbirdə öncə ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin xatirəsi yad olunub və ardınca Dövlət Himni səsləndirilib.

DTX-nin rəisi general-polkovnik Əli Nağıyev çıxış edərək, peşə bayramı münasibətilə şəxsi heyətə öz təbriklərini çatdırıb, yarandığı gündən bu günədək mürəkkəb yol keçmiş təhlükəsizlik orqanlarının inkişafında ömrünün 25 ilini bu mühüm təsisatda xidmətə həsr etmiş ulu öndər Heydər Əliyevin danılmaz rolundan ətraflı bəhs edib. Xidmət rəisi bildirib ki, DTX-nin əməkdaşları dahi rəhbərin bu orqanlarda əsasını qoyduğu peşəkarlıq məktəbini və vətənpərvərlik irsini bu gün də layiqincə davam etdirirlər.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təhlükəsizlik orqanlarına göstərdiyi xüsusi diqqət və əvəzsiz qayğıdan söhbət açan general-polkovnik Əli Nağıyev qeyd edib ki, məhz bu diqqət və qayğının nəticəsində DTX-nin fəaliyyətini müasir çağırışlara uyğun şəkildə qurmaq mümkün olur, Xidmətin maddi-texniki təminatı, əməkdaşların iş şəraiti və sosial vəziyyəti gündən-günə yüksəlir.

Xidmət rəisi ötən il ərzində də təhlükəsizliyin etibarlı təmin olunması baxımından DTX-nin səmərəli fəaliyyət göstərdiyini, xarici və daxili təhdidlərin qarşısının alınması istiqamətində vacib işlərin görüldüyünü, xüsusən dövlətə xəyanət, casusluq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsdə hazırlıq cinayətləri ilə mübarizədə əhəmiyyətli nəticələrin əldə edildiyini vurğulayıb.

Ötən dövrdə bəzi destruktiv qüvvələr tərəfindən pozuculuq fəaliyyətinin həyata keçirilməsinə cəhdlərin edildiyini qeyd edən general-polkovnik Əli Nağıyev ölkəmizin təhlükəsizliyinə yönələn halların qarşısının qətiyyətlə alınacağını bildirib.

Çıxışının sonunda Əli Nağıyev, Ali Baş Komandan İlham Əliyev tərəfindən DTX-nin şəxsi heyətinə göstərilən etimadın və etibarın bundan sonra da doğruldulacağına, təhlükəsizliyin qorunması naminə əməkdaşların daima böyük səy və əzmlə çalışacaqlarına dərin inamını ifadə edib.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev DTX-nin əməkdaşlarını və veteranlarını Azərbaycan təhlükəsizlik orqanlarının yaranması günü və peşə bayramı münasibətilə təbrik edib, dövlət başçısının rəhbərliyi ilə Xidmətin gələcəkdə də yeni-yeni nailiyyətlər qazanacağına əmin olduğunu deyib.

Sonra DTX-nin bir qrup əməkdaşının ali hərbi rütbələrə, müxtəlif orden və medallara layiq görülməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamlar elan olunub, DTX-nin müvafiq əmrləri ilə bir sıra əməkdaşlar mükafatlarla təltif ediliblər.

Tədbir DTX-nin Mədəniyyət Mərkəzində mədəni proqramdan ibarət bədii hissə ilə davam edib.

***XQ***

# Prezident İlham Əliyevə Ramazan bayramı təbrikləri

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu.**

Dünya müsəlmanlarının böyük bayramı olan Ramazan bayramı münasibətilə Zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ramazan bayramı dünya müsəlmanları arasında sosial-dini bağların möhkəmlənməsini əks etdirən, mübarək Ramazan ayında ürəkdən edilən ibadətlərin səmərə verdiyini göstərən gözəl bir bayramdır.

Ümid edirəm ki, rəhmət və bərəkətlə dolu olan bu bayramın mübarəkliyi və xeyir-bərəkəti sayəsində bütün müsəlman xalqları arasında daha artıq həmrəyliyin yaranmasına, İslam ölkələrində sülh və sabitliyin bərqərar olmasına və ölkələrimiz arasındakı əlaqələrin bütün sahələrdə gündən-günə daha da genişlənməsinə şahid olacağıq.

Uca Allahdan Zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, Azərbaycan xalqına isə səadət və xoş günlər arzulayıram.

**Hörmətlə,**

***Məsud PEZEŞKİAN,***
***İran İslam Respublikasının Prezidenti***

*

**Hörmətli İlham Heydər oğlu.**
**Dəyərli qardaşım.**

Bütün müsəlman ümmətinin böyük sevinc və fərəhlə qeyd etdiyi müqəddəs Ramazan bayramı münasibətilə Sizə və qardaş Azərbaycan xalqına səmimi-qəlbdən təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Qardaş Özbəkistan və Azərbaycan xalqları əsrlər boyu səxavət və mərhəmət rəmzi kimi dəyərləndirdikləri bu möhtəşəm bayramı səbirsizliklə gözləyir və böyük sevinc hissi ilə qeyd edirlər.

Sizinlə birgə apardığımız sistemli işlər və nümayiş etdirdiyimiz qəti siyasi iradə nəticəsində dost ölkələrimiz arasında çoxşaxəli və uzunmüddətli əməkdaşlığı strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə qaldırmağımızın xalqlarımızın ən böyük nailiyyətlərindən biri olduğunu xüsusi qeyd etmək istəyirəm.

Allahın rəhmət və məğfirətinin bol olduğu, qəlblərimizin ilahi nurla dolduğu bu xoşbəxt və mübarək günlərdə Sizə möhkəm cansağlığı, ailə səadəti və məsuliyyətli dövlətçilik fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq, davamlı inkişaf və rifah arzulayıram.

**Səmimi ehtiramla,**

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

*

**Hörmətli İlham Heydər oğlu.**

Mübarək Ramazan bayramı münasibətilə Sizə və bütün dost Azərbaycan xalqına səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan şərəf duyuram.

Tarix boyu bu müqəddəs bayramın adət-ənənələri və yüksək mənəvi idealları xalqlarımıza saflıq, paklıq, mərhəmət, tolerantlıq, xeyirxahlıq, qarşılıqlı dəstək, nəciblik və xoşməramlılıq kimi dəyərləri təbliğ edib.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətləri və çoxşaxəli əməkdaşlıq bu mübarək bayramın yüksək dəyərləri sayəsində xalqlarımızın köklü mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Uca Yaradandan Sizə möhkəm cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi, firavanlıq, əmin-amanlıq diləyirəm.

**Dərin hörmətlə,**

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

*

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu.**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Uca Allahdan Zati-alinizə cansağlığı, uzun ömür, dost ölkənizə və xalqınıza davamlı inkişaf, tərəqqi, İslam ümmətinə xeyir-bərəkət və firavanlıq diləyirəm.

Bayramınız mübarək!

**Hörmətlə,**

***Şeyx Məşəl əl-Əhməd əl-Cabir ƏL-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

*

**Zati-aliləri Prezident İlham Əliyev.**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuruq.

Uca Allahdan Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq diləyirik.

Zati-aliləri, ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Həməd bin İsa Al XƏLİFƏ,***
***Bəhreynin Kralı***

*

**Zati-aliləri.**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizə ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

***VI MƏHƏMMƏD,***
***Mərakeşin Kralı***

*

**Zati-aliləri.**

Mübarək Ramazan bayramı münasibətilə Sizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluğumuzu bildiririk.

Zati-alinizə cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayırıq.

Uca Allahdan diləyimiz budur ki, İslam ümmətinə xeyir-bərəkət və firavanlıq nəsib etsin.

**Hörmətlə,**

***Heytəm bin Tariq Al SƏİD,***
***Omanın Sultanı***

**Hörmətli cənab Prezident.**

Mübarək Ramazan bayramı münasibətilə Zati-alinizə səmimi təbriklərimi çatdırıram.

Allah-taaladan Sizə cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Azərbaycan xalqına və bütün xalqlara xeyir-bərəkət, səadət bəxş etməsini arzulayıram.

**Ramazan bayramınız mübarək!**

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

*

**Zati-aliləri.**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Mübarək Ramazan ayında İslam inanclı 200 milyon hindistanlı dünyadakı qardaş və bacılarına qoşularaq oruc tutub və dua edib.

Ramazan bayramı təfəkkür, şükür və birlik bayramıdır. Bu bayram qlobal birliyin üzvləri olaraq bizi birləşdirən mərhəmət, alicənablıq və həmrəylik dəyərlərini əks etdirir.

Bu əlamətdar bayram münasibətilə bütün dünya xalqlarına cansağlığı, xoşbəxtlik, sülh və harmoniya arzulayırıq. Qoy ölkələrimiz arasında dostluq əlaqələri daha da möhkəmlənsin!

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Narendra MODİ,***
***Hindistan Respublikasının Baş naziri***

*

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu.**

Ramazan bayramı münasibətilə Əfqanıstan İslam Əmirliyi və ölkənin müsəlman xalqı adından Zati-alinizə və şərəfli Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Azərbaycan xalqının bu mübarək bayramı hər zaman mehribanlıq, təhlükəsizlik və rifah şəraitində qeyd etməsini arzulayıram.

Əfqanıstan və Azərbaycan arasında ikitərəfli münasibətlərin möhkəmlənməsi və genişlənməsi istiqamətində son vaxtlar baş verən inkişaf prosesləri təqdirəlayiqdir. Zati-alinizin rəhbərliyi altında iki dost və qardaş ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin bundan sonra daha da dərinləşməsini arzu edirəm.

Əminəm ki, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsi hər iki tərəf üçün faydalı olacaq və Əfqanıstan İslam Əmirliyi bu istiqamətdə səylərini əsirgəməyəcəkdir.

***Əl-Hac Molla Məhəmməd Həsən AXUND,***
***Əfqanıstan İslam Əmirliyinin Baş naziri***

*

**Möhtərəm cənab Prezident.**

Sizi və ailə üzvlərinizi Türk Mədəniyyəti və İrsi Fondu adından və şəxsən öz adımdan bütün müsəlman, o cümlədən Türk dünyasının təqvimində müstəsna dəyərə sahib olan müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikasına rəhbərlik etdiyiniz ilk gündən bu vaxta qədər Türk və İslam dünyasının birliyi və ölkənin inkişafı naminə göstərdiyiniz tarixi xidmətlər hər zaman yüksək qiymətləndirilir. Sizin təşəbbüsünüzlə yaradılmış Türk Mədəniyyəti və İrsi Fondu Türk-müsəlman tarixi-mədəni dəyərlərini, humanist prinsiplərini dünyada təbliğ edir və bu istiqamətdə lazımi tədbirləri həyata keçirir.

Bu gün işğaldan azad olunmuş Azərbaycan torpaqlarında tarixi-mədəni, dini abidələr, o cümlədən məscidlər, məbədlər və kilsələr bərpa edilir. Doğma Qarabağda, əziz Şuşada Azərbaycanın dağıdılmış dini abidələrinin bərpası ilə bağlı humanist addımlar, ilk növbədə, Sizin müsəlman və Türk dünyasının tarixi-dini, mədəni dəyərlərinə göstərdiyiniz yüksək ehtiramın ifadəsi kimi müasir dünya tarixinin parlaq səhifələrinə həkk olunur.

Sizin rəhbərliyinizlə sürətli inkişaf yolunda mətinliklə irəliləyən Azərbaycan dövləti multikultural dəyərləri siyasi gerçəklik timsalında başəriyyətə möhtəşəm şəkildə təqdim edir, dini dəyərlərin insanlar tərəfindən qarşılıqlı hörmət müstəvisində qorunmasının dünyada nadir rast gəlinən başəri örnəyini yaradır.

Möhtərəm cənab Prezident, Sizi və ailə üzvlərinizi müqəddəs Ramazan bayramı münasibətilə bir daha ürəkdən təbrik edir, Uca Allahdan Azərbaycana Sizin rəhbərliyinizlə daha böyük yüksəlişlər, bol ruzi-bərəkət və davamlı əmin-amanlıq nəsib etməsini arzulayıram.

**Hörmətlə,**

***Aktotı RAİMKULOVA,***
***Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

*

**Möhtərəm cənab Prezident.**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə və ailənizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Mənəvi yüksəliş rəmzi olan, sevinc, şükür, səxavət hissi ilə qeyd olunan Ramazan bayramı ailələr, dostlar və daha geniş icmalar arasında əlaqələrin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Uca Allahdan Sizə və yaxınlarınıza cansağlığı, xoşbəxtlik, firavanlıq və əmin-amanlıq arzulayıram.

OPEC Katibliyinin bütün kollektivi adından Sizi Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Haysam ƏL-QAYS,***
***Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi***

*

**Cənab Prezident.**

Ramazan bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Sizə və xalqınıza cansağlığı, firavanlıq, xeyir-bərəkət arzu edirəm.

Zati-alinizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Səad ƏL-HARİRİ,***
***Livan Respublikasının sabiq Baş naziri***

*

**Zati-aliləri.**

Ramazan bayramı münasibətilə Zati-alinizə ən səmimi salamlarımı çatdırmaqdan, Sizə cansağlığı və səadət, xalqınıza sərhədsiz tərəqqi və firavanlıq bəxş etməyi Uca Allahdan diləməkdən böyük məmnunluq duyuram. Allah bizə Öz rəhmətini bəxş etsin. Bütün müsəlman ümmətinin nəsibi sülh və əmin-amanlıq olsun.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***Salim bin Məhəmməd ƏL-MALİK,***
***ICESCO-nun Baş direktoru***

# Dövlət başçısına Novruz bayramı məktubları

**Zati-aliləri, Əziz Qardaş.**

Sizə, yaxınlarınıza və qardaş Azərbaycan xalqına sevimli Novruz bayramı münasibətilə ən səmimi təbriklərimi çatdırıram.

Novruz bayramı baharın gəlişini, yeni başlanğıcları, harmoniyanı və ümidi simvolizə edir. Bu bayram, həmçinin bizə dostluq bağlarını yeniləmək və arzularımızı bölüşmək üçün əlverişli imkan yaradır.

Bu ruhda mən Pakistanın qardaşlıq əlaqələrimizi qarşılıqlı faydalı iqtisadi tərəfdaşlığa yönəltməklə bağlı güclü öhdəliyini bir daha təsdiqləyirəm.

Zati-aliləri, bu ilin fevralında gözəl ölkənizə səfərim zamanı Sizinlə səmimi və məhsuldar görüşlərimi məmnuniyyətlə xatırlayıram. Zati-alinizi İslamabadda görməyə böyük ümid bəsləyirəm.

**Hörmətlə,**

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

*

Hörmətli cənab Prezident.

Novruz bayramı münasibətilə Zati-alinizə, Azərbaycan hökumətinə və qardaş xalqınıza səmimi-qəlbdən təbriklərimi çatdırıram. Sizə cansağlığı, xoşbəxtlik, ölkənizi və xalqınızı daha böyük tərəqqi və firavanlığa doğru aparmağı davam etdirməkdə uğurlar arzulayıram.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq, qardaşlıq və hörmətə əsaslanan münasibətləri gücləndirmək istəyimi ifadə edirəm.

Cənab Prezident, ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

*

**Cənab Prezident.**

Sizi, ailənizi və bütün Azərbaycan xalqını Şimali Kipr Türk Cümhuriyyətinin xalqı adından və şəxsən öz adımdan Novruz və Ramazan bayramları münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizə dərin ehtiramımı ifadə edirəm.

**Hörmətlə,**

***Ersin TATAR,***
***Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti***

*

**Hörmətli cənab Prezident.**

Türk dünyasının ortaq dəyəri, baharın müjdəçisi, əcdadlarımızdan bizə çox əhəmiyyətli bir miras olan Novruz bayramı münasibətilə Sizi təbrik edirəm. Bu bayramı qardaşlıq ruhu ilə səciyyələnən gözəl günlərdə qeyd etməyimizin sevincini yaşayırıq.

Novruz baharın gəlişi ilə yenilənməni, bolluq və bərəkəti, qardaşlığı simvolizə edən mühüm bayramdır, eyni zamanda, keçmişimizdən güc alaraq gələcəyimizi qurmaq iradəmizi gücləndirən bir imkandır.

Bu il Novruz bayramı ilə birlikdə qeyd etdiyimiz, mənəvi saflığın, həmrəyliyin rəmzi olan Ramazan bayramı münasibətilə də Sizi təbrik edirəm. Ümidvaram ki, bu bayram da türk dünyasına sevinc bəxş edəcək, birliyimizi, həmrəyliyimizi daha da gücləndirəcəkdir.

Novruz və Ramazan bayramlarının bütün dünyaya sülh, əmin-amanlıq və bərəkət gətirməsi arzusu ilə Zati-alinizə cansağlığı, xoşbəxtlik və uğurlar diləyir, dərin ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Binəli YILDIRIM,***
***Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri***

*

**Hörmətli cənab Prezident.**

Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) adından Zati-alinizi və Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edir, Sizə xoş arzularımı çatdırıram. Novruzun xalqınıza bol ruzi-bərəkət, xoşbəxtlik və əmin-amanlıq gətirməsini diləyirəm.

Novruz bayramı birlik və həmrəylik ruhunda Azərbaycanda və dünyanın bir çox ölkəsində ailələri, dostları və icmaları bir araya gətirir. İnsanlar baharın gəlişini, təbiətin oyanışını gözəl ənənələrlə qeyd edir, bu hadisənin mədəni əhəmiyyətinə mühüm önəm verirlər.

Cənab Prezident, icazə verin, bu xoş fürsətdən istifadə edərək OPEC-ə və Azərbaycan Respublikasının təsisçi üzvü olduğu qeyri-OPEC ölkələrinin Əməkdaşlıq Bəyannaməsinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə və ölkənizə təşəkkürümü bildirim. Zati-alinizin müdrik rəhbərliyi ilə Azərbaycan əsas tərəfdaşımızdır və biz ümumi məqsədlərimizə nail olmaq istiqamətində dialoqumuzun və əməkdaşlığımızın genişləndirilməsində dəstəyiniz və məsləhətlərinizdən faydalanmağa davam edəcəyik.

Sizə bir daha ən xoş arzularımı bildirir, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Haysam ƏL-QAYS,***
***Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi***

# Çinli qonaqlar YAP-ın Mərkəzi Aparatında



**Aprelin 2-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

Görüşdə Azərbaycan ilə Çin arasında diplomatik əlaqələrin mövcud olduğu 33 ildə qarşılıqlı faydalı münasibətlərin uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb. Hər iki ölkənin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələri genişləndirməkdə maraqlı olduqları bildirilərək "Bir kəmər, bir yol" layihəsi və Orta Dəhliz çərçivəsində nəqliyyat-logistika sahəsində əməkdaşlığın önəmindən bəhs edilib. Görüş zamanı dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi YAP ilə ÇKP arasında əlaqələrin inkişafının xüsusi diqqət mərkəzində olduğu vurğulanıb.

2024-cü ilin noyabrında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində ÇKP ilə əməkdaşlıq memorandumunun imzalanmasının ölkələrarası strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə önəmli töhfə olduğu bildirilib. Qeyd edilib ki, yeni mərhələdə görüləcək işlər ortaq maraqları təmin etməklə həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı və perspektivli olacaq.

***XQ***

# Berlin sülhə səsləyir – Bakı hazırdır, İrəvan isə...

(əvvəli 1-ci səhifədə)

Bəli, Almaniyanın dövlət başçısının fikirləri diplomatik səciyyəlidir və onlara nəzərən rəsmi Berlinin Cənubi Qafqazla bağlı gözləntiləri üzərində dayanmaq mümkündür. Mühüm məqam Prezident Ştaynmayerin bu gözləntiləri məhz sülh prosesinin zəruriliyi kontekstində gündəmə gətirməsidir. Məsələn, o, Azərbaycanın inkişaf etmiş məkana çevrildiyini, ölkəmizdən mühüm ticarət yollarının keçdiyini vurğulayıb: “Yalnız Mərkəzi Asiya ilə deyil, həm də Uzaq Şərqlə ticarət əlaqələrimizdə ölkənizin rolu var, yaxud da ki, Cənub-Qərbi Asiya ilə, Çinlə. Biz bilirik ki, hazırda mövcud yolların imkanları məhduddur. Ölkənizdən keçən yolların, Orta dəhlizin rolu alman iqtisadiyyatı üçün də vacibdir, yaxşı perspektivdir və bu, daha maraqlı bir perspektivə çevriləcək. Sizin region – Cənubi Qafqaz daha sabit bir region olandan sonra son illərdəki münasibətlərdən fərqli olaraq daha sabit bir regiona çevriləcək”.

Deməli, Prezident Ştaynmayerin dilə gətirdiklərinə əsasən, Almaniyanın regiondakı sülh gözləntisinin ölkənin iqtisadi maraqlarının təminatı üzərində olduğunu deyə bilərik. Lakin Berlində dərk edilir ki, maraqların qarşılanması üçün real barış mühitinin formalaşmasına ehtiyac var. Ona görə də Almaniya lideri Bakı – İrəvan sülh prosesinin üzərinə Cənubi Qafqazın daha sabit region olmasının zəruriliyindən söz açarkən gəlib. Əlbəttə, Prezident Ştaynmayerin fikirlərində barış üçün kompromis məntiqi də var ki, onun hansı tərəfin və nəyi güzəştə getməli olduğunu nəzərdə tutduğu qeyri-müəyyəndir. Eləcə də Almaniya Prezidenti Bakının, yoxsa İrəvanın kompromislər üçün cəsarət və siyasi iradə nümayiş etdirməsinin vacibliyini açıqlamır. Hərçənd, cənab Ştaynmayerin təbirincə desək, uzaqdan bacardığı qədər, necə mümkündürsə, dəstək vermək istəyən ölkə üçün onun liderinin hazırkı fikirləri də qənaətbəxş sayıla bilər.

Güzəştə gəlincə, Azərbaycanın buna getməyəcəyi məlumdur. Prezident İlham Əliyevin bildirdikləri də fikrimizin təsdiqidir. Belə ki, dövlətimizin başçısı ölkəmizin sülh müqaviləsinin imzalanması üçün iki şərtini bir daha açıqladı. Söhbət ATƏT-in Minsk qrupunun ləğvi üçün Bakı və İrəvanın müştərək müraciət ünvanlamasından və Ermənistan konstitusiyasının işğalçı mahiyyətinin aradan qalxmasından gedir. Amma Prezident İlham Əliyevin fikirlərində ölkəmizin kompromisə getməyəcəyini sübuta yetirən digər məqamlar da var. Onlardan birini diqqətə çatdıraq: “Bu gün söhbət əsnasında mən cənab Prezidenti Azərbaycan – Ermənistan sülh prosesi ilə bağlı kifayət qədər məlumatlandırdım. Bildirdim ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycan və şəxsən mən sülh danışıqlarının başlanmasının təşəbbüskarı olmuşam. O vaxt nə Ermənistan, nə də ki, o vaxt hələ fəaliyyət göstərən ATƏT-in Minsk qrupu belə bir təklif irəli sürmüşdü. Bu təklifi Azərbaycan tərəfi vermişdir. Bu, özlüyündə onu göstərir ki, biz sülh müqaviləsinin bağlanmasında nə qədər maraqlıyıq”.

Azərbaycan 44 günlük müharibə qalibi olmasına baxmayaraq məğlub dövlətə sülh əlini uzadıb. Hesab edirik ki, Ermənistana bundan böyük güzəşt ola bilməzdi. Halbuki, ölkəmizin və xalqımızın otuz ilə yaxın müddətdə yaşadığı məşəqqətlər olub. O məşəqqətlər ki, onlar unudulmur. Deməli, buna rəğmən Bakı İrəvana barış təklif edirsə, ikinci böyük lütf göstərdiyimizi anlamalıdır. Prezident İlham Əliyevin mətbuata bəyanatında səsləndirdiyi bu fikirləri də, həmçinin: “Azərbaycan 30 il ərzində erməni işğalından əziyyət çəkmişdir. Bizim xalqımız etnik təmizləməyə məruz qalmışdır. Bir milyon azərbaycanlı erməni aqressiyasına görə evsiz-eşiksiz qalmışdır və torpaqlarımızın təxminən 20 faizi işğal altına düşmüşdür. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı ciddi addım atmamışlar. Azərbaycan bu münaqişəni və beynəlxalq hüququ özü döyüş meydanında və siyasi müstəvidə həll etmişdir. Məhz bu tarixi Zəfərimiz sülh danışıqlarına yol açmışdır. Hesab edirəm ki, bu gün Azərbaycanın və Ermənistanın sülhün əldə edilməsində mövqeləri bir-birinə kifayət qədər yaxınlaşmışdır”.



Bəli, Almaniya liderinin haqqında söz açdığı kompromisə getməli olan tərəf məhz Ermənistandır. İrəvan, eyni zamanda, tarixi andan düzgün istifadə məntiqinin ehtiva etdiyi məsələləri özünə verilmiş şans kimi qiymətləndirməli, ümidləri elə rəsmi Berlinin də gözləntilərini puça çıxarmamalıdır. Çünki, böyük hesabla, təkcə Almaniya deyil, Fransanı çıxmaq şərtilə, bütövlükdə, Avropa üçün Cənubi Qafqazda sülhün ölkəmiz tərəfindən irəli sürülmüş fundamental postulatları məqbul və faydalıdır. Cənab Ştaynmayerin Bakıda səsləndirdiyi fikirlər də bunu söyləməyə əsas verir.

Sonda onu da deyək ki, Prezident İlham Əliyevin də bildirdiyi kimi, hazırda Bakı – İrəvan sülh prosesi baxımından top Ermənistan tərəfdədir. Ölkəmiz cavab gözləyir. Ancaq qarşı tərəfdən mütərəqqi cavab yerinə, güllə səsləri eşidilir. Ermənistan silahlı qüvvələri şərti sərhəddə atəşkəs rejimini pozurlar. Yaxşı olar ki, həm Almaniya, həm də “Köhnə qitə”nin Cənubi Qafqazda real və legitim əməkdaşlıq maraqlarına malik ölkələri bu məqamı nəzərə alıb, rəsmi İrəvanı düz yola gətirsinlər. Düz yola gətirsinlər ki, onların da regionla bağlı sülh gözləntisinin faydaları özünü tez bir zamanda göstərsin.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Qarabağ separatçıları “bəlkə də qaytardılar” sevdasında

**Azərbaycan Ordusunun 2023-cü ilin sentyabrında həyata keçirdiyi bir günlük lokal xarakterli antiterror tədbirlərindən sonra bölgəni könüllü tərk edən Qarabağ separatçıları İrəvanda yenidən fəallaşıblar. Onlar martın sonlarından başlayaraq Ermənistan paytaxtının mərkəzindəki “Azadlıq” meydanında aksiya keçirirlər. Aksiyaçılar Nikol Paşinyan hökumətindən tələb edirlər ki, onları Qarabağa qaytarsın. Təşkilatçılar mitinqi “Dağlıq Qarabağdan olan məcburi köçkünlərin hüquqlarının müdafiəsi” məqsədilə keçirdiklərini bildiriblər.**



**Ekspert rəyi**



**Ramiyə MƏMMƏDOVA, politoloq:**

– Ermənistanda baş verən prosesləri mütəmadi olaraq izləyirik və görürük ki, bu ölkədə həm siyasi, həm də sosial problemlər getdikcə artır. Ümumiyyətlə, İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda siyasi ab-hava tamamilə dəyişib. 2020-ci ilədək Qarabağ məsələsi Ermənistanda prioritet idi. Haylar bildirirdilər ki, müharibə etmək bahasına olsa da, torpaqları verməyəcəklər.

Azərbaycanın müharibədə Zəfər çalması nəticəsində isə Ermənistan hakimiyyətinin prioriteti dəyişib. Düzdür, indi də orada xəyallarda “Artsax erməni torpağıdır” kimi fikirlər dolaşır. Yenə də “ermənilər ora qayıtmalıdırlar” xülyaları ilə yaşayanlar var. Ancaq müharibədən sonra baş nazir Paşinyan çıxışlarında qeyd edir ki, Qarabağ Azərbaycan torpağıdır. Bildirir ki, onlar Azərbaycanın suveren ərazisinə iddia edə bilməzlər. Eyni zamanda, Türkiyə ərazisinə iddialardan da geri çəkilmiş kimi görünürlər. Bu, Ermənistan rəhbərliyinin regionda yaranmış yeni reallıqları anladığını göstərir. Ancaq ermənilərin xaricdəki havadarları hər vasitə ilə çalışırlar ki, Azərbaycanla sülh müqaviləsi imzalanmasın. Onlar ermənilərin qızışdırırlar. Ancaq Paşinyan başa düşür ki, onlara boş vədlər verilir.

Sosial problemlərə gəldikdə isə qeyd etmək lazımdır ki, bu ölkə hər zaman sosial problemlər girdabında boğulub. Son vaxtlar isə problemlər daha da artıb. İnsanların həyat səviyyəsi aşağı düşüb. Bu, Qarabağdan gələn ermənilərə də aiddir. Ermənistanda sosial problemlərin bir qismi təbii şərait üzündən yaranıb. Çünki ölkənin xaricə, böyük bazarlara çıxışı yoxdur və sair.

Bundan əlavə, separatçıların ideoloji təxribatları bitmək bilmir. Separatçılar sosial problemlərə də ideoloji çalarlar qatırlar. Sonuncu mitinqdə biz bunun əyani şahidi olduq. Ermənistan sülh sazişini imzalamadığı müddətcə ondan hər cür təxribatlar gözləmək olar. Biz bilməliyik ki, onlardan hər zaman özümüzə təhdid var. Onların yenidən silahlanıb təxribatlar törətmələri hər zaman gözlənilməndir. Təbii ki, rəsmi Bakı da bunu başa düşür və bu istiqamətdə iş aparır. Ancaq Ermənistanın nümayiş etdirdiyi mövqe həlakilik sülh sazişinin imzalanmasına imkan vermir. Bu isə bizdən hər zaman ayıq-sayıq olmağı tələb edir.

Separatçı rejimin “parlamenti”nin keçmiş spikeri Aşot Qulyanın jurnalistlərə verdiyi məlumata görə, mitinqin çağırılmasına səbəb çox sayda sosial və digər problemlərin yığılıb qalmasıdır. Bu, aprelin 1-dən etibarən “köçkünlərə” ayrılan maliyyə yardımının kəsilməsi fonunda xüsusilə aktualdır. O qeyd edib ki, mitinqə təkcə Qarabağdan gedənlərin özləri deyil, həm də İrəvan və Ermənistanın vilayətlərinin sakinləri toplaşıb.

Qulyan Azərbaycanda o vaxtkı mərkəzi hakimiyyətin zəifliyindən və keçmiş sovet rəhbərliyinin erməniпərəstliyindən istifadə edərək məqsədlərinə nail olduqları 1980-ci illərin sonlarındakı günlərin xiffətini çəkərək, “bəlkə də qaytardılar” sevdası ilə deyib: “Biz 1988-ci ildə olduğu kimi, yəqin ki, indi də vahid ümumxalq gündəliyini formalaşdırmalıyıq. Çünki indiyədək əldə edilmiş bütün nəticələri, əlbəttə ki, qənaətbəxş hesab etmək olmaz”.

Onun sözlərinə görə, Qarabağ sakinləri indiyədək bütün problemləri ilə bağlı Ermənistan hakimiyyətinə müraciət ediblər. Lakin məsələlərin çoxu öz həllini tapmayıb. Buna görə də minlərlə “Artsax” sakini mövcud problemlər barədə danışmağa gəlib: “Ümid edirəm ki, mitinqdən sonra bu məsələlər Ermənistan hakimiyyəti tərəfindən daha yaxşı başa düşüləcək”.

Qarabağı “tarixi vətən” (?) adlandıran Qulyan qayıtmaq məsələsinə gəlincə, qeyd edib ki, “Artsax xalqı” həmişə qayıdış arzusundadır, lakin bu, onların bununla bağlı problemləri başa düşmədikləri anlamına gəlmir. Aşot həyasızcasına iddia edib ki, adamlar “məhv olmaq təhlükəsi altında vətənlərini” (?) tərk etməyə məcbur olublar. Eyni zamanda, Qulyanın fikrincə, bu problem haqqında danışmamaq, “Artsax xalqı”nın öz hüquqları uğrunda mübarizə aparmaq istəməməsi demək deyil: “Təkcə danışmaq deyil, həm də hərəkət etmək lazımdır. Ermənistan hakimiyyətinin də bu mübarizəyə qoşulması düzgün olardı”.

Özünü xunta rejiminin “ombudsmanı” adlandıran Geqam Stepanyan toplaşanlara müraciət edərək bildirib ki, bu, təkcə sosial müavinətlər uğrunda mübarizə deyil: “Bəli, sosial yardım “Artsax” əhalisinin əsas ehtiyaclarını ödəmək üçün tələb olunan minimum məbləğdir. Qarabağdan gələnlərin mənzil məsələsi birdəfəlik və ləyaqətlə həll olunana qədər onu saxlamaq vacibdir”.

Qondarma rejimin sabiq “dövlət naziri” Artak Beqlaryan isə deyib ki, Ermənistan hökuməti “Artsax” sakinlərini kütləvi mühacirətə təhrik etməyi planlaşdırır: “Hökumətin “Artsax”dan gələnlərə maddi yardımını azaltmaq barədə qərarları və mənzil proqramı mahiyyət etibarilə “Artsax” sakinlərinin genişmiqyaslı mühacirətini təhrik etmək planıdır. Ermənistan hakimiyyəti bir daha bizim narahatlığımızı müzakirə etmədən və heç bir plan irəli sürmədən “Artsax xalqı” ilə məcburetmə dilində danışmaq qərarına gəlib”.

Aksiya iştirakçıları keçmiş separatçı xunta rejiminin bayrağı adlandıran əski parçasını da başları üzərinə qaldırıblar. Sonda mitinqin qətnaməsi oxunub. Qətnamədə bildirilib ki, “Artsax” erməniləri ciddi humanitar və sosial problemlərlə üzləşiblər: “Ermənistan hakimiyyətinin hərəkətsizliyi və məsuliyyətsizliyi soydaşlarımızın hüquqlarını və gələcəyini təhdid altında qoyan çıxılmaz vəziyyət yaradıb. Cəmiyyətimiz bu şəraitdə susub qala bilmir və öz hüquqlarını, ədalətli tələblərini ortaya qoymaq üçün səsini ucaltmağa məcburdur. Buna görə də biz hamını Ermənistan Respublikası hökumətindən aşağıdakıları tələb etməyə çağırırıq. İlk növbədə Qarabağ ermənilərinin sosial və iqtisadi problemlərinin həlli üçün aydın və uzunmüddətli siyasət işlənib hazırlanmalı və həyata keçirilməlidir. Onların ailələri üçün sabit yaşayış şəraiti, o cümlədən mənzil, səhiyyə və təhsil proqramları təmin edilməlidir. İş yerləri yaradılmalı və iqtisadi inkişaf üçün səmərəli tədbirlər həyata keçirilməlidir”.

Qətnamədə bizim üçün daha maraqlı olan məqam beynəlxalq platformalarda Qarabağ ermənilərinin geri qaytarılması üçün kollektiv hüquq məsələsinin ardıcıl olaraq qaldırılması ilə bağlı Ermənistan hakimiyyətinə çağırış edilməsidir. Bundan əlavə, səsləndirilən tələblər arasında Azərbaycan xalqına qarşı çoxsaylı cinayət əməlləri törətməkdə təqsirləndirilən şəxslərin azadlığa buraxılması da var. Onlar “əsir düşən soydaşlarımız” adlandırılıb və dərhal azadlığa buraxılmalarına çağırış edilib. Ermənistan hakimiyyəti beynəlxalq strukturlarda bununla bağlı məsələ qaldırmağa və bütün mümkün hüquqi və siyasi vasitələrdən istifadə etməyə çağırılıb.

Əlbəttə, Qarabağ ermənilərinin Ermənistan hakimiyyətindən sosial məzmunda hansısa tələblər irəli sürmələri onların daxili işidir. Burada bizim üçün maraqlı olan erməni azlığın Qarabağdan könüllü köçüb getməsi və “əsir” adlandırdıqları şəxslərlə bağlı davam edən məhkəmə prosesinə qarşı tərəfin müdaxilə etmək istəməsidir. Bu barədə biz də çox yazmışıq. Bütün yazılarda 2021-2023-cü illərdəki hadisələrin xronoloji ardıcıllığını, Azərbaycan dövlətinin müsbət jestlərini qeyd edərək ermənilərin Qarabağı könüllü tərk etməsini əsaslandırmışıq. Bu baxımdan indi qarşı tərəfin etirafını vermək yerinə düşərdi. Həmin xatirindədir ki, lokal xarakterli antiterror tədbirlərindən sonra separatçıların bir neçə nümayəndəsi Yevlaxda danışıqlara gəlmişdi. Onlardan biri də qondarma “parlamentin deputatı” David Melkumyan idi. Həmin bu Melkumyan bir neçə gün öncə İrəvanda verdiyi açıqlamada Yevlaxdakı görüşdə Azərbaycan nümayəndələrinin onlara təkliflər verdiyini bildirib. Təkliflərin mahiyyəti haqqında məlumat verməyən Melkumyan “Qarabağ ermənilərini azərbaycanlılarla birgə yaşamaq istəmədi” cümləsini işlədib. Bu isə o deməkdir ki, ermənilərə Azərbaycan qanunları əsasında Qarabağda yaşamaq təklifi verilib, ermənilər isə bundan imtina edərək bölgəni tərk etməyə qərar veriblər. Əslində, Melkumyanın açıqlaması bu gün İrəvanda mitinq keçirənlərin və Ermənistan müxalifətinin “Qarabağ erməniləri bölgəyə qayıtmalıdırlar” şüarının mənasız olduğunu bir daha ortaya qoyub. Qarabağ erməniləri açıq deyiblər ki, onlar azərbaycanlılarla birgə yaşamaq istəmirlər.

Bu arada Qarabağ separatçılarını pəjmürdə edəcək daha bir məlumat açıqlanıb. Məlum olub ki, separatçıların Rusiyadakı “nümayəndəliyi”nin fəaliyyəti dayandırılıb. Bu barədə Ermənistanın “Past” qəzeti məlumat yayıb. Bildirilir ki, 44 günlük müharibədən sonra da belə məlumatlar yayılmışdı, lakin sonradan təkzib edilmişdi. Qeyd olunur ki, “nümayəndəlik”, həqiqətən də, o zaman fəaliyyətini davam etdirirdi, lakin bu yaxınlarda bağlanıb. Diplomatik mənbələrə istinadən o da vurğulanır ki, separatçı rejimin ləğv edilməsindən sonra “nümayəndəliyin” funksiyalarının qismən Ermənistanın Rusiyadakı səfirliyinə ötürülməsi təklif olunmuşdu. “Lakin məlumatımıza görə, bu mövzu da indi bağlanıb”, – deyə qəzet yazır.

Qarabağ separatçılarının aksiyalarına Ermənistan baş nazirinin reaksiyası da maraqlıdır. Paşinyan Milli Assambleyada deputatlarla sual-cavab zamanı deyib ki, Qarabağ hərəkatı davam etməmişdir: “Ermənistan dövlətçiliyinin yaranmaması yolunda Qarabağ hərəkatı hansı rolu oynadı? Sözü uzatmadan, açıq və birmənalı demək istəyirəm: Mən hesab edirəm ki, biz Qarabağ hərəkatını davam etdirməməliyik. Bizim getdiyimiz sülh yolu Bakıda saxlanılan şəxslərin problemini həll etmək üçün ən səmərəli yoldur. Başqa yol yoxdur. Bizim qavrayışımız hərtərəfli və tamdır”.

Paşinyan məhkəməsi keçirilən şəxslərin qaytarılması üçün hansı işlərin görüldüyü ilə bağlı suala cavablandırarkən deyib: “Deyəcək yeni heç nəyim yoxdur”. Daha sonra fikirlərini “biz keçmişdə istifadə etdiyimiz vasitələrdən istifadəni davam etdiririk. Gələcəkdə də istifadə edəcəyik”.

Göründüyü kimi, separatçılar Qarabağ məsələsi ilə bağlı nə qədər aksiyalar keçirsələr də, özlərini, necə deyərlər, oda-közə vursalar da daha onları Ermənistan hakimiyyətində belə dinləyən yoxdur. Artıq rəsmi İrəvan separatçıların nazı ilə oynamaq fikrində olmadığını ortaya qoyub. Bundan sonra onların İrəvanda hər deyil, yüz mitinq keçirməsi də heç nəyi dəyişməyəcək. Çünki onların, necə deyərlər, qatarı çoxdan gedib. Bu gün onlar vaxtilə azərbaycanlılara münasibətdə yol verdikləri mənfur əməllərin cəzasını çəkməkdədirlər.

**Səxavət HƏMİD**
**XQ**

# Papa Fransisk, Maloyan və erməni ruhaniliyinin terror sifəti

(əvvəli 1-ci səhifədə)

Üstəlik, belə addımlar ABŞ Prezidenti Donald Trampın, belə demək mümkünsə, xristian təəssübkeşliyi damarını oyatmaq məramı daşıyır. Yeri gəlmişkən, bununla bağlı diqqətçəkən olay bir neçə gün əvvəl yaşandı. Yunan ali din xadimi Birləşmiş Ştatların dövlət başçısına xaç təqdim edərək, onu İstanbulu geri almağa çağırdı.

Yunan papazın çıxardığı hoqqabazlığı nə qədər gülüncdürsə, hazırda Papa Fransiskin İ.Maloyanın din şəhidi elan etməsinə dair qərarı da bir o qədər sərsəmdir. Sərsəmlik ab-havası məsələ ilə bağlı yayılan məlumatlarda da əksini tapıb. Sən demə, Maloyandan xristianlıqdan imtina edib İslamın qəbulunu tələb ediblərmiş. Guya, din xadimi bununla razılaşmadığı üçün qətlə yetirilibmiş.

İ.Maloyanın özü barəsində məlumatlar, sanki, bir-birinin təkrarıdır. Diqqətçəkən məqam odur ki, din xadimi Birinci Dünya müharibəsi başlananda Osmanlı hakimiyyəti ilə dil tapmağa çalışmış, ancaq istəyinə müvəffəq ola bilməmişdi. Onun öldürülməsində də bu məsələ önə çəkilmişdi. Lakin ortaya suallar çıxır: Görəsən, Maloyan nə üçün hakimiyyətlə danışıqlar aparmışdı? Bu danışıqları doğuran səbəb nə olmuşdu?

Əlbəttə, başqa vurğulanmalı məqamlar da var. Məsələn, məlumdur ki, Osmanlı imperiyasında digər dinlərin daşıyıcılarına hər zaman hörmətlə yanaşılıb, onlara sərbəst etiqad azadlığı verilib. Osmanlıda xristianlıq ayrıca təqibə məruz qalmayıb. Belə olan halda, Maloyan qarşısında, iddia olunduğu kimi, xristianlıqdan üz döndərib İslamı qəbul etməklə bağlı tələb qoyulması olduqca şübhəlidir.

Başqa bir sual isə budur ki, əgər Birinci Dünya müharibəsi zamanı, konkret olaraq, 1915-ci ildə Osmanlıda xristianlıq təqib edilirdisə, nə üçün bunun qurbanı yalnız erməni keşiş Maloyan olmuşdur? Axı həmin dövrdə başqa xristian din xadiminin xoşagəlməz rəftara məruz qaldığına dair fakt yoxdur. Belə qənaətə gəlmək mümkündür ki, erməni keşişlə əlaqədar məsələdə qaranlıq məqamlar var.

Əlbəttə, bu, ilk növbədə erməni kilsəsinin özünün "mahiyyəti" ilə bağlıdır. Qənaətimizi əsaslandırmaq üçün XIX əsrin sonlarında Rusiyanın Van və Ərzurum bölgəsindəki baş konsulu olmuş Mayevskinin bir fikrini yada salmağı zəruri sayırıq. Mayevski deyirdi ki, erməni ruhaninin dinlə bağlı fəaliyyəti yox kimidir, fəqət, bunun müqabilində onun milli fikirlərin yayılmasında xidmətləri çoxdur.



Qeyd edək ki, Mayevski xatirələrində həmin dövrdə erməni terror qruplaşmalarının Qərbin müxtəlif dairələrinin əli ilə Osmanlıya qarşı hazırladıqları terror əməlləri barədə də müfəssəl qeydlər yer alır. O terror əməlləri ki, onların ilhamvericisi qismində çıxış edən məhz erməni kilsəsi olmuşdu. Ümumən, erməni tarixi üzrə mütəxəssislər kilsənin erməni dilinin, ədəbiyyatının və ənənələrinin qorunub saxlanmasında çox mühüm rol oynadığını vurğulayırlar. Onlar erməni Apostol kilsəsi rəhbərlərinin terrorçuları tərifləyən və dəstəkləyən tədbirlərə icazə verdiklərini, bu tədbirlərdə fəal iştirak etdiklərini, erməni icmasına, xüsusən gənc ermənilərə terror aktlarının kilsə tərəfindən rəsmi şəkildə təsdiqləndiyini diqqətə çatdırırlar. Habelə, tarixçilər erməni kilsəsinin terrorun sırf türk xalqını hədəf götürməsini tərifəlayiq hərəkət olduğu ideyasını yaydığını bildirirlər.

Bəli, "mübariz" erməni qruplaşmalarının terror fəaliyyətinə başladığı XIX əsrdən etibarən bu ekstremist ünsürlər arasında keşiş, yepiskop, arxiyepiskop kimi din xadimlərinin mövcudluğu danılmaz faktdır. Kilsə üzvlərinin, hətta, terror aktlarının təşkilatçılığını həyata keçirmələri, onlara birbaşa rəhbərlik etmələri də həmçinin. Məsələn, 1890-cı illərdə Amerika polisi Filadelfiyada Azmanaz Kazaryan və Qarabad Narinian adlı şəxsləri saxlamış, birinci dindirilmə zamanı Nyu-York və Filadelfiyadakı sui-qəsdləri və qarətləri erməni keşiş Martuqesyanın təşkilatçılığı ilə həyata keçirdiyini etiraf etmişdi. Yeri gəlmişkən, Martuqesyanın ABŞ-da reallaşdırdıqları əməllərə bənzər mənfur əməlləri Qafqazda yepiskop Mesrop Ter-Movsesyan və abbat Koriun törətmişdilər. Bu din xadimləri daşnakların göstərişlərinə tabe olmayan polis, jandarm və adi ermənilərə sui-qəsdlər təşkil etmişdilər.

Gələk, bilavasitə indiki Türkiyə ərazisinə. Deməli, Şərqi Anadoluda ermənilərlə müsəlmanlar arasında qarşıdurmaların qızışdırılmasında da erməni keşişlər və yepiskoplar mühüm rol oynamışdılar. Erməni tarixçisi Antraniq Çələbyanın etiraf etdiyi kimi, üsyanların və terror aktlarının hazırlanmasına bilavasitə keşişlər rəhbərlik etmişdilər. Faktı Osmanlı imperiyasında doğulmuş amerikalı yəhudi Albert J.Amateau da təsdiqləyib. O, qeyd edib ki, 1906-cı ildə çox sayda varlı erməni inqilab komitələrinə pul verməkdən imtina etdikləri üçün İzmirdə erməni terrorçuları tərəfindən qətlə yetirilmişdilər. Bu komitələri bəyənməyən və onlardan narahatlıq duyan sıravi ermənilər kilsələrin silah anbarı kimi istifadə olunması barədə dövlətə şikayətlər də ünvanlamışdılar. Amateau, həmçinin asayiş keşikçilərinin kilsəyə basqın etməsinin, oradan yük maşınları ilə silah-sursat çıxarmasının, basqın zamanı kilsədə olan beş keşişin və digər ermənilərin həbsinin şahidi olduğunu da diqqətə çatdırmışdı.

Bundan başqa, keşiş qiyafəsindəki fanatik terrorçu kimi tanınan erməni yepiskopu Muşeq nəinki qarət və sui-qəsdləri təşviq etmiş, eyni zamanda, belə əməllər üçün pul xərcləmək istəməyən imkanlı erməniləri "Vətən xaini" kimi qələmə vermiş, onların qətlinə çağırışlar səsləndirmişdi. O, 1909-cu ildə Osmanlı imperiyasında baş vermiş Adana üsyanı ərəfəsində erməniləri hər vasitə ilə silah almağa həvəsləndirmişdi. Həmin il ermənilərlə müsəlmanlar arasında yaşanmış icmalararası zorakılıq aktlarının törədilməsi də məhz Muşeqin təxribatının nəticəsi olmuşdu.

Məlumdur ki, Qarabağ avantürasına start verilməsində, azərbaycanlılara qarşı ədavətin qızışdırılmasında erməni kilsəsinin "rolu" olub. Birinci və İkinci Qarabağ müharibələri zamanı əli silahlı erməni din xadimləri də hər birimizin xatirindədir. Diqqətə çatdırdıqlarımız isə erməni kilsəsinin terrorun ilhamvericisi qismində çıxış etməsini təsdiqləyən faktların çox cüzi hissəsidir. Halbuki, faktlar həddən artıq çoxdur. Məhz bu çoxluq Osmanlı imperiyasını qəti addımlar atmağa vadar etmişdi. Birinci dünya müharibəsinə qatılan dövlət arxadan ona dəyən hay zərbəsini neytrallaşdırmaq üçün erməni təbəələrin imperiyanın müxtəlif ərazilərinə köçürülmələrinə dair qərar çıxarmışdı. Çünki başqa çıxış yolu qalmamışdı. Terror yuvalarını dağıtmaq lazım idi ki, dövlət zərər görməsin. Əgər müqəddəs məbəd sayılan kilsədən silah çıxırdısa, nə edilməliydi?

Hazırda "erməni soyqırımı" kimi qələmə verilən qondarma iddia qeyd etdiyimiz terror və təxribatlara qarşı görülən kütləvi məcburi köçürmə tədbirinin nəticəsidir. Yəni məqsədli şəkildə erməniləri qırmaq kimi bir ideya olmamışdı və ola da bilməzdi. Aydındır ki, əhalinin bir yerdən başqa yerə daşınması asan proses deyil və istər-istəməz, itkilərlə müşayiət olunmalıdır və olunub. Məsələni kütləvi qırğın kimi qələmə vermək isə böyük haqsızlıqdır. Müvafiq olaraq, belə qənaətə gəlmək mümkündür ki, hazırda Roma Papasının "erməni soyqırımı" zamanı öldürüldüyü iddia olunan keşiş İqnatius Maloyanın kanonlaşdırılması, onun xatirəsinin din şəhidi kimi rəsmiləşdirilməsi də, yumşaq desək, son dərəcə böyük haqsızlıqdır.

Digər tərəfdən, din xadimlərinin erməni terrorunun vüsət almasındakı "roluna" dair faktları nəzərə alsaq, əslində, Maloyandan xristianlıqdan üz döndərib İslamı qəbul etmək tələb olunubsa belə, bu, daha çox dövrün xarakterindən qaynaqlanıb, Osmanlıda digər dinlərin daşıyıcılarına, o cümlədən xristian ermənilərə qarşı təqib siyasəti olmayıb. O vaxt erməni ruhanilər terroru türklərə qarşı mübarizə üsulu kimi qiymətləndirirdilər. Maloyanın indi qabardılan din uğrunda şəhidliyi kimi...

Sonda onu da bildirək ki, erməni din xadimlərinin terroru açıq və həyasızcasına qəhrəmanlıq kimi qəbul etmələri, məhkum olunmuş terrorçuların qəhrəman qiyafəsində təbliğatını aparmaları faktları bəşəriyyəti, indiki halda, Roma papası Fransiski ciddi şəkildə narahat etməlidir. Təkcə ona görə yox ki, bundan terror hədəfləri olan türklər və digər millətlər əziyyət çəkirlər. Ən əsası o səbəbdən ki, belə ermənipərəstlik dinin bəd əməllər üçün alətə çevrilməsi reallığını doğurur. Mövcud reallıq şəraitində erməni gəncləri üçün terrorçular nümunəyə, örnəyə çevrilirlər. Minlərlə erməni gəncinin İkinci Qarabağ müharibəsi zamanı hansı faciəli aqibəti yaşadığını isə bütün dünya gördü. Sözümüz ondadır ki, mənfur niyyətlər Ermənistan və ermənilər üçün yekunda böyük bəlaya və zərərə çevrilir. Bundan onların özləri nəticə çıxarmırlarsa, heç olmasa, Roma papası məsələ haqqında düşünsün.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Ermənistan KTMT-yə üzvlük haqqını ödəməkdən imtina edir

**Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Katibliyinə KTMT-nin maliyyələşdirilməsini nəzərdə tutan sənədi imzalamayacağı barədə xəbərdarlıq edib. Bu barədə Ermənistan Xarici İşlər Nazirliyi məlumat yayıb: "Ermənistan tərəfi KTMT Katibliyinə "KTMT-nin 2024-cü il büdcəsi haqqında" qərarı imzalamadığı və müvafiq olaraq təşkilatın fəaliyyətinin maliyyələşdirilməsində iştirak etməyəcəyi barədə rəsmi məlumat verib".**



Yada salaq ki, bu mövzu dəfələrlə həm baş nazir, həm də digər səviyyələrdə gündəmə gətirilib. Məsələn, ötən ilin fevralında Ermənistan KTMT-də üzvlüyünü dondurub, ardınca üzvlük haqqını ödəməkdən imtina edib, bir çox iclasında iştirak etməyib. Bu barədə baş nazir Nikol Paşinyan deyib ki, ölkəsi özünü KTMT-nin üzvü saymadığı üçün həmin təşkilat daxilindəki qərar və sənədlərin qəbulu prosesində iştirak etmir: "Biz KTMT daxilindəki müzakirələrdə, eləcə də nə sənəd və qərarların qəbulunda iştirak edirik, nə də veto hüququmuzdan yararlanırıq. Çünki özümüzü bu təşkilatdan kənarda hesab edirik. Qoy, istədikləri qərarı qəbul etsinlər".

Paşinyana görə, KTMT Ermənistan qarşısındakı öhdəliklərini yerinə yetirməyib, İkinci Qarabağ müharibəsində ölkəsinə dəstək verməyib. Həmçinin qeyd edib ki, Ermənistana qarşı "müharibənin hazırlanmasında iştirak edən ən azı iki KTMT ölkəsini" tanıyır. Paşinyan həmin ölkələrin adlarını çəkməsə də, son dövrlərdə onun Belarus Prezidenti Aleksandr Lukaşenko ilə münasibətlərinin kəskinləşməsi müşahidə olunur. Hayastanın baş naziri bildirib ki, Bakını dəstəklədiyinə görə İrəvan Minskdən "inciyib".

2025-ci ilin martında isə Ermənistan parlamentinin spikeri Alen Simonyan bəyan etmişdi ki, ölkə hakimiyyəti təşkilatla bağlı mövqelərinə yenidən baxmaq niyyətində deyil.



Bu arada, Moskva rəsmiləri dəfələrlə İrəvanın KTMT və Rusiyadan yardım görmədikləri ilə bağlı açıqlamaları təkzib edib. Əksinə, Ermənistanın hərbi, texniki və təşkilati baxımdan davamlı şəkildə böyük dəstək aldığı vurğulanıb. Rusiyalı politoloq Boqdan Bezpalko bildirib ki, Ermənistan rəhbərliyinin bəyanatlarını qeyri-dost addım kimi qiymətləndirmək olar: "Faktiki olaraq təşkilata üzvlüyün dayandırılması kimi prosedur yoxdur, lakin Ermənistanın KTMT-də keçirilən bir sıra tədbirlərdə iştirakını dayandırdığı göz qabağındadır. Əslində, Ermənistanın KTMT-dən başqa arxalanacağı heç bir qurum yoxdur. Ermənistanın silahlı qüvvələri və güc strukturları həm Rusiya, həm də KTMT üzvlərindən böyük təşkilati və texniki dəstək alıblar".

Doğrudan da, Hayastanın KTMT-dən çıxıb başqa hərbi bloka qoşulması mümkün deyil. Bu səbəbdən də bu hay-küylərə baxmayaraq, Ermənistan KTMT-yə üzvlüyünü davam etdirəcək. Görünür, bu ölkə Rusiyadan daha çox güzəşt qoparmaq istəyir və bu səbəbdən də hay-küy yaradır. Politoloq Elxan Şahinoğlu bildirib ki, Rusiya ilə Ermənistan arasında hərbi və hərbi-texniki əməkdaşlıq var: "Bu əməkdaşlıq "Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım" müqaviləsi əsasında inkişaf edir. Həmin sənədə əsasən, Moskva və İrəvan, tərəflərdən birinə hərbi təhlükə yaranarsa, bir-birinə yardım göstərməyi və hərbi-texniki əməkdaşlığı inkişaf etdirməyi öhdələrinə götürüblər. Bundan başqa, hərbi əməkdaşlıq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində də həyata keçirilir. Ermənistanla Rusiya arasında 1995-ci ildə bağlanmış dövlətlərarası müqaviləyə əsasən, 102-ci Rusiya hərbi bazası Ermənistanın Gümrü şəhərində yerləşdirilib. Bazanın təxminən 5 min nəfərdən ibarət şəxsi heyəti MDB-nin Birgə Hava Hücumundan Müdafiə Sistemi çərçivəsində döyüş növbəsindədir".

Beləliklə, Ermənistan təhlükəsizlik baxımından KTMT-dən asılı vəziyyətdədir. Bu təşkilatın büdcənin yarısını Rusiya, qalan 50 faizini isə digər 5 iştirakçı ölkənin (Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Ermənistan) hər biri 10 faizini verir. Bu da o deməkdir ki, dövlət üzv olduğu quruma üzvlük haqqı ödəmirsə, oradan dərhal çıxmalıdır. Ermənistan isə buna getmir. Ona görə ki, Rusiyadan çəkinir. Gözləyir ki, onu KTMT üzvləri özləri xaric etsinlər. Amma qurumun üzvləri onu üzvlükdən çıxarmaq istəmirlər. Rusiya xarici işlər nazirinin müavini Aleksandr Pankin bu barədə bildirib ki, əgər Ermənistan 2025-ci ilin sonunadək KTMT büdcəsinə öz üzvlük haqqını ödəməsə, o zaman assosiasiyaya üzv ölkələr "müxtəlif ssenarilər nəzərdən keçirə bilərlər", lakin onların dövləti təşkilatdan "qovmaq" və ya "avtomatik olaraq" çıxarmaq ehtimalı azdır.

Bununla paralel olaraq, Ermənistan Avropa İttifaqına (Aİ) yaxınlaşmaq istiqamətində addımlar da atır. Ötən həftə Ermənistan parlamenti Aİ-yə üzvlük prosesinin başlanması haqqında qanun layihəsini ikinci və sonuncu oxunuşda qəbul edib. Qanun layihəsinin qəbulunun lehinə 64 deputat, əleyhinə isə 7 deputat səs verib. Müxalif "Hayastan" fraksiyası səsvermədə iştirak etməyib, "Mənim şərəfim var" fraksiyası əleyhinə səs verib. Müxalifətin mane olmaq cəhdlərinə baxmayaraq sənəd qəbul edilib.

Onu da qeyd edək ki, bu, Ermənistan qanunvericiliyinə uyğun olaraq yekun qərardır. Amma onun yaxın zamanda Aİ-nin tamhüquqlu üzvünə çevriləcəyini deməyə əsas vermir. Əslində, üzvlük Hayastanın maraqlarına da xidmət etmir. Onun üçün Avrasiya İqtisadi İttifaqınana (AİƏ) üzvlüyü daha səmərəlidir. Hazırda Ermənistan Belarus, Qazaxıstan, Qırğızıstan və Rusiya ilə birlikdə Avrasiya İqtisadi İttifaqının tamhüquqlu üzvüdür. Ermənistan Milli Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə Ermənistanın AİƏ-yə üzv ölkələrlə xarici ticarət dövriyyəsi 54 faiz artaraq 12 milyard 706 min dollar təşkil edib.

Hesabat dövründə Ermənistanın Avropa İttifaqı ölkələri ilə xarici ticarət dövriyyəsinin həcmi cəmi 2 milyard 335 milyon dollar olub. Bu rəqəmlərdən görünür ki, Hayastanın xarici ticarət dövriyyəsində AİƏ daha çox paya sahibdir. Ümumi statistik rəqəmlər həm də onu göstərir ki, Qərb ölkələrinin Ermənistanın xarici ticarətində AİƏ-ni əvəz etməsi qeyri-mümkündür.

Proseslərn bu istiqamətdə, yəni Ermənistanın KTMT-dən uzaqlaşmaq və Aİ-yə üzvlük isə Nikol Paşinyan hakimiyyətinə qarşı ciddi təzyiqlərə səbəb ola, hətta siyasi böhrana gətirib çıxara bilər. Beləliklə, Ermənistanın, eyni zamanda, Avrasiya İqtisadi İttifaqına (AİƏ) və Aİ-yə üzv olması mümkün deyil. Emənistan hakimiyyətinin atdığı addımlar isə Paşinyan iqtidarını sarsıda bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Milli ideya XXI əsrin yeni geosiyasi çağırışları fonunda



V MƏQALƏ

## Suallar

Milli ideyanın tarixi yaddaşı toplumun maraqlarına və bu aspektdə cəmiyyətin bütövlüyünə istiqamətləndirməsi mühüm məsələdir. Problemin fəlsəfi tərəfi tarixi dövrlərin yeniləşməsi fonunda mövcud kommunikasiya vasitələri, milli ideya çərçivəsində tarixi yaddaşın düzgün aktuallaşırılması ilə bağlıdır. Bunun üçün cəmiyyətdə əsas tarixi hadisələrə ortaq baxış formalaşdırılmalıdır.

Bunların diqqətli oxucu üçün hazırda Azərbaycan fəlsəfəsində, tarixşünaslığında, sosiologiyasında, filologiyasında, kulturologiyasında, folklorunda müşahidə edilən idraki proseslərlə sıx bağlılığı şübhə doğurmur. O cümlədən, “biz filan tarixi-siyasi şəxsiyyətimizi necə qiymətləndirməliyik?” sualına cavab çox aktualdır. İndi bir sıra baxış bucaqları mövcuddur və cəmiyyət ortaq bir yanaşmanı gözləyir. Bunun üzərində işləyirikmi? Məncə, işləmirik və bu da toplumun şüurunda qeyri-müəyyənlik yaradır.

Başqa bir nümunə. Hazırda Azərbaycanın tarixində büş vermiş müxtəlif hadisələrə yanaşmalarda fərqlər və bəzən təzadlar özünü göstərir. Hətta bəziləri öz ağıllarınca üstüörtülü suallarla Azərbaycanın türk kimliyinə şübhələr oyatmağa çalışırlar.

Əlbəttə, tarixi faktları təhrif etmək doğru deyildir. Lakin müasir mərhələdə qardaşı qardaşdan belə ayırmaq cəhdi hansı milliliyi ortaya qoyur? Vətən müharibəsində kimin kimin yanında olduğunu hərdənbir xatırlamaq faydalı olardı.

Bundan başqa, Azərbaycan–Türkiyə münasibətlərinin ən yüksək zirvədə olduğu, “bir millət, iki dövlət” düşüncəsi ilə liderlərin fəaliyyət göstərdiyi bir zamanda, müəyyən faktları süni şişirdib cəmiyyətə təqdim edən tarixşünaslığın adı nədir və məqsəd nədən ibarətdir? Bu davranış kimin milli ideyasına xidmət edir?

Nə üçün ilk baxışdan fərqli nəzəri yanaşma təsiri bağışlayan bu kimi məqamları milli ideya kontekstində önəmli hesab edirik? Bunun çox sayda şüuri, təfəkkür və praktiki təsiri olan səbəbləri mövcuddur. Biz burada yalnız bir aspekt – milli ideya ilə milli ideologiyanın münasibətləri üzərində dayanacağıq.

## Milli ideologiya

“İdeologiya” yunancadan tərcümədə “məna”, “təlim” anlamını verir. Onu “konseptual formalaşmış ideyalar sistemi” kimi tərif edirlər. Bu zaman xüsusi vurğulanır: ideologiya müxtəlif subyektlərin (millətlərin, cəmiyyətlərin, siyasi partiyaların və s.) maraqları, dünyagörüşü və ideallarını ifadə edir. Deməli, birincisi, hər bir ideologiya ideyalar sistemidir, baxışların məcmusudur, ikincisi, ideologiya bu keyfiyyətdə mücərrəd və ya neytral olmur – kimlərinsə maraqlarını ifadə edir! Bu “kimlər” qismində millət iştirak edirsə, ona “milli ideologiya” demək olar.

Belə alınır ki, ideologiyanın milliliyi onu təşkil edən ideyaların milliliyi ilə müəyyən olunur. O halda milli ideya milli ideologiyanın çox mühüm tərkib hissəsidir, lakin onu əvəz etmir. Milli ideya həmişə milli ideologiya çərçivəsində mövcud ola bilir və ona uyğun aktuallaşır. Eyni zamanda, milli ideologiya milli ideyada özünü təsdiq edir. Milli ideya reallaşırsa, bu, milli ideologiyanın zamanın tələblərinə uyğun olması əlamətlərindən biridir. Buna görədir ki, milli ideyanı fəlsəfi mənada milli ideologiyanı zamanın “nəbzini tutması” faktorlarından biri kimi də təsəvvür etmək olar.

Milli ideya milli ideologyanı stimullaşdırır, onun inkişafına təkan verir. Çünki milli ideya reallaşdıqca milli ideologiyanın toplum üçün perspektivləri daha aydın olur. Deməli, milli ideologiyanın hər bir xalq, millət və toplum üçün əhəmiyyəti milli ideyanın həyata keçməsi fonunda müəyyən oluna bilər və təbii ki, yalnız bu məqamla məhdudlaşmaz.

Məsələnin vurğulanan aspektini Azərbaycan nümunəsində izah etməyə çalışaq.

## Azərbaycançılıq

Azərbaycançılıq ideologiyasını müasir mərhələdə ciddi siyasi-nəzəri baxışlar sisteminə çevirən ulu öndər Heydər Əliyevdir. Bu ideologiya Azərbaycanı Vətən, müstəqil dövlət, mədəniyyət məkanı, özünəxas dili, dini, adət-ənənəsi olan coğrafi-siyasi məkan kimi dərk olunmasını təmin edir. Azərbaycançılıq Azərbaycanın hər bir azərbaycanlının Vətəni olduğunu və buna görə də məsuliyyət daşıdığını ifadə edir. Azərbaycançı olmaq imtiyaz deyildir, Vətənə münasibətdir, qürur mənbəyidir və həm də böyük məsuliyyətdir. Azərbaycançılıq Azərbaycan Respublikasında yaşayan kimsənin irqi, etnik, dini diskriminasiyasına yol vermir. Bu ölkənin titul milləti olan türklər kimsənin haqq və hüququna toxuna bilməzlər. Eyni məntiqlə kimsə türklərin burada dövlətqurucu qövm olduğunu inkar edə bilməz.

Bu mənada “azərbaycanlı” siyasi kimliyi yalnız türklərə deyil, ölkə vətəndaşı olan hər kəsə aiddir. Yəni Azərbaycan Respublikasının rus, yəhudi, gürcü, avar, talış, kürd, ləzgi və cəmi bir neçə min sayı olan kiçik etnik qruplara da aiddir. Hüquqi cəhətdən ən böyük etnos olan türklərlə ən az sayda olan qrup arasında zərrə qədər də fərq yoxdur. Ancaq dövləti və milli kimlik baxımından “türk dövləti”, “Azərbaycan türkləri” kimi ifadələr həm tarixi gerçəklikdir, həm də düzgün siyasi təsbitdir.

Azərbaycan türkləri heç zaman başqasına yuxarıdan aşağı baxmaq və ya özünün müstəsna hüquqa malik olması məsələsi kimi baxmamalıdır. Bizim üçün azərbaycanlı olmaq şərəfdir və düzgün olanı budur. Hər bir azərbaycanlı doğmadır və qiymətlidir. Bu baxımdan azərbaycançılığın siyasi, mənəvi, ideoloji məsuliyyətini hamımız toplum olaraq eyni səviyyədə daşıyırıq.

Ulu öndər Heydər Əliyev də azərbaycançılıqdan həmişə vətənçilik, mədəniyyət mənsubluğu, adət-ənənə birliyi, dil, din ortaqlığı və Azərbaycan döəvlətçiliyinə bağlılıq kontekstində bəhs etmişdir. Yəni azərbaycançılıq ideologiya kimi milli dövlətçiliyə sədaqətə böyük önəm verir.

Azərbaycançılıq üçün etnik mənsubluq deyil, Vətənə, xalqa, adət-ənənəyə, dilə, dinə, mədəniyyətə münasibət “qırmızı xətdir”!

Xarici siyasət aspektində isə Azərbaycanın maraqları prizmasında hər bir dövlətlə beynəlxalq hüquq çərçivəsində ədalətli, qarşılıqlı fayda verən və milli təhlükəsizliyə xidmət edən münasibətlər qurmaqla bağlıdır.

Azərbaycançılıqda mədəniyyət faktoru milli ilə bəşəriliyin sintezində yer almışdır. Yəni hər bir azərbaycanlı milli mədəniyyəti dərindən mənimsəmək əsasında müxtəlif mədəniyyətlərdən bəhrələnməyə də açıq olmalıdır. Bu mənada azərbaycanlı ədalətli, dialoqa hazır və tolerant olmalıdır. Bütün bu məqamları Ulu öndərin tövsiyələrində, kəlamlarında və həyat fəaliyyətinin məntiqində tapmaq mümkündür! Bu mənada Heydər Əliyev əsl Azərbaycançı idi!

## 1993–2020-ci illərin milli ideyası: milli ideologiya fonunda

Keçən əsrin 90-cı illərinin əvvəllərində Ulu öndər milli ideyanı belə müəyyən etmişdir: “ərazi bütövlüyünün bərpası”! Bu məzmun azərbaycançılıq ideologiyasının məzmun və mahiyyətinə tam uyğun idi. Çünki vətənçilik və dövlətçilik baxımından son dərəcə düzgün və dəqiq hədəf seçilmişdi.

Müasir dövlət təlimlərindən məlumdur ki, ərazi bütövlüyü və suverenlik müstəqil dövlətin başlıca atributlarındandır. Azərbaycan Respublikası ərazi bütövlüyünü təmin etmədən tam mənası ilə müstəqil dövlət olduğunu sübut edə bilməzdi. Milli ideyanın məhz müstəqil dövlətçiliyin təmininə yönləndirilməsi isə müasir mərhələdə milli dövlət anlayışının milli ideologiyada əsas yerdə durduğuna işarə idi. Bu, nəzəri olaraq, “millilik” anlayışını uğurlu surətdə “milli dövlət” anlayışına proyeksiya etmək demək idi. Yəni azərbaycanlının milliliyi onun milli dövlətçiliyə sədaqəti və mənəvi bağlılığı ilə müəyyən olunur. Bu baxımdan milli ideya ərazi bütövlüyünü təmin etmək məzmununda sürətlə milyonların özşüurunda ideya kimi möhkəm yer aldı. O, azərbaycanlı şüurunda və intellektində yaddaş kimi aktual yerini tutdu.

1993-cü ildən bu yana Azərbaycanın təcrübəsi göstərdi ki, azərbaycançılıq çərçivəsində multikulturalizm də milli ideyanın uğurlu həyata keçirilməsində ciddi rol oynadı. Multikultural dəyərlərə böyük diqqət cəmiyyətin bütövlüyünü təmin etməkdə həlledici rol oynadı.

Bunlarla yanaşı, milli ideya çox vacib bir faktoru cəmiyyətin gündəmində aktual formada saxlamağa imkan yaratdı. Bu, milli ideyanın ərazi bütövlüyü ilə bağlı müəyyən edilməsinin avtomatik olaraq toplumun həyatına, ümumiyyətlə, “ərazinin obrazı” anlayışını gətirdi. Onun fəlsəfəsi maraqlı və dərindir. Hər hansı bir dövlətin və ya ölkənin “ərazi obrazı” nə deməkdir və o, niyə milli ideya və ideologiya baxımından əhəmiyyətlidir? Bu məsələnin yeni liderlik təcrübəsi ilə əlaqəsi mövcuddurmu?

XX əsrin sonları XXI əsrin əvvəllərindən dünya üzrə “ərazinin coğrafi obrazı” anlayışının fəlsəfi, tarixi, kulturoloji, sosioloji, iqtisadi, coğrafi tədqiqatları intensivləşdi. O.B.Popova və T.F.Semyonov yazırlar ki, “ərazinin coğrafi obrazı”nın coğrafiyada tədqiqi qədim dövrlərdən başlayır. Sonra, o, alman coğrafiyaçıları və filosoflarının əsərlərində inkişaf etdirilmişdir. Bu proses A.Hettnerin konsepsiyasında öz ifadəsini tapmışdır. Bu konsepsiya coğrafi ərazinin təsvirindən onun izahına keçidin nəzəri və metodoloji əsaslarını yaratdı. Müasir mərhələdə isə bu anlayış tətbiqi elmi istiqamətlərlə yanaşı, fənlərarası yanaşma və fəlsəfə çərçivəsində də geniş araşdırılır.

İndi araşdırmaçılar coğrafi ərazi obrazının anlamı və izahı ilə bağlı yeni fənlərarası yanaşmanın formalaşdığını yazırlar. Məsələn, D.Zamyatin “imic coğrafiyası” və “obrazlar coğrafiyası” konsepsiyasını yaratmışdır. O, ərazinin coğrafi obrazını qloballaşma və regionlaşma proseslərinin qarşılıqlı əlaqəsində görməyi təklif etmişdir. Bu anlamda ölkələri və regionları mürəkkəb coğrafi obrazlar kimi təsəvvür etmək olur.

Son olaraq bu yanaşma çərçivəsində ölkə ərazisinin coğrafi obrazının siyasətə, ideologiyaya, mədəniyyətə, iqtisadiyyata, sosial münasibətlərə elə təsir edir ki, həmin ölkəni (və ya dövləti) siyasət, mədəniyyət, ideologiya aspektlərində təqdim etmək mümkün olur. Yəni faktiki olaraq, ölkənin ərazi obrazı onun dövlət kimi identifikasiyasında siyasi, ideoloji, mədəniyyət aspektlərində yer almalıdır. Bunun üçün fəlsəfə, kulturologiya və politologiyanın ortaq idraki sahəsində özəl yanaşma formalaşdırmaq lazım gəlir. O cümlədən, indi Azərbaycan tarixşünaslığında və politologiyasında geniş işlənən “itirilmiş ərazi”, “verilmiş ərazi”, “işğal olunmuş ərazi” ifadələrinin fəlsəfi və siyasi-nəzəri anlamı akrtuallaşır.

Bu ifadələr Azərbaycan fəlsəfi, elmi və politoloji təfəkküründə hansı məzmunları almışdır və siyasətdə hansı məna çalarları mövcuddur? Bu suallara cavab ayrıca təhlil tələb edir. Onun araşdırılmasına keçmədən öncə 2020-ci il II Qarabağ müharibəsindən sonrakı mərhələdə milli ideyanın XXI əsrin yeni çağırışları fonunda məzmunlaşması məsələsinə nəzər salaq.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Süni intellektin “yol xəritəsi”

I

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 19 mart 2025-ci ildə imzalanan sərəncam ölkənin süni intellekt sahəsindəki inkişafını daha da sürətləndirmək, bu sahədə aparılacaq tədqiqatları dəstəkləmək və süni intellekt texnologiyalarının dövlət strukturlarında tətbiqini optimallaşdırmaq məqsədi güdür. Sərəncamda "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi və bu proqramın həyata keçirilməsi üçün nəzərdə tutulan tədbirlər sırasına xüsusi diqqət yetirilir. Bu mühüm addım süni intellektin müxtəlif sahələrdə – xüsusilə, dövlət idarəçiliyi, iqtisadiyyat, təhsil, elmi tədqiqat, təhlükəsizlik, diplomatiya istiqamətlərində tətbiqinin genişlənməsini və inkişafını təmin etmək məqsədini daşıyır.**



Prezidentin sərəncamı süni intellektin Azərbaycanın prioritet istiqamətlərinə daxil edilməsi üçün aydın və məqsədyönlü yol xəritəsi təqdim edir. Həmçinin, sərəncamda bu texnologiyaların tətbiqinin monitorinqi və qiymətləndirilməsi məsələləri də xüsusi yer alır. Bu, dövlətin süni intellektə dair tətbiq strategiyalarının səmərəliliyini artırmaq və əldə edilən nəticələrin davamlılığını təmin etmək üçün vacib addımdır.

2022-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ölkəmizin rəqəmsal iqtisadiyyata keçidini sürətləndirmək məqsədini qarşıya qoydu. Bu sənəd yalnız iqtisadiyyatın transformasiyasını deyil, həm də Azərbaycanda yeni bir inqilabın – süni intellektin tətbiqi ilə bağlı əsas addımları atmağa imkan verən bir çərçivə kimi qiymətləndirilə bilər. 2023-cü ildə isə Prezidentin təsdiqlədiyi "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası" ilə süni intellekt sahəsində daha dərin strateji addımlar atılmasına başlanıldı. Bu qərarlar ölkənin iqtisadi və sosial inkişafını yeni bir səviyyəyə yüksəltməklə yanaşı, qlobal rəqabətdə Azərbaycanın gücünü daha da artırmaq məqsədini güdür.

Bütün bunlar Azərbaycanın süni intellekt sahəsindəki sistemli yanaşmalarını nümayiş etdirir. Süni intellektin dövlət idarəçiliyində və iqtisadiyyatında rolu yalnız texnoloji yeniliklərlə məhdudlaşmır; o, həm də sosial məsələlərdən tutmuş təhlükəsizlik, müdafiə və ictimai rifaha qədər geniş spektrli sahələri əhatə edir. Əslində, bu sahənin inkişafı yalnız texnoloji inqilab deyil, dövlətin quruluşunda da fundamental dəyişikliklərə yol açacaq.



Sərəncamın mühüm məqamlarından biri də süni intellektin dövlət orqanlarında, bilavasitə diplomatik fəaliyyətdə necə inteqrasiya ediləcəyi məsələsidir. Bununla Azərbaycanda diplomatik fəaliyyətin daha çevik və sürətli hala gəlməsinə şərait yaradılacaq, beynəlxalq münasibətlərdə ölkənin təsiri artacaq və Azərbaycan regional və qlobal miqyasda daha təsirli bir oyunçuya çevriləcəkdir.

Prezidentin sərəncamı süni intellektin tətbiqi ilə bağlı genişmiqyaslı təşəbbüsləri əhatə edir. Diplomatiya sahəsində süni intellektin tətbiqi, xüsusilə Azərbaycanın beynəlxalq əlaqələrində strateji təsir yarada bilər. Süni intellekt məlumatların analizi və emalı sahəsində sürət və dəqiqliyi təmin etməklə diplomatik qərarların daha tez və düzgün verilməsinə imkan yaradacaq. Azərbaycanın xarici siyasətində süni intellektin tətbiqi ilə əlaqədar bir sıra perspektivlər ortaya çıxır.

Bununla yanaşı, süni intellektin tətbiqi Azərbaycan üçün əhəmiyyətli olan enerji diplomatiyasını və regional təhlükəsizlik məsələlərini daha optimallaşdırılmış şəkildə idarə etməyə imkan yaradacaq. Enerji diplomatiyasının ən vacib aspektlərindən biri enerji tədarükünün sabit və təhlükəsiz şəkildə həyata keçirilməsidir. Süni intellekt Azərbaycanın enerji tədarükü ilə bağlı potensial riskləri qabaqcadan proqnozlaşdırmasına və bu risklərə qarşı tədbirlər görməsinə imkan verir. Enerji təchizatı ilə bağlı yaranan kəsintilərin və ya təchizatın dayanmasının qarşısını almaq üçün süni intellekt real zamanlı verilənlərin təhlilini apararaq, hansı ölkələrin enerji ehtiyatları infrastrukturlarını və təchizat zəncirlərini daha yaxşı idarə edildiyini müəyyənləşdirə bilər. Bütün bunlar Azərbaycanın enerji ixracatçıları ilə əlaqələrini daha sabit və qarşılıqlı faydalı şəkildə qura bilər.

Azərbaycanın enerji diplomatiyası, həmçinin beynəlxalq enerji bazarlarının tələblərini nəzərə alaraq strateji tərəfdaşlarla əlaqələri formalaşdırmalıdır. Süni intellekt beynəlxalq bazarlarda enerji qiymətlərini izləyərək nə zaman və hansı bazara enerji ixrac etmək üçün ən optimal şəraitin olduğunu müəyyənləşdirə bilər. Bu cür təhlillər Azərbaycanın enerji diplomatiyasını daha proqnozlaşdırıla bilən və çevik hala gətirməyə imkan yaradacaq.

Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm aktordur. TAP layihəsi (Trans Adriatik Boru Kəməri) Avropanın enerji diversifikasında mühüm addım kimi qəbul edilir. TAP vasitəsilə Azərbaycan Avropaya təbii qaz tədarük etməklə, Avropanın enerji bazarının daha müxtəlif və təhlükəsiz hala gəlməsinə kömək edir. Bu layihə Azərbaycanın enerji ixracatını genişləndirmək və Avropa ilə strateji tərəfdaşlıq qurmaq imkanı verir. Süni intellekt bu sahədə də məlumatların təhlili ilə təchizat zəncirlərinin təhlükəsizliyini təmin edərək layihənin daha effektiv idarə olunmasına dəstək verə bilər.

Süni intellekt Azərbaycanın enerji diplomatiyasını inkişaf etdirmək üçün alternativ enerji mənbələrinin potensialını təhlil edərək yeni bazar imkanları da yarada bilər. Bununla yanaşı, süni intellekt vasitəsilə mövcud enerji resursları səmərəli şəkildə idarə edilərək bu resursların ekoloji cəhətdən daha davamlı istifadəsi də gələcək perspektivlər arasındadır. “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”nda yüksək enerji xərclərinin azaldılması və enerji effektivliyinin artırılması üçün süni intellektin tətbiqi mühüm yer tutur. İsveç və Danimarka kimi ölkələr yaşıl texnologiyalardan istifadə edərək yüksək enerji xərclərini azaltmağa çalışırlar, Azərbaycan da bu təcrübəni süni intellektlə birləşdirərək öz enerji effektivliyini artırmaq imkanı əldə edə bilər. Eyni zamanda, süni intellektin tətbiqi ilə enerji istehsalının ekoloji təsirlərinin azaldılması da təmin oluna bilər.

Süni intellektin tətbiqi regional təhlükəsizlik məsələlərində diplomatik danışıqların idarə edilməsi prosesini asanlaşdırır. Diplomatik müzakirələr zamanı tərəflərin mövqelərini, məsələlərə yanaşmalarını və müzakirə tarixlərini izləmək çox vacibdir. Süni intellekt müvafiq məlumatları təhlil edərək, dövlətlərə daha effektli danışıqlar üçün strategiyalar təqdim edə bilər. Bu strategiya həm də Azərbaycanın regional təhlükəsizlik məsələlərində güclü diplomatik təşəbbüslər göstərməsini təmin edəcək.

Regional təhlükəsizlik məsələləri yalnız bir ölkənin maraqlarını əhatə etmir, həm də qonşu dövlətlərlə olan əməkdaşlıq və koordinasiyanı tələb edir. Süni intellekt vasitəsilə Azərbaycanın müxtəlif regional tərəfdaşları ilə olan əlaqələrini gücləndirə bilər. Təhlükəsizlik məsələlərində Türkiyə, Gürcüstan və İran ilə olan əlaqələri optimallaşdırmaq üçün süni intellekt müxtəlif ssenariləri qiymətləndirərək ən uyğun həll yollarını təqdim etməkdə effektivdir.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

Günün qınağı

# "Milli hərəkatçı"nın ABŞ-da antimilli fərariliyi

## İran Türkləri Konqresi direktorunun "özgə dəyirmanına su axıtmaq"da qəsdi nədir?

**ABŞ-ın Koliforniya ştatında yaşayan İran Türkləri Konqresinin direktoru Əlirza Amir Nəzmi Avşarın martın 14-də bu ölkənin yeni seçilmiş lideri Prezident Donald Trampa yazdığı və surətini vitse-prezidentə, Konqres spikerinə, Dövlət katibinə, Təhlükəsizlik Xidmətinə və bəzi senatorlara ünvanladığı məktub ölkəmizdə, eləcə də dünyada yaşayan soydaşlarımızın arasında kəskin etirazla qarşılanıb.**

Məktub müəllifi maraqlarını təmsil etdiyi İran türklərinin problemlərini, arzu-istəklərini bir kənara qoyub, Azərbaycan Respublikası ilə bağlı həqiqətə uyğun olmayan qarayaxma və böhtanları qərəzli donos məzmununda qələmə verməyə çalışıb. Bu bədnam cızmaqaraya, təslimçi addıma cavab olaraq Dünya Azərbaycanlıları Konqresinin həmsədri, Xalq şairi Sabir Rüstəmxanlı martın 31-də Güney əslilli "milli hərəkatçı"ya məktub göndərib. Azərbaycanın nüfuzlu ictimai-siyasi xadimi, DAK-ın həmsədri dərin təəssüf hissi və kəskin qınaqla "fərari vətənpərvər"in düzüb-qoşduğu yalan və böhtanları cavablandırıb.

Xalq şairi Sabir Rüstəmxanlı buvaxtadək təcrübəli insan kimi tanıdığı Əlirza Amir Nəzmi Avşarın dünya liderlərindən birinə məktubunda xalqımızın taleyi ilə bağlı problemləri bir kənara qoymasından hədsiz təəccübləndiyini bildirib.

**DAK həmsədri İran Türkləri Konqresi sədrinin müstəqilliyinin ilk günlərindən imperialist dairələrin düşmənçilik siyasətinə təkbaşına sinə gərən, onun ağır nəticələrini öz imkanları ilə aradan qaldıran Azərbaycan Respublikasını tərs prizmada təqdim etməsini, ölkəmizi ABŞ-ın dövlət maraqlarının əleyhdarı kimi qələmə verməsini həqiqət işığında vicdan mühakiməsinə çəkib:**

– Əvvəl düşündüm ki, siz xalqımızın problemləri haqqında məlumat verəcək, ABŞ-ın siyasətində bu məsələlərin də nəzərə alına biləcəyini vurğulayacaqsınız.

Təəssüf ki, siz dünya azərbaycanlılarının, hələ ki, yeganə dövləti olan Azərbaycan Respublikasını və onun iqtidarını hədəfə çevirərək, yaşınıza-başınıza yaraşmayan, qeyri-dəqiq məlumatlarla, yalan və böhtanla dolu olan bir şikayət məktubu yazmısınız. Sanki, Avropanın, özəlliklə Fransanın ermənipərəst və düşmən münasibəti, erməni diasporunun gecə-gündüz bizim əleyhimizə yayılan yazıları az imiş, gərək siz də onların köməyinə çataydınız. Tramp hakimiyyətini Azərbaycanın üzərinə yönəltmək və Perzident İlham Əliyevi gözdən salmaq cəhdini düşmənlərimizin mövqelərindən fərqləndirmək çətindir. Əksinə, bəzi rus, erməni və Avropa siyasətçiləri İlham Əliyevin peşəkarlığını və müstəqil siyasət aparmasını açıq etiraf edirlər.

Son vaxtlar mətbuatda yayılan məlumata görə, Amerikadakı yəhudi diasporu və nüfuzlu yəhudi iş adamları Amerika ilə Azərbaycanın münasibətlərinin yaxşılaşması və "907-ci düzəliş"in ləğvi üçün Tramp hakimiyyətinə təsir göstərməyə çalışırlar. Siz isə tam tərsinə, ABŞ-ın Azərbaycana təzyiqinin güclənməsinə cəhd edirsiniz. Onda deyə bilərsinizmi bizim gənc Azərbaycan dövlətinin dostu kimdir? Siz qanı-qanımızdan olan doğma qardaşımız, yoxsa yəhudilər?

Prezident Trampa yazırsınız: "Sayın başkanım, bu gün sizinlə Azərbaycan cümhuriyyəti haqqında danışmaq istəyirəm. Cümhur başqanı İlham Əliyevin kirəlik ajanları, İran türklərinin yaklaşık yüzdə iyirimisinin yaşadığı Güney Azərbaycanda da xaos və güvənsizlikdən başqa bir şey doğurmayacaq inanılmaz şərtlər yaratmışlardır. 1945-in sonlarında və 1946-da Stalinin ajanı olan Pişəvərinin yönləndirdiyi kommunistlərin, bu gün İranı bölmək və Azərbaycan Cümhuriyyətinə qatmaq amacıyla kullanılması, sadəcə bir aldatmaca və təbliğat olsa belə təhlükəli sonuc doğuracaqdır".

Mən sizin yazınızla bağlı "yalan və böhtanla dolu" dedikdə məhz bu cümləri nəzərdə tuturam. 1945-ci ildə Təbrizdə qurulmuş Milli Hökumətin lideri Seyid Cəfər Pişəvərini "Stalinin ajanı" saymaq o dövrün şərtlərindən bixəbərlikdir və bu hərəkatın qurbanları olmuş onminlərlə şəhidin, fədainin ruhuna hörmətsizlikdir. Pişəvərinin Kommunist hərəkatına bağlılığı onun Stalinin xəfiyyəsi olması demək deyil və bunu onların yazışmaları da göstərir. Pişəvəri yaranmış şəraitdən istifadə edib Güney Azərbaycana öncə muxtariyyət, sonra müstəqillik qazandırmaq istəyirdi.

1946-cı ildə Güney Azərbaycan milli hərəkatı Stalinin avantürası deyildi, Güney Azərbaycan xalqının qəhrəman mübarizəsinin nəticəsi idi, onun yıxılmasında və onminlərlə qardaş-bacımızın qətlində Stalin nə qədər günahkardısa, ABŞ-ın ovaxtkı hakimiyyəti də o qədər, bəlkə, daha artıq günahkardır. "Stalinin ajanı" dediyiniz Pişəvəri tariximizin Səttar xan və Şeyx Məhəmməd Xiyabani ilə bir sırada dayanan milli qəhrəmanı idi. Azərbaycan Demokrat Firqəsinin başçısını və Milli Hökumətin rəhbərini təhqir etmək haqqını sizə kim verib? Pişəvərinin milli azadlıq niyyətini gözündə qoyan Stalin həm də onun ölümünə fitva verdi. Məncə, siz bu tarixi məndən yaxşı bilirsiniz və ya bilməlisiniz.

Məktubunuzdan görünür ki, siz artıq İranın bütövlüyünün qorunması qayğısına qalırsınız. Olsun. İnsan öz seçimində sərbəstdir. Lakin sizin bugünkü mövqeyiniz Azərbaycanın milli ideallarına və Pişəvəri kimi bir Vətən fədaisinə ləkə yaxmaq haqqı vermir.

Lütfən izah edin, İlham Əliyevin komandası və ya sizin dediyiniz kimi, ajanları Güney Azərbaycanda hansı pozuculuq fəaliyyəti ilə məşğuldurlar?..

**Azərbaycanın Kommunist hərəkatı ilə çoxdan vidalaşdığını və kommunistlərin İranı bölmək və Azərbaycan Cümhuriyyətinə qatmaq "təhlükəsi" haqqında Əlirza Əfşarın dediklərinin heç bir əsası olmadığını qeyd edən Sabir Rüstəmxanlı bildirib:**

– Yəqin, bilirsən, mən Azərbaycan Respublikasında 1992-ci ildən bəri fəaliyyət göstərən bir müxalifət partiyasının başqanıyam. Yəni İlham Əliyevin komandasından deyiləm. Keçən 32 ildə iqtidarı həm Milli Məclisdə, həm də mətbuatda sərt, lakin milli ədəb-ərkan dairəsində tənqid edənlərdən, bununla belə vətəndaş həmrəyliyi ideyasından əl çəkməyən bir qələm əhliyəm, siyasətçiyəm və uzun müddət Milli Məclisin deputatı olmuşam.



Lakin İkinci Qarabağ savaşında bir çox müxalifət partiyası kimi, biz də iqtidarın yanında dayandıq, milli məsələlərdə, "ölkənin müdafiə işində ayrı-seçkilik yoxdur", – dedik. Şükür, Azərbaycan öz torpaqlarını azad etdi və haqlı olduğunu dünyaya çatdırdı. Bu, Rusiya, Ermənistan, İran və bir sıra başqa ölkələrin təzyiqi altında olan Azərbaycanın böyük qələbəsi idi. İndi də bir çox güclərin ermənipərəst siyasətlərinə baxmayaraq, Azərbaycan öz mövqeyini qorumağa və heç bir yerdən yardım almadan öz dağıdılmış yurdlarını bərpa etməkdədir. Qonşularla, o cümlədən İranla da dinc münasibətlərini inkişaf etdirməyə çalışır.



Belə bir durumda sizin İlham Əliyevi İranın iç siyasətinə qarışmaqda günahlandırmanız və bundan ABŞ Prezidentinə şikayətlənməniz gülüncdür.

**DAK sədri daha sonra soruşub ki, Azərbaycan Respublikasının üstünə bu şəkildə kin və nifrətlə hücum çəkən Əlirza bəy, görəsən, son 35 ildə ABŞ prezidentlərinə ermənilərin işğalçılığını, erməni terrorunu pisləyən hər hansı məktub yazıbmı, "erməni soyqırımı" iddialarının əsassızlığını, əsl soyqırımın azərbaycanlılara qarşı yapıldığını diqqətə çatdırmağa çalışıbmı? Yoxsa, o dünyanın bəzi liderləri kimi, kimin işğalçı, kimin əzabkeş olduğunu bilmir?**

– Azərbaycan türklərinin 30 illik işğala yenicə son qoyaraq düşmən münasibətləri məngənəsində boğulduğu bir vəziyyətdə gənc dövlətdən, dünya ağalığı iddiasında olan ABŞ prezidentinə şikayətin adı və məqsədi nədir? Yəni çətinliklə qurduğumuz və qoruduğumuz bu dövləti də itirək?

Bir daha deyirəm, niyyətim İlham Əliyev hakimiyyətini müdafiə etmək deyil. Amma həm də çox qətiyyətli bir şəkildə müdafiə etməkdir. Çünki bu dövlət mənimdir. Onun quruculuğunda öndə olan şəxslərdən biri olmuşam. Onu SSRİ-dən, Qorbaçov xəyanətkarlığından qurtardıq, ona görə yox ki, indi də Makronların siyasi basqıları altında yaşayaq.

Bizim gənc, müstəqil dövlətimiz müharibə alovlarının içində doğulub. 30 il ərazisinin yüzdə iyirmisi işğal altında olub. Bu illər ərzində Ermənistandan və Qarabağdan qovulmuş bir milyon insanı aclığın cəngindən xilas etmək qayğısına qalıb. Buna baxmayaraq, dünyanın böyük dövlətləri Ermənistana işğalçı deməyib; o vəziyyətdə də bizi günahlandırmağa çalışıblar. Bu cəhənnəm əzabının içində Azərbaycan xalqı və İlham Əliyev özündə güc tapıb, qəddini dikəldib ordu qurub, savaşda qalib gəlib və bu gün Ermənistanın cəhənnəmə çevirdiyi Qarabağı yalnız öz gücünə güvənərək, yenidən cənnətə çevirməklə məşğuldur. Təbii ki, belə bir durumda sizin arzuladığınız demokrtaik şərtlərin hamısını gözləmək mümkün deyil.

Çünki o şərtlərin bir çoxu demokratiya adı altında erməni işğalçı siyasətini uzatmağa və Azərbaycanı məğlubiyyətlə barışdırmağa çalışırdı. İlham Əliyev ölkə başçısı kimi bunun qarşısını aldı və bir çox kənar təzyiqləri baxmayaraq, 44 gün ərzində düşməni əzdi. Məncə, dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı bu reallığı görməli və dərk etməli, buna görə İlham Əliyevə Ali Baş Komandan kimi minnətdar olmalıdır.

Bəzi ermənipərəst Avropa liderləri bu gün Azərbaycanın başında İlham Əliyev kimi güclü bir siyasətçinin dayanmasını istəməzdilər. Buna görə də Azərbaycana təzyiq üçün gah demokratiya, gah seçki ədalətsizliyi, gah insan haqlarının pozulması kimi məsələləri ortaya atırlar. Ancaq siz elə bilirsiniz nöqsanlar tam ideal bir şəkildə aradan qalxsa Azərbaycana təzyiq azalacaq? İlham Əliyevin yerinə özlərinə sərf edən birisinin hakimiyyətə gəlməsini istəyərlər. Lakin bunu Azərbaycan xalqının mənafeyi naminə yox, Azərbaycanı öz istədikləri kimi idarə etmək üçün istəyirlər.

Bu baxımdan məktubunuzun müstəqil Azərbaycan Respublikasından şikayət ruhunu qəbuledilməz sayıram və bunu pisləyirəm. Biz ayrı-ayrı mühitlərdə tərbiyə alsaq da ikimiz də türkük. Azərbaycan türküyük. Bizim əxlaqımızda evin içindən qonşuya şikayət ənənəsi yoxdur.

Azərbaycan Şimal–Cənub, Şərq–Qərb yolunun üstündə böyük maraqların toqquşduğu Güney Qafqazda öz müstəqilliyini və siyasi müvazinətini qorumaq uğrunda mübarizə aparan, o qədər böyük olmayan, lakin Güney Qafqazın ən böyük və ən güclü ölkəsidir.

Siz cənab Trampa yazırsınız: "Çin Hürmüz boğazı, Süveyş kanalı, Panama kanalı və Malakka boğazında nüfuz sahələri oluşdururkən indi də Əliyevin yolsuzluq tutqusu və iqtidar hissindən yararlanaraq səssiz, amma etkili bir şəkildə Qafqaziya və Qara dənizə doğru irəliləməkdədir. Ancaq Xəzər və Qara dənizdə Çinin varlığı böyük bir fəlakət olacaqdır". Yəni ABŞ-a müraciətlə, İlham Əliyev hakimiyyəti Çinin Xəzərə, Qara dənizə çıxmasına şərait yaradır, amandır, buna imkan verməyin deyirsiniz!

Məncə, özünüz də yaxşı bilirsiniz ki, bu sözlərinizin heç bir əsası yoxdur. Əliyevin niyyəti bu deyil. Onun niyyəti Azərbaycanın böyük ərazisi ilə kiçik ərazisi olan Naxçıvan ararsında 40 kilometrlik Zəngəzur dəhlizini açmaqdır. Bundan Azərbaycan, Türk dünyası və Avropa ilə birlikdə Çin də faydalana bilər.

Siz Azərbaycanın milli marağı ilə Çinin dünya siyasətini qarışdırırsınız və məktubunuzda Çini bu məsələyə qoşmaqla Azərbaycan üçün həyati əhəmiyyəti olan bu dəhlizin açılmasına, bizim milli maraqlarımıza, Türk dünyasının yerüstü əlaqə imkanlarının genişlənməsinə qarşı çıxırsınız… Buna nə ad verək? Azərbaycanda gedən proseslərdən, görülən işlərdən xəbərsizlik, yoxsa milli xəyanət, satqınlıq?

**Sonda ATƏT-in Minsk qrupunun Qarabağ problemini həll edə bilmədiyini, əksinə, düşmənçiliyi dərinləşdirdiyini, Azərbaycanı məğlubiyyətlə barışmağa sövq etdiyini xatırladan Sabir Rüstəmxanlı qətiyyətlə deyib:**

– Biz Qərb dövlətlərinin demokratiya sözü altında bizim hüquqlarımızı görməzdən gəlməsini dəfələrlə müşahidə etmişik. Biz ölkə olaraq öz gücümüzə güvənirik və demokratiya, seçki, yolsuzluq, insan haqları ilə bağlı nə problemimiz varsa özümüz həll edəcəyik. Çevrəmizdə düşmənlər az deyil, başqasını da dəvət etməyə çalışmayın və özünüzü də düşmənə çevrilməyin...

*Çapa hazırladı:*
*XQ-nin analitik qrupu*

Replika

# Həddini aşanların acı aqibəti

**Ən qədim peşələrdən hesab olunan xəbərçiliyin zaman keçdikcə özünün ilkin missiyasından uzaqlaşdığı danılmaz həqiqətdir. Cəmiyyətin informasiya tələbatını ödəmək vəzifəsinə ictimai rəylə manipulyasiya etmək taktikası ilə sırınan müasir kütləvi informasiya vasitələrinin boynuna daha "strateji" məşğuliyyətin qoyulması da günümüzün reallığıdır. "Böyük güclərin" çətiri altında fəaliyyət göstərən media-maqnatların yayımlandığı, müxbir məntəqələri açdıqları coğrafiyada fərqli işlərə baş vurmaları, xüsusi idarələrin tapşırıqlarını yerinə yetirmələri, həddini aşaraq, ayrı-ayrı ölkələrdə yerli hakimiyyətləri dəyişdirmək kimi siyasi təxribatlara baş vurmaları ilə artıq heç kəsi təəccübləndirmək mümkün deyil.**

Dediklərimizin "parlaq" nümunəsi göz qabağındadır. Söhbət USAID beynəlxalq yardım agentliyindən, "Amerikanın səsi", "Azadlıq" radiolarından gedir. Xəbərçilikdən çox uzaq əməlləri ifşa edilərək fəaliyyətlərinə xitam verilmiş bu qurumların on illərlə davam edən zərərli texnologiyaların altını Azərbaycan da çəkməkdədir.

Bu media qurumları yayıma başladıqları dövrdən ərazilərində lövbər saldıqları dövlətlərə qarşı siyasi təzyiq aləti kimi istifadə olunub. Onlar, bir qayda olaraq, yerli hakimiyyətə müxalif qüvvələrin dəstəklənməsi və seçilmiş iqtidara qarşı təzyiqlərin artırılması istiqamətində səy göstəriblər. Azərbaycanda fəaliyyət göstərdiyi müddət ərzində bu yardım və media qurumlarının dövlətçiliyimizə və xalqımıza qarşı müxtəlif layihələr adı altında kampaniyalar keçirdiklərinin şahidi olduq. Bundan vaxtında duyuq düşən, onların respublikamızda sərbəst yayım, informasiya siyasətinin altından görünən məkrli niyyətlərinin nəticələrini görən hökumət bununla bağlı lazımi addımları atmalı oldu. Vəziyyət o dərəcədə dözülməz həddə çatmışdı ki, belə bir addımı həmin "zəhər" tribunalarını maliyyələşdirən ABŞ-ın özü atmağa məcbur oldu. Beləliklə, Ağ evin yeni administrasiyası USAID beynəlxalq yardım agentliyinin, "Amerikanın səsi", "Azadlıq" radiolarının fəaliyyətlərinin dayandırılmasına qərar verdi.




Bundan sonra məlum oldu ki, məlum radiostansiyaların xəbərçilikdən kənar "layihələri" təkcə Azərbaycanda deyil, onların yayım orbitindəki ölkələrdə haqlı narazılıqlara səbəb olurmuş. Bunun isə obyektiv və subyektiv, görünən və görünməyən tərəfləri var.

USAID agentliyi, "Amerikanın səsi", "Azadlıq" radiosu söz azadlığının, insan hüquqlarının müdafiəsi ilə məşğul olduqlarını iddia etsələr də, reallıqda Azərbaycanda bəzi xarici dövlətlərin maraqlarını təmin etməyə çalışırdılar. Onlar cəmiyyətdə gərginlik yaratmaqla dolayısı ilə deyil, birbaşa Ermənistanın mövqeyinə dəstək verirdilər. Necə deyərlər, separatçılığın müasir formasını fəaliyyət prinsipi kimi qəbul etmişdilər. İndi acı aqibətlərini yaşayan bu qurumların əlindən zinhara gəlmiş ölkələrin başağrıları xeyli səngiyib...

**İ.HƏSƏNQALA**
**XQ**

# Azərbaycan Almaniyanın Cənubi Qafqazda önəmli tərəfdaşıdır

*“Qoca qitə”nin iqtisadi liderinin “Odlar yurdu”nda 230-dan çox şirkəti çalışır*

**Almaniya Azərbaycanın Avropada mühüm əhəmiyyət daşıyan fəal siyasi-iqtisadi tərəfdaşlarından biridir. Respublikamız bu ölkə ilə əlaqələrin inkişafına daim önəm verir. Xatırladaq ki, Almaniya Azərbaycanı Cənubi Qafqazda vacib tərəfdaş kimi qəbul edir. Bu ölkə respublikamızın regionda lider mövqeyini, eyni zamanda, beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyini və ərazi bütövlüyünü tam dəstəkləyir. Eləcə də bu ölkə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolunu təqdir edir.**

Avropa İttifaqının (Aİ) aparıcı ölkələrindən olan Almaniya 3,85 trilyon dollar ÜDM ilə dünyada 4-cü, “Köhnə qitə”də isə ən böyük iqtisadi gücdür. Son illərdə Azərbaycanın belə bir potensiala malik dövlətlə iqtisadi əlaqələrində artım dinamikası nəzərə çarpır. Azərbaycanda hazırda qeydiyyatdan keçən 230-dan çox alman şirkəti var. Energetika, sənaye, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya, tikinti, bank işi, sığorta, ticarət və servis kimi sahələrdə fəaliyyət göstərən həmin qurumların, təqribən, 170-i Azərbaycan–Almaniya Ticarət Palatasının üzvüdür.

İki ölkə arasında enerji sahəsində də əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Azərbaycanın Dövlət Neft Şirkəti ilə Almaniyanın “Uniper” müəssisəsi 2013-cü ildə birgə uzunmüddətli qaz tədarükü haqqında müqavilə imzalayıb. 2020-ci il dekabrın 31-dən isə Cənub Qaz Dəhlizi Azərbaycan təbii qazını İtaliyadakı qəbul nöqtəsi vasitəsilə Aİ bazarına çatdırır. “Uniper” Avropa bazarında təbii qazın əsas alıcılarından biridir. Bu, şirkətin ən uzunmüddətli (2020-2045) qaz alışı layihəsidir.

Onu da qeyd edək ki, SOCAR və “Uniper” şirkətləri tərəfindən 2016-cı ildə Azərbaycanda enerji səmərəliliyi layihələrini inkişaf etdirmək üçün birgə müəssisə – (SOCAR (51 faiz), “Uniper” (49 faiz)) yaradılıb. Birinci layihə Sumqayıtda “Azərkimya”nın uyğun müəssisəsində buxar və enerji istehsalı kompleksinin təkmilləşdirilməsi və istismarı olub.

Ölkəmizdəki alman şirkətləri tərəfindən bərpaolunan enerjinin inkişafı layihələrinə də maraq göstərilir. Bu ölkənin “Berlin Wind” şirkəti tərəfindən Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-lıq “Yeni Yaşma” Külək Elektrik Parkında yenidənqurma işlərinin aparılması və 2018-ci il oktyabrın 11-də parkın istismara verilməsi də məhz bunun əyani nümunəsidir.



Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin aprelin 1-də Azərbaycan Respublikasına rəsmi səfəri iki ölkənin etibarlı tərəfdaşlığının hərtərəfli və yüksələn xətlə inkişafının əyani göstəricisidir. Bu səfərin bütün sahələr üzrə əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılmasına önəmli təkan verəcəyi, gələcək inkişaf üçün böyük perspektivlər açacağı da şübhəsizdir.

Dövlətimizin başçısı İlham Əliyev Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin respublikamıza səfəri zamanı mətbuata bəyanatında səsləndirdiyi bir fikir də – Mən tam əminəm ki, bu səfər bizim əlaqələrimizə yeni müsbət təkan verəcək– bunun bariz ifadəsidir. Azərbaycan lideri bəyanatında daha sonra qeyd edib: “İqtisadi sahədə əldə edilmiş nəticələr bizi təbii olaraq ruhlandırır. Çünki bu ilin yanvar – fevral aylarında bizim ticarət dövriyyəmiz, təxminən, 3 dəfə artıb. Bunun əsas səbəbi Azərbaycandan Almaniyaya ixrac edilən xam neftin həcminin artması olmuşdur. Ona görə biz hesab edirik ki, gələcək illərdə öz ticarət dövriyyəmizin şaxələndirilməsi, xüsusilə bərpaolunan enerji sahəsi ilə bağlı daha fəal addımlar atmalıyıq”.

Prezident İlham Əliyev daha sonra bərpaolunan enerji sahəsində Almaniya şirkətlərinin, eləcə də Azərbaycanın çox böyük təcrübəsi, proqramı və planları olduğunu söyləyib. “Biz xarici investorların sərmayəsi hesabına 2030-cu ilə qədər bərpaolunan enerji növlərinin istehsal gücünü 6 gigavata çatdırmaq fikrindəyik və bu, tam realdır. Bunun bir hissəsi Avropaya ixrac ediləcək”, – deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident İlham Əliyev bəyanatında ötən il respublikamızda uğurla keçirilən beynəlxalq iqlim konfransı barədə fikirlərini də diqqətə çatdıraraq Azərbaycanın bu istiqamət üzrə də Almaniya ilə çox fəal əməkdaşlığı olduğunu vurğulayıb: “COP29-da 197 ölkəni təmsil edən 77 mindən çox iştirakçı qeydiyyatdan keçmişdir və bu konfrans böyük, uğurlu nəticələrlə zəngin idi. İştirak etməyən yeganə ölkə Ermənistan olmuşdur. Bu da təbii olaraq təəssüf hissi doğurur. Çünki xüsusilə indiki şəraitdə – Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin uğurla getdiyi bir zamanda Ermənistan tərəfindən bu beynəlxalq konfransı boykot etməsi başadüşülən deyildi. Bu gün bu məsələ də müzakirə olundu və Azərbaycanın mövqeyi Almaniya tərəfinə çatdırılmışdır”.

Azərbaycan müstəqilliyə qovuşduğu illər ərzində bir sıra sahələrdə əldə etdiyi yüksək göstəricilər, o cümlədən enerji sektorunun davamlı inkişafı sayəsində sürətli iqtisadi artıma nail olub. Hazırda isə iqtisadiyyatın daha çox şaxələndirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Qısa zaman ərzində həmin məqsədlə bağlı müsbət nəticələr əldə olunub. ÜDM-in tərkibinin əksər hissəsi qeyri-enerji sektorunun payı hesabına formalaşıb.

Yeri gəlmişkən, ölkəmizin enerji strategiyası barədə münasibət bildirən dövlətimizin başçısı daim çıxışlarında Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rola toxunaraq respublikamızın dost dövlətlərin neft, neft-kimya məhsulları ilə təchizatını diqqətdə saxladığını bildirib, eləcə də bəzi ölkələrə elektrik enerjisi və təbii qazın ötürülməsinə uğurla başladığını qeyd edib.

Hazırda Avropada yeni mənbələrdən təbii qaza olan tələbatın artması ilə əlaqədar Azərbaycanda kəmər imkanlarının genişləndirilməsi nəzərdə tutulur. Bu fikri konkretləşdirib deyə bilərik ki, ölkəmiz tərəfindən 16 milyard kubmetr tutumu olan TANAP-ın 32 milyard kubmetrədək, 10 milyard kubmetr tutuma malik TAP-ın isə 20 milyard kubmetrədək genişləndirilməsi planlaşdırılıb. Bu isə Avropada Azərbaycanın “mavi yanacağ”a olan tələbatının yüksəlməsi, Rusiya–Ukrayna müharibəsi başlayandan sonra respublikamızda mövcud qaz təchizatının artırılması məqsədi daşıyan 10-dan çox müraciət ünvanlanması ilə əlaqələndirilib. Bir sözlə, 3500 kilometr uzunluğu olan, 3 kəmər sistemini birləşdirən, 2021-ci il yanvarın 1-də isə istismara verilən kəmərin genişləndirilməsinə prioritet istiqamətlərdən biri olaraq yanaşılması Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolun bariz ifadəsi kimi dəyərləndirilir.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayer isə mətbuata bəyanatında Azərbaycanın dünyanın əsas ticarət yollarının birləşdiyi məkana çevrildiyindən şad olduğunu bildirərək qeyd edib: “Biz hər ikimiz təkcə Mərkəzi Asiya ilə deyil, həmçinin Uzaq Şərq, Cənub-Qərbi Asiya, eləcə də Çin ilə iqtisadi və ticarət əlaqələrində maraqlıyıq. Eyni zamanda, hazırda mövcud nəqliyyat marşrutlarının nə dərəcədə məhdud olduğunu və onların hansı imkanlarla işlədiyini də yaxşı bilirik. Bu baxımdan Orta Dəhliz Almaniya iqtisadiyyatı üçün də maraqlı perspektivdir. Cənubi Qafqaz son dövrlərdə olduğu kimi, siyasi baxımdan daha sabit inkişaf etdikcə, bu perspektiv daha da cəlbedici olacaqdır”.

Belə bir məqamı da qeyd edək ki, Azərbaycanın Xəzər dənizində ən böyük ticarət donanması, 50-dən çox gəmisi var. Bakı gəmiqayırma zavodu isə ildə 6 gəmi istehsal etmək gücündədir və bu cür şəraitdə artan neft həcmləri, o cümlədən Mərkəzi Asiya, həmçinin Çindən gözlənilən quru yük daşımaları üçün kifayət etmir. Çin, Qırğızıstan və Özbəkistan ərazisindən Xəzər dənizinə qədər dəmir yolunun tikintisi layihəsi də yekunlaşandan sonra vəziyyət bir qədər də ağırlaşacaq. Başqa sözlə, Azərbaycan ərazisindən potensial daşıma həcmləri ciddi artacaq.

Ona görə də hazırda bu şərait ölkəmizi ciddi düşündürür və Azərbaycan mövcud sahəyə investisiya yatırmaqla perspektivdə yükdaşımalarda üzləşilə biləcək problemlərin aradan qaldırılmasını diqqətdə saxlayır.

***“XQ”nin analitik qrupu***

# Bakıdan dünyaya ismarıc, İrəvana isə xəbərdarlıq

*Sülh sazişinin imzalanması Azərbaycanın legitim şərtlərinin qəbul edilməsindən keçir*

**(əvvəli 1-ci səhifədə)**

Son beş ildə Ermənistan isteblişmentinin riyakarlıq maskasının altında daha hansı sifətləri görmədik? Obyektivlikdən və səmimiyyətdən uzaq, özünü saldığı avantürizm burulğanında çapalayan, hadisələrin dialektik səbəb-nəticə əlaqələrini itirmiş bir toplumla üz-üzəyik. 30 ilin təcrübəsi həm də onu göstərdi ki, bu qövmün anladığı yalnız bir dil var. O da gücün dilidir. Amma ərazi bütövlüyünü, suverenliyini bərpa etmiş Azərbaycan gücün deyil, ədalətli sülhün tərəfdarıdır.

*

Yaqin Bakıya ilk səfərini İrəvanın üzərindən salmış Almaniya Prezidenti Frank-Valter Ştaynmayerdə burada eşitdiklərindən ermənilər barədə yeni qənaətlər yaranacaq. Həmkarını Azərbaycan–Ermənistan sülh prosesi ilə bağlı kifayət qədər məlumatlandırdığını bildirən Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycanın və şəxsən özünün sülh danışıqlarının başlanmasının təşəbbüskarı olduğunu V.Ştaynmayerin nəzərinə çatdırdığını vurğuladı. “O vaxt nə Ermənistan, nə də ki, o vaxt hələ fəaliyyət göstərən ATƏT-in Minsk qrupu belə bir təklif irəli sürmüşdü. Bu təklifi Azərbaycan tərəfi vermişdir. Bu, özlüyündə onu göstərir ki, biz sülh müqaviləsinin bağlanmasında nə qədər maraqlıyıq”, – deyən Azərbaycan Prezidenti almaniyalı həmkarına 2024-cü ilin yanvarına qədər Ermənistanın təkidlə sülh müqaviləsinə salmaq istədiyi “Dağlıq Qarabağ respublikasının” yoxluğundan, bunun ancaq Ermənistanın xülyalarında mövcud olmasından, indi sadəcə, Azərbaycanın Qarabağ iqtisadi bölgəsinin varlığından danışdı.

Mətbuat üçün açılqamasında daha sonra Ermənistanla sülh müqaviləsinin imzalanması üçün Bakının şərtlərindən danışan dövlət başçımız bu günə qədər 17 paraqrafdan ibarət sülh müqaviləsinin mətninin tam razılaşdırıldığını xatırladı: “Azərbaycan burada hər hansı bir əlavə şərt irəli sürmür. Bizim şərtlərimiz Ermənistan üçün bəllidir, yenilik deyil. Bu şərtləri uzun müddət ərzində irəli sürürük. Ancaq Ermənistandan bu günə qədər hər hansı bir ciddi cavab almamışıq. Həmin şərtlər nədən ibarətdir? Birinci, ATƏT-in Minsk qrupu ləğv edilməlidir”.

İkinci məsələnin Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının öz əksini tapdığı müddəalarla bağlı olduğunu nəzərə çatdıran Prezident İlham Əliyev konstitusiyada Ermənistanın müstəqillik aktına istinada toxunub: “O istinad konstitusiyanın tərkib hissəsidir. Orada Azərbaycanın hüquqi, tarixi ərazisinin Ermənistanla birləşdirilməsi haqqında müddəa var. Bu, bizə qarşı açıq ərazi iddiası sayılır. Ona görə Ermənistan konstitusiyasından bu bəndin çıxarılması bizim legitim tələbimizdir. Bu iki şərt təmin olunandan sonra sülh müqaviləsini imzalamaq üçün heç bir manеə olmayacaq. Necə deyərlər, top Ermənistanın tərəfindədir. Əgər Ermənistan, doğrudan da, sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın bu iki legitim şərtini qəbul etməlidir”.



Azərbaycana, ümumiyyətlə, Qafqaza ilk dəfə səfər edən Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin iki ölkə arasında sülhü müşayiət edən bu incəliklərdən nə dərəcədə məlumatlı olduğunu deyə bilmərik, amma Azərbaycan liderinin beynəlxalq hüquqa, tarixi ədalətə və siyasi məntiqə söykənən əsaslandırmaları ilə razılaşdığına şübhə etməyə bilərik.

*

Jurnalistlər qarşısında çıxış edən Almaniya Prezidenti Ermənistan ilə Azərbaycan arasında sülh prosesinin çox böyük əhəmiyyəti olduğunu bildirdi. Son bir il ərzində bu istiqamətdə atılan uğurlu addımlar və əldə olunan müsbət irəliləyişlər münasibətilə dövlətimizin başçısını təbrik edən Frank-Valter Ştaynmayer bunları dedi: “Razılaşmanın əldə olunması ilə bağlı həlledici an yetişib. Ümid edirəm ki, bu andan istifadə olunaraq sülh müqaviləsi imzalanacaq və sizin regionda həqiqi və davamlı sülh yaranacaq. Mən buna çox böyük ümidlər bəsləyirəm”.

Almaniya Prezidenti mətbuat konfransında, həmçinin ölkəsinin bu prosesə lazımi dəstəyi verməyə hazır olduğunu bildirib. Onun bu fikirlərini isə münaqişənin mahiyyətindən, onun tarixi köklərindən və mövcud reallıqdan xəbərdar olmasının göstəricisi kimi qəbul edə bilərik: “Qarabağ Azərbaycandır. Bu, rəsmi Berlinin birbaşa və aydın mövqeyidir. Biz həmişə demişik ki, Qarabağ Azərbaycan ərazisidir və bu gün Almaniyanın bu mövqeyini təsdiqləyirik”. F.Ştaynmayer bu təsdiq və etirafı jurnalistin 30 il ərzində Azərbaycan ərazilərini işğal etməsinə görə Ermənistana qarşı niyə heç bir tədbir görülmədiyinə dair sualına cavab verərkən bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin bu dəfə Bakıdan dünyaya ünvanladığı mesajlar xaricdəki haypərəst qüvvələri düşünməyə vadar etməli, İrəvanı isə son şansından düzgün yararlanmağa yönəltməlidir. Ermənistan hakimiyyəti həm də hamıya məlum həqiqətləri təhrif etmək mərhələsinin arxada qaldığı məntiqi ilə barışmalıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi

**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin rəhbəri, politoloq:**



– Prezident İlham Əliyev almaniyalı həmkarı ilə birgə mətbuat konfransında Azərbaycanın sülh müqaviləsinə şərtlərini qeyd etməklə yanaşı, onu da bildirdi ki, Ermənistan rəhbərliyi bu barədə xəbərdardır. Yəni Bakı bu şərtləri aylarla deyil, illərlə təkrar edir. Bəli, artıq sülh sazişinin mətnini hər iki tərəf razılaşdırıb. Deməli, bunu sülh prosesində irəli atılan addım kimi qəbul edə bilərik. Bakının şərtləri hamıya məlumdur. Bunlardan biri ATƏT-in Minsk qrupunun buraxılması təklifidir. Bəzi dairələr bu təklifi simvolik addım, hətta texniki məsələ kimi qiymətləndirirlər. Amma heç də elə deyil. Almaniya Prezidentinin rəsmi saytında keçmiş separatçı rejimin bayrağının sərgilənməsi, dövlət telekanalında erməniperəst filmin nümayişi, Avropanın bir sıra ölkələrinin parlamentlərində birtərəfli, erməniperəst bəyanatların səslənməsi, qətnamələrin qəbul edilməsi, hansısa dinləmələrin keçirilməsi Azərbaycanın Minsk qrupunun buraxılması ilə bağlı təklifinin heç də simvolik və texniki xarakter daşımadığını bir daha nümayiş etdirir. Bu, çox ciddi prosesdir. Çünki ATƏT-də keçirləcək səsvermədə üzv dövlətlər öz mövqelərini ortaya qoymalıdırlar. Bu qurumda isə konsensus qaydası mövcuddur və bir ölkənin etirazı qərarın qəbul edilməməsi deməkdir. 1996-cı ildə Lissabon Sammitində bunun şahidi olmuşuq. Hətta Ermənistan məhz qərarın lehinə səs versə belə, erməni diasporunun təsiri altında olan başqa ölkələr veto hüququndan yararlana bilərlər. Bakı buna görə Minsk qrupunun məhz sülh sazişinə qədər buraxılmasında israrlıdır. İkinci şərt konstitusiyadan məlum müddəaların çıxarılmasıdır. Bu isə Ermənistanın daxili işidir və bunu icra etməlidir.

## Ekspert rəyi

**Elxan ŞAHİNOĞLU,**
**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı:**



– Azərbaycan və Ermənistan arasında sülh sazişinin bütün bəndlərinin razılaşdırılması o demək deyil ki, müqavilə qısa müddətdə imzalana bilər. Çünki Azərbaycanın sülh sazişində yer almayan əlavə iki tələbi vardır ki, onlar mütləq yerinə yetirilməlidir. Birincisi, ATƏT-in Minsk qrupunun birgə müraciətlə ləğvi, ikincisi isə Ermənistan konstitusiyasında zəruri dəyişikliklərin edilməsidir. İlk baxışda Nikol Paşinyanın bu iki tələbin yerinə yetirilməsinə müsbət yanaşdığı hiss olunur. Onun sülh sazişi imzalanandan sonra Minsk qrupunun xidmətindən imtina edə biləcəyi barədə açıqlamaları var. Konstitusiyada dəyişikliklərə gəldikdə isə Ermənistan baş naziri bunu iki il ərzində həyata keçirəcəyini bildirib. Ona eyham vurur ki, Müstəqillik bəyannaməsinin preambula hissəsindən Bakının dediyi müddəa çıxarılacaq.

Bu gün Azərbaycana Ermənistan hakimiyyətinin proqnoz və ehtimalları deyil, real addımları lazımdır. Bəlkə Paşinyan qarşıdakı iki ildə hakimiyyətdə qalmayacaq, onu devirəcəklər. Bəs, əgər Paşinyan gələn ilki parlament seçkilərində məğlub olarsa, onun yerinə gələnin bu şərtləri yerinə yetirəcəyinə təminat varmı? Cavab havadan asılı vəziyyətdədir. Cənab Prezidentin dediyi kimi, əgər İrəvan tez bir zamanda sülh sazişini imzalamaq istəyirsə, bu iki real addımı atmalıdır. Ondan sonra sülh sazişinin imzalanması asanlaşacaq. Yəni ortada başqa bir maneə qalmayacaq. Bakı sülhü İrəvandan da çox istəyir. Amma bu iki məsələnin həlli uzanacaqsa, əlbəttə ki, sülh sazişinin imzalanması da problem olaraq qalacaq.

**Müzəffər Ordumuzun 2020-ci ilin payızında qazandığı şanlı Zəfər həm siyasi tariximizin, həm də hərbi salnaməmizin son bir neçə əsrdəki ən möhtəşəm uğurudur. Ancaq o da faktdır ki, biz həmin mühüm tarixi nailiyyətə imza atanadək ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü ildə Horadiz əməliyyatında da heç kəsin gözləmədiyi nəticələr əldə etmişdik. Düşmən məhz həmin əməliyyatdan sonra – mayın 12-də atəşkəs müqaviləsinin imzalanmasına razı olmuşdu.**

*Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir–dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının*
*Prezidenti*



# Aprel döyüşləri – Qarabağ Zəfərinin müjdəçisi

2016-cı ilin aprelində Prezident İlham Əliyev də işğalçı Ermənistana və onların havadarlarına göz dağı çəkmişdi. İndi Nikol Paşinyanı 2020-ci il məğlubiyyətində ittiham edən Serj Sarkisyan öz prezidentliyi dövründəki Aprel məğlubiyyəti zamanı sadəcə mat qalmışdı. Çünki havadarları ona deyirdilər ki, biz səninləyik və Ermənistan heç zaman Azərbaycan Ordusuna məğlub olmayacaq. Prezident İlham Əliyev və Azərbaycan Ordusu 2016-cı ilin aprelində sübut etdi ki, heç bir himayədar Ermənistanı məğlubiyyətdən sığortalamaq iqtidarında deyil.

Bu gün Aprel döyüşləri barədə söz açarkən xüsusilə vurğulamalı olduğumuz faktlardan biri də ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ölkədə siyasi hakimiyyətə qayıtdıqdan sonra yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək, vahid komandanlıq sistemində təşkil olunan nizami ordu yaratmasıdır. Məhz həmin nizami ordu Ermənistan rəhbərliyinin Azərbaycanın dinc sakinlərinə qarşı törətdiyi təxribatları qətiyyətlə cavablandırılmışdı. İşğalçılar 2016-cı il aprelin 1-dən etibarən müxtəlif ölçülü minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan atəş açmaqla, cəbhə xəttinin müxtəlif istiqamətlərindən yaşayış məntəqələrimizi, infrastruktur obyektlərimizi hədəf seçmiş, dinc əhaliyə ciddi ziyan vurmuşdular. Bu zaman təxribat nəticəsində xeyli sayda dinc sakin həlak olmuş və yaralanmışdır.



Maddi-texniki bazası təkmilləşdirilmiş, arsenalı müasirləşdirilmiş, şəxsi heyətinin peşəkarlığı artırılmış, əsgər və zabitlərin vətənpərvərlik ruhu heç zaman olmayan bir səviyyəyə qaldırılmış Azərbaycan Ordusu quduz düşmənin təxribatlarına qarşı uğurlu əks-hücum əməliyyatı keçirmiş, işğalçılara sarsıdıcı zərbələr endirməklə, minlərlə hektar ərazilərimizi nəzarət altına almış və adını şanlı hərb tariximizə qızıl hərflərlə yazdırmağa müvəffəq olmuşdu. Bu zaman xüsusilə qeyd edək ki, həmin təxribatlar nəticəsində cəbhəyanı zonaya yaxın mülki əhalinin yığcam yaşadığı bir sıra məntəqələr, məcburi köçkün qəsəbələri də düşmən atəşinə məruz qalmışdı. Artilleriya atəşləri nəticəsində 2 sakin həlak olmuş, 10 nəfər yaralanmış, müxtəlif yaşayış məntəqələrində 10-dan çox ev dağıdılmış, əhalinin şəxsi təsərrüfatına və əmlakına xeyli ziyan dəymişdi. İşğal altında olan Dağlıq Qarabağda və digər ərazilərdə yerləşən Ermənistan hərbi birləşmələrinin fəallığını genişləndirməyə imkan verməmək, onun fəaliyyətinin qarşısını almaq və mülki əhalini müdafiə etmək məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən dərhal cavab tədbirlərinin görülməsi üçün qərar verilmişdi.

Aprel döyüşlərində iştirak etmiş əsgər və zabitlərimiz sonralar danışırdılar ki, cəbhənin ən gərgin xətti olan Ağdərə – Tərtər – Ağdam və Xocavənd – Füzuli istiqamətlərində yerləşən hərbi birliklər qısa müddətdə Ermənistan silahlı bölmələrinə qarşı layiqli cavab tədbirləri görmüş və qısa müddətdə erməni birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti yarılmış, strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələri tam azad olunmuşdu.



O zaman ekspertlər yazırdılar ki, münaqişənin ədalətli həllinə mane olan rəsmi İrəvana beynəlxalq təzyiq gücləndikcə, onlar bu cür təxribatlara əl atırlar. Bildirilir ki, 2014-cü ilin noyabr ayında da buna oxşar hadisə baş vermişdi. O vaxt da Azərbaycan Ordusu onlara tutarlı cavab vermişdi. Ancaq düşmənin Aprel təxribatı daha da genişmiqyaslı idi. Azərbaycan Ordusu öz doğma torpaqlarını müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirmiş və düşmənə sarsıdıcı zərbələr endirmişdi. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayraqları dalğalanır. Bu döyüşlər xalqın və dövlətin heç vaxt işğalla barışmayacağını göstərmişdir və öz ərazi bütövlüyümüzü nəyin bahasına olursa-olsun bərpa edəcəyik.



Təbii ki, Aprel döyüşləri barədə danışarkən ən tez yada düşən toponimlər "Lələtəpə"yüksəkliyi və Cocuq Mərcanı kəndidir. Müdafiə Nazirliyinin hesabatlarında oxuyuruq ki, Azərbaycan Ordusunun Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də Seysulan məntəqəsini azad etməsi, Füzuli rayonu istiqamətində yerləşən "Lələtəpə" yüksəkliyinə nəzarəti ələ keçirməsi böyük strateji qələbə kimi qiymətləndirilir. Çünki, "Lələtəpə" yüksəkliyinin düşməndən alınmasından sonra ordumuz yaxın əraziləri, Arazboyu cənub bölgəsini nəzarət altına götürmüş oldu. Mütəxəssislərin fikrincə, ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq, strateji mövqelərə sahib olmuşdu. Nəticədə, təmas xətti dəyişdirilmiş, Azərbaycan Ordusu tam üstünlüyü özündə saxlamaq imkanı qazanmışdır.

Rəsmi materiallarda oxuyuruq ki, Aprel döyüşləri nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində 23 il əvvəlki təhlükəsiz yaşayışa imkan yaratdı. Cocuq Mərcanlı kəndinin bərpasına başlanılması Ermənistanda çox ciddi müzakirə mövzusuna çevrilmişdir. Ermənilər o günlərdə Cocuq Mərcanlıda başlanmış bərpa işlərini geniş müzakirə edərək prezident Serj Sarkisyanı Aprel döyüşləri barədə xalqa yalan məlumat verməkdə ittiham edirdilər. Ermənistan mətbuatı və sosial şəbəkə istifadəçiləri Azərbaycan Silahlı Qüvvələrinin növbəti hədəflərinin Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın, Şuşa, Xankəndi olacağını yazır, Azərbaycan əsgərinin tezliklə bu ərazilərə qayıdacağını vurğulayırdılar. İnsafən, yanılmadılar.

Sonda xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci il iyulun 6-da – yəni erməni miflərinin darmadağın edilməsi, statusun gorbagor olması, böyük Ermənistan əfsanəsinin tarixin zibilliyinə atılması ilə nəticələnən İkinci Qarabağ müharibəsindən təxminən iki ay yarım əvvəl – Bakıda yerli televiziyalara verdiyi müsahibədə xəbərdarlıq etmişdi ki, heç kəs Aprel döyüşlərini unutmasın. Prezident israrla bildirirdi ki, bilavasitə münaqişənin həll edilməsi üçün yaradılmış Minsk qrupunun fəaliyyəti bu şəkildə davam edərsə, onda bu mənasız danışıqların aparılmasına heç bir ehtiyac qalmayacaq: "Biz haqlı olmağımızı həm beynəlxalq arenalarda göstərmişik, həm də döyüş meydanında və heç kimin Aprel döyüşləri yadından çıxmasın".

Təəssüf ki, Aprel məğlubiyyəti ermənilərin "yadından çıxdı" və həmin "yaddaşsızlığın" fəsadı onlar üçün çox ağır oldu. Rəsmi İrəvan həmin səhvin ağrılarını hələ yüz illər boyu yaşayacaq.

***İttifaq QAÇAYEV***

# Lələtəpə qəhrəmanının Qubadlıda şanlı yürüşü

**Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev düz 9 il öncə baş vermiş tarixi Aprel döyüşlərini son dərəcə dəqiq xarakterizə edib: "Aprel döyüşləri Azərbaycanın şanlı hərbi qələbəsidir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".**



Qarabağda Ermənistan ordusunun növbəti təxribatının nəticəsi olaraq başlanmış və 4 gün davam etmiş həmin döyüşlərin ən parlaq simalarından biri elə həmin ayın 1-də doğum günü qeyd edilən əfsanəvi komandir Şükür Həmidovdur.

Qəhrəmanımız 1975-ci ildə Qubadlı rayonunun Armudlu kəndində dünyaya göz açıb. Kənddə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olub. Ardınca isə Bakı Birləşmiş Ali Hərbi Komandirlər Məktəbinə qəbul edilib. Hələ təhsilini hərbi liseydə davam etdirən zaman könüllü olaraq döyüşlərə qatılmaq arzusunda olduğunu bildirib. Motoatıcı ixtisasına yiyələnən Şükür Həmidov 1995-ci ilin iyun ayında ilk zabit ulduzlarını – leytenant rütbəsini alaraq Naxçıvan Muxtar Respublikasında taqım komandiri kimi xidmətə başlayıb. Orada mayor rütbəsinə qədər yüksəlib. 2006-cı ildə Silahlı Qüvvələrin Hərbi Akademiyasına daxil olub. 2008-ci ildə akademiyanı bitirincə isə cəbhə bölgəsində yerləşən hərbi hissələrin birində bölmə komandiri kimi xidmətini davam etdirib. Sonra müxtəlif vəzifələrdə – tabor komandiri, qərargah rəisi olaraq nümunə göstərib, hərbi hissə komandirliyinədək yüksəlib.

Tarixi Aprel döyüşlərində onun rəhbərlik etdiyi "N" saylı Horadiz hərbi hissəsinin uğurlu əməliyyatları sayəsində "Ohanyan səddi" cəmi 18 dəqiqəyə yarılıb və "Lələtəpə" yüksəkliyi azad edilib. Hünərvər komandir orada həlak olan döyüşçülərini görəndə özünü ağlamaqdan saxlaya bilməyib, silahını ataraq Azərbaycan əsgərinin qarşısından qaçan düşmən zabitini görəndə isə qürurla gülüb.

Şükürgil o zaman Lələtəpə ilə bərabər, Tərtərin Talış kəndi ətrafındakı yüksəklikləri də aldılar və bununla ermənilərin hədəfindən çıxan Cocuq Mərcanlı kəndində böyük abadlıq işləri görülməsinə imkan yarandı. Qısaca desək, Cocuq Mərcanlıya təhlükəsiz köç başlandı və Qarabağa Böyük Qayıdışın startı verildi. Beləcə, bizi daha böyük zəfərə səfərbər edən Aprel döyüşləri igid oğullarımızın mübarizə əzmini xeyli gücləndirdi. Onlar sübut etdilər ki, Ermənistan ordusunun gücü barədə qondarılanlar "sabun köpüyü"ndən başqa bir şey deyilmiş. 2020-ci ilin sentyabr ayında başlanan və Şükürün şəhadətə qovuşduğu Vətən müharibəsinin nəticələri də bunu təsdiqlədi.



Polkovnik Həmidov sağlığında verdiyi müsahibədə Lələtəpə döyüşlərini belə xatırlayırdı: "Həmin günlər düşmən öz aləmində gizli tədbirlər həyata keçirirdi. Onlar arxadakı bölmələrini önə çəkirdilər, döyüş təlimləri adına müəyyən qruplaşmalar yaradırdılar, artilleriya, motoatıcı, mexanikləşdirilmiş tank bölmələrini ön ərazilərdə cəmləşdirirdilər. Təbii ki, bizim bölmələr boş durmayıb qarşı tərəfin bütün hərəkətini müşahidə edirdi. Baş verənlərin təhlilindən sonra anlamışdıq ki, düşmən hücumu ola bilər. Yanılmadıq... Aprelin 1-dən 2-nə keçən gecə düşmən təxribat fəaliyyətinə başladı. Mən məhz həmin istiqamətdə hərbi hissə komandiri idim. Baxdım ki, düşmən açıq şəkildə hücuma başlayır. O vaxt ön xətdə xidmət aparanların hamısı adi əsgərlər idi. Həmin əsgərlər düşmən hücumunun qarşısını rəşadətlə aldılar. Onlara Azərbaycan əsgərinin zərbi-dəstini göstərdilər. Düşmənə sübut etdilər ki, bu, 1992–1993-cü illərdə peşəkar zabitlər tərəfindən idarə olunmayan, silah-sursat qıtlığı yaşayan özünümüdafiə bölmələri deyil, ən müasir ordularla müqayisə ediləcək Azərbaycan Ordusudur". Prezident İlham Əliyevin 20 aprel 2016-cı il tarixli sərəncamına əsasən, Aprel döyüşlərində misilsiz hünəri ilə seçilmiş hərbi hissə komandiri Şükür Həmidova Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

...Şükür Həmidovun ailəsi Sumqayıta pənah gətirən məcburi köçkünlərdəndir. Mən də bu şəhərin sakini olduğum üçün bəzən onların yaşadığı evin yanından keçirəm. Hər dəfə bir anlıq da olsa, ayaq saxlayıb iftixarla xatırlayıram ki, 2016-cı ildə yüksək fəxri ada və vaxtından əvvəl polkovnik rütbəsinə layiq görülmüş qəhrəmanımız 2020-ci ildə artıq İkinci Qarabağ müharibəsinin döyüş meydanlarında da qartal kimi cövlan edib və qorxmaz komandir adını bir daha doğrultmaq şansını əldən verməyib.

Qəhrəmanın Vətənə sonsuz sevgi ilə xidmət etdiyi vaxt Mədəniyyət Nazirliyinin sifarişi ilə "Salnaməfilm" studiyasının lentə aldığı "Aprel yüksəkliyi" adlı sənədli film məhz Şükür Həmidova həsr olunub, onun döyüş yolunu əhatə edir. Filmin rejissoru Zamin Məmmədov bildirir ki, Aprel döyüşlərindən sonra, sanki, bir oyanış yaranmışdı, vətənpərvər hisslər daha da güclənmişdi: "Döyüşdə hünər göstərənlərin igidliyi, qəhrəmanlığı dillər əzbərinə çevrilmişdi. İstər döyüşdə həlak olanlar, istərsə də sağlığında Milli Qəhrəman səviyyəsinə yüksələnlərin hər biri dövlətin diqqətində idi. Şükür Həmidov Cəbhənin cənib hissəsindəki idarəçilik korpus komandirinin müavini vəzifəsində çalışırdı, döyüş vaxtı öndə gedən komandirlərdən biri idi. Aprel döyüşlərində Lələtəpə istiqamətindəki döyüşləri o, idarə edirdi. Filmdə bu öz əksini tapıb. Etiraf edim ki, onun haqqında film çəkilişi zamanı komandiri tapmaq, onunla döyüşdüyü ərazilərdə çəkiliş aparmaq o qədər də asan deyildi. Şükür Həmidov şəxsən özü çəkiliş üçün lazım olan bütün şəraiti yaratmaqda bizə yaxından kömək etdi. İlk baxışdan sadə görünən bu insanın daxili aləmi o qədər zəngin idi ki, danışdıqca necə böyük ürəyə sahib olduğunun şahidi olurdum".

2019-cu ildə Bakıdakı Nizami Kino Mərkəzində həmin filmin təqdimatda Şükür Həmidov özü də iştirak edirdi. Çıxışında Xocalı soyqırımı, Qarabağ müharibəsi haqqında danışdı, həmçinin Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun göstərdiyi igidlikləri xüsusilə vurğuladı. Ümidvar olduğunu bildirdi ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğaldan azad olunacağı gün heç də uzaqda deyil.

Bundan ilyarım sonra Vətən müharibəsi başlandı. Onun arzusu çin olurdu. Oktyabrın 20-də doğma Qubadlı rayonu istiqamətində döyüşlərdə rəşadət göstərən 2-ci Ordu Korpusunun komandir müavini Şükür Həmidov uşaqlıq və yeniyetməlik xatirələri ilə bağlı Armudlu kəndinə tezliklə girmək arzusunda idi. Bir gün sonra ordu bölmələrimiz Qubadlının 12-dən çox yaşayış məntəqəsini aldı. Armudluya lap az qalırdı. Amma oktyabrın 22-də səhər saatlarında Şükür Həmidov qonşu Mahmudlu kəndi istiqamətində – ön xətdə igidliklə həlak oldu.

Milli Qəhrəman ölümündən sonra "Zəfər" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib. Fəxr edirik ki, qəhrəman Şükür Həmidov da, onun şəhadətə qovuşmuş silahdaşları da təməli Aprel döyüşləri ilə qoyulan Zəfər yürüşünün və misilsiz rəşadətin simvoluna çevriliblər.

...İki gün öncə Qubadlı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Konustitusiya və Suverenlik İli" çərçivəsində Bakıdakı II Fəxri Xiyabanda Milli Qəhrəman, polkovnik Şükür Nəriman oğlu Həmidovun 50 illik yubileyi münasibətilə mərasim keçirilib. Şəhidin məzarı üzərinə əklil və gül dəstələri qoyulub, ruhuna dualar oxunub. Anım törəni Sumqayıtdakı "28 May" mədəniyyət evində davam etdirilib. Qəhrəmanın həyat yolundan bəhs edən video-çarx nümayiş olunub.

Natiqlər Şükür Həmidov haqqında xatirələrini bölüşüblər. Onun qardaşı Əsəd Həmidov şəhidin ruhuna ehtirama görə dərin minnətdarlığını bildirib. Məktəblilərin ifasında qəhrəmanlıq və vətənpərvərlik mövzusunda şerlər və muğam parçaları səsləndirilib.

***Əli NƏCƏFXANLI***
***XQ***

# "Mart soyqırımı" ermənilərin misilsiz xəyanəti, bəşəri cinayəti idi

## *Daşnaklar 1918-ci ildə Qafqazı türksüzləşdirmək istəmişdilər*

**Erməni millətçilərinin xalqımıza qarşı keşən əsrin əvvəllərində – 1905-ci və 1918-ci illərdə gerçəkləşdirdikləri soyqırımı siyasəti və onun qanlı izləri barədə tarixi bilgilər keçmiş SSRİ zamanında "7 qıfıl" altında saxlanıb. Bu misilsiz cinayətləri görüb-yaşamış yaşlı nəslin ziyalı təbəqəsi sonrakı dövrdə məhv edilib, yerdə qalan şahidlər isə qorxu altında susdurulub.**



Nəticədə, yeni nəsillər erməni millətçilərinin xalqımıza qarşı barışmaz düşmənçiliyinin müdhiş mənzərəsindən xəbərsiz qalıblar, bu siyasətin sovet zamanında gizli qata keçmiş gedişatını vaxtında duyub-dəyərləndirə bilməyiblər. Sovet imperiyasının süqutuna yol açmış erməni xəyanətkarlığının 1988-ci ildə Azərbaycana qarşı ərazi iddiası ilə açıq təcavüzkarlığa çevrilməsi bu kütləvi cinayətlərin üstündəki qalın pərdəni də süpürüb atdı.

Xalqımıza qarşı XX əsr boyu davam etmiş erməni cinayətləri barədə tarixi həqiqətlər bundan sonra az-çox aşkara çıxarıldı. Lakin həmin qətliamların məqsədyönlü soyqırımı və deportasiya siyasəti olması bu dövrdə və müstəqilliyin ilk illərində hakimiyyətdə olmuş qorxaq və təcrübəsiz siyasətçilərin məsuliyyətsizliyi səbəbindən dünya ictimaiyyətinə sistemli və mükəmməl dövlət sənədi şəklində çatdırılmadı.

Yalnız 1993-cü ildə yenicə qazanılmış dövlət müstəqilliyini itirilmək təhlükəsindən xilas etmiş ümummilli lider Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gətiriləndən sonra erməni xəyanətkarların



1905-ci və 1918-ci illərdə xalqımıza qarşı törədikləri soyqırımı və deportasiya cinayətləri və sonrakı illərdə davam etdirilmiş düşmənçilik aksiyaları barədə həqiqətlərin sivil dünyaya mötəbər statusla təqdim edilməsinə, geniş müzakirə meydanına və cidi qınaq hədəfinə çıxarılmasına yol açıldı. Ulu öndərin 26 mart 1998-ci il tarixli fərmanı ilə hər il martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi ölkəmizdə dövlət səviyyəsində qeyd olunur. Bu tarixi sənəd erməni millətçilərinin xalqımıza qarşı törətdiyi qırğınları bəşəri cinayət kimi dünyaya tanıdır.

Sovet hakimiyyəti illərində bu faciələr barədə danışmaq qeyri-mümkün idi. Xalqın soykökünün məhvinə, Azərbaycan torpaqlarında erməni dövləti qurulması barədə nəsə öyrənmək, danışmaq, yazmaq qadağan olunmuşdu. Bu işi görməyə cəhd edən ayrı-ayrı şəxslər inzibati orqanlar tərəfindən təqib edilmiş, belə bir fəaliyyət hakim partiyanın "beynəlmiləlçilik" siyasətinə uyğun sayılmamışdı.

Lakin həmin dövrdə heç bir partiya və dövlət siyasətinə məhəl qoymayan erməni başbilənləri xalqımıza, bütövlükdə, türk dünyasına qarşı həyata keçirdikləri soyqırımı siyasətinin davamı olaraq geniş millətçilik təbliğatı aparmış, yeni nəsli azərbaycanlılara qarşı düşmənçilik ruhunda tərbiyə etmişdilər. Azərbaycan xalqı isə soykökümüzün, torpaqlarımızın, tariximizin itirilməsinə yönəldilmiş bu faciələr barədə həqiqəti bilməkdən məhrum edilmişdi.

Həqiqət isə bu idi ki, 1905 və 1918-ci illərdə erməni quldur dəstələri Azərbaycan türklərinə qarşı tarixdə görünməmiş cinayətlər törətmişdilər. Bakıda, Şamaxıda, Qubada, Naxçıvanda, Qarabağ və Zəngəzurda, habelə Azərbaycanın digər şəhər və kəndlərində, qədim Qğuz yurdu İrəvan torpaqlarında yüz minlərlə Azərbaycan türkü işgəncə ilə öldürülmüş, evlər qarət edilmiş, yandırılmışdı. Daşnak silahlı dəstələri dinc əhaliyə qarşı elə vəhşiliklər etmişdilər ki, bu gün həmin tarixi faciələr barədə söhbət açanda adamı dəhşət bürüyür.

Erməni vəhşiləri azərbaycanlı qocaları, qadınları, uşaqları qılıncdan keçirərək, onların yaşayış yerlərini yandıraraq ölü zonalar yaratmışdılar. Həmin dövrdə daşnak hərbi qüvvələrinin törətdiyi bu soyqırımlarını başda Stepan Şaumyan olmaqla erməni bolşevikləri vətəndaş müharibəsi kimi qələmə verməyə və bununla da tarixi həqiqəti ört-basdır etməyə çalışmışdılar.

1918-ci il martın sonu, aprelin əvvəlində Bakıda ermənipərəst bolşevik rəhbərliyinin iradəsi və fəal iştirakı ilə milli zəmində törədilmiş dəhşətli qırğın nəticəsində dinc azərbaycanlı əhalidən on minlərlə adam öldürülmüş və yaralanmış, təhqir və işgəncələrə məruz qalmışdılar. Tarixə "Mart qırğını" kimi daxil olmuş bu qanlı aksiyalar tezliklə Bakı hüdudlarından kənara çıxmış, Lənkəranın, Şamaxının və Qubanın tutulması, talan edilməsi və yandırılması, dinc əhalinin amansızcasına məhv edilməsi ilə nəticələnmişdi. Bu zaman nə qocaya, nə cavana, nə də körpələrə aman verilməmişdi. Adamları vəhşicəsinə qətlə yetirmələri üçün onların müsəlman, azərbaycanlı olmaları kafi hesab edilmişdi.

Bu dəhşətli cinayətlərin təşkilatçıları Kreml diktatoru V.Leninin rəğbət və etimadını qazanmış, onun Qafqaz emissarı təyin edilmiş S.Şaumyanın başçılıq etdiyi Bakı bolşevikləri, icraçıları isə daşnak hərbi hissələri olmuşdu. Bakı bolşevikləri Rusiyada 1917-ci il oktyabr çevrilişi ərəfəsində yaranmış qarışıqlıq zamanı özlərinə xas olan saxtakarlıq məharətlərini işə salaraq elə həmin ayın 13-də Bakı Sovetinin İcraiyyə Komitəsini istefa verməyə məcbur etmiş, oktyabrın 15-də müvəqqəti Bakı Sovetinin yaradılmasına nail olmuşdular.

1918-ci il noyabrın 15-də S.Şaumyan V.Lenin tərəfindən Qafqazın fövqəladə komissarı təyin edilmiş və ona kifayət qədər döyüş sursatı göndərilməsinə nail olmuşdu. Bakı Soveti qoşunlarının sərəncamına hətta top, zirehli maşın və təyyarə də göndərilmişdi. Lakin yerli türk-müsəlman əhalisinə qarşı hərbi əməliyyatlarda Bakı Soveti qoşunlarının kifayət edəcəyinə əmin olmayan Şaumyan faciə ərəfəsində daşnaklarla taktiki ittifaqa girməyi də unutmamışdı. Xatırladaq ki, həmin dövrdə Bakıda daşnakların 4 min nəfərdən artıq yaxşı silahlanmış hərbi qüvvələri var idi.

Həmin dövrdə Bakıda İran və Qərb cəbhəsindən qayıdan 7 min nəfər rus əsgəri qalmışdı. Sonralar həmin əsgərlərin müəyyən hissəsindən müsəlmanlara qarşı hərbi əməliyyatlarda istifadə olunmuşdu. Xəzər Hərbi Donanmasının da Bakı Sovetinin tərəfində müsəlmanlara qarşı vuruşacağı şübhə doğurmurdu. Ən dəhşətli bu idi ki, mart faciəsi ərəfəsində sayı 6 min nəfərə çatan Bakı Soveti silahlı qüvvələrinin istər tərkibinin, istərsə də komandir heyətinin xeyli hissəsini erməni millətindən olanlar təşkil edirdilər. Bunların arasında Bakı Soveti Qızıl Ordu qərargahının rəisi, çar ordusunun polkovniki Z.Avetisyan, daşnak partiyasının digər üzvü qızıl qvardiyaçı, polkovnik Kazakov, 3-cü briqadanın komandanı Amazasp və başqaları da var idi. Bakıda "Qızıl ordu" sıralarında xidmət edənlərin də bir çoxu Daşnaksütyun partiyasının nəzarətində idi.

Nə qədər acınacaqlı olsa da, müsəlmanlar məğlub olacaqlarını, sanki, əvvəlcədən bilə-bilə həmin dəhşətli faciyəyə cəlb edilmişdilər. Görünür, bu məsələdə Erməni milli şurasının və daşnak liderlərinin də xəyanətkar rolu az olmamışdı. Faciə ərəfəsində erməni liderlərinin "diplomatik fəallığını" əks etdirən bir neçə fakta diqqət yetirək. Martın 18-də şəhər rəisi Qaik müsəlmanların iclası keçirilən İsmayiliyyə binasına gələrək Erməni milli şurası və Daşnaksütyun partiyasının adından bildirmişdi ki, hərgah müsəlmanlar bolşeviklərin əleyhinə çıxsalar, onda erməni qoşun hissələri müsəlmanlara qoşular və bolşevikləri Bakıdan qovub çıxarmaqda onlara kömək edər.

Erməni milli şurasının başqa bir nümayəndəsi Ter-Zaxaryan həmin gün Müsəlman milli şurasının iclasına gələrək bildirmişdi ki, daşnaklar müsavatçılarla birlikdə bolşeviklərin əleyhinə çıxmaq üçün məsləhətləşmək istəyirlər. Daha sonra Ter-Zaxaryan demişdi ki, bolşeviklər qovulduqdan sonra Bakıda müsəlman-daşnak hökuməti yaradılar. Əlbəttə, müsəlmanlar belə milli xəyanət yolunu tuta bilməzdilər. Bu təklifi irəli sürənlər də yaxşı bilirdilər ki, müsəlmanlar bu təklifi qəbul etməyəcəklər. Bu zaman daşnaklar bildirdilər ki, əgər müsəlmanlarla bolşeviklər arasında vuruşma başlanarsa, onlar bitərəf qalacaq və guya, rəğbət bəslədikləri azərbaycanlılara silahla yardım göstərəcəklər.

Bu addım erməni riyakarlığından başqa bir şey deyildi. Bu təkliflərin mahiyyəti yalnız azərbaycanlılarla bolşevikləri toqquşdurmağa, müsəlman hərbi hissələrini Bakı Soveti qoşunlarının əli ilə tərksilah etməyə, sonra isə dinc müsəlman əhalisinə divan tutmağa yönəldilmişdi. Müsəlmanlar getdikcə yaxınlaşmaqda olan fəlakəti görürdülər. Şəhərdə çoxlu erməni silahlı dəstələrinin toplanması azərbaycanlı əhaliyə son dərəcə mənfi təsir göstərirdi.

Bakıda müsəlmanlara qarşı faciə törətmək üşün bəhanə axtarılırdı. Bəhanə tapmaq çox da çətin olmadı. Çünki Bakı Sovetinin şəhər daxilində dözülməz amirlik mövqeyinin güclənməsi onsuz da müsəlman əhalisi arasında gərginliyi son həddə çatdırmışdı. Müsəlmanları silahlı toqquşmaya cəlb etmək üçün Bakı Sovetinin rəhbərliyi açıq şantajdan da istifadə etmişdi.

1918-ci il martın 29-da Bakı Soveti İcraiyyə Komitəsinin sərəncamı ilə "Elevina" gəmisində Lənkərana getməyə hazırlaşan müsəlman diviziyasının yüzlərlə zabit və əsgəri tərkisilah edilmişdi. Bu, açıq-aşkar meydan oxumaq idi. Şəhərdə minlərlə yaxşı silahlanmış daşnak hərbi hissələri sərbəst hərəkət etdikləri halda, müsəlmanların kiçik bir dəstəsinin tərkisilah edilməsi Azərbaycan əhalisi arasında narazılığı artırmış və ciddi etirazlara səbəb olmuşdu.

Martın 30-da səhər tezdən Bakı məscidlərində etiraz mitinqlərinin keçirilməsinə başlanmışdı. Belə bir şəraitdə Müsavat partiyası rəhbərliyinin əhalini sakitliyə çağırması da arzuolunan nəticəni verməmişdi. Silahların geri qaytarılması tələbinin uzanması narazılığı son həddə çatdırmışdı. Günortadan sonra Şamaxı yolunda və Tatarski küçəsində Qızıl ordunun suvari hissəsinə fitnəkarların təşkil etdiyi hücum şəhərdə əmin-amanlığın bərpa olunacağına bütün ümidləri puça çıxarmışdı. Bununla da Şaumyan və daşnaklar istədiklərinə nail olmuşdular. Qızıl ordu hissəsi dərhal müsəlman məhəllələrinə soxularaq fəal hərbi əməliyyatlara başlamışdılar.

Sonralar bu barədə Şaumyan yazmışdı: "Biz suvari hissələrimizə ilk silahlı basqına qarşı hər cür hazırlıq görmüşdük və dərhal bütün cəbhə boyu hücuma başladıq". Beləliklə, əvvəlcədən hazırlanmış plan üzrə martın 30-da Bakı faciəsinin həyata keçirilməsinə başlanmışdı.

Daşnak hərbi hissələri və Xəzər hərbi donanmasının matrosları müsəlmanların əleyhinə Bakı Soveti tərəfində fəal surətdə hərbi əməliyyatlara qoşulmuşdular. Sovet qoşunları elə həmin gün müsəlmanların qeyri-mütəşəkkil silahlı qüvvələrinə qarşı bütün cəbhə boyu qəti hücuma başlamışdı. Döyüşlərdə zirehli maşınlardan, top və aviasiyalardan istifadə edilməsi azərbaycanlı əhali arasında çaşqınlıq yaratmış, qorxu və təlaşa səbəb olmuşdu. Müsəlmanların səngər etdikləri İçərişəhər ətrafında, Şamaxı yolunda və şəhərin digər hissələrində şiddətli küçə vuruşmaları başlanmışdı. Dinc əhali arasında ölənlərin və yaralananların sayı sürətlə çoxalmışdı.

Düşmənin üstün qüvvələri qarşısında müqavimət göstərməyin yalnız günahsız qurbanların sayını artıra biləcəyini görən müsəlmanlar martın 31-də atəşi dayandıraraq sülh danışıqlarına başlamağı təklif etmişdilər. İnqilabi Müdafiə Komitəsi Bakı Soveti Hakimiyyətinin qeyd-şərtsiz tanınması, onun sərəncamlarına tam tabeçilik, az-çox müsəlman silahlıların və onun ardınca erməni hərbi qüvvələrinin şəhərdən çıxarılması şərtlərinin qəbul edilməsi ilə razılığını bildirmişdi.

Bu razılaşmadan sonra güman etmək olardı ki, müsəlmanlar yenidən dinc yaşayış dövrünə qayıda biləcəklər. Lakin əsl faciəli hadisələr ultimatumun qəbulundan sonra, daşnak-bolşevik ittifaqının şəhərin müsəlmanlar yaşayan hissələrində qarətlər, yanğınlar, törədilməsi ilə davam etmişdi. Bakı bolşeviklərinin ermənipərəst mövqe tutmaları daşnakların imkanlarını artırmış, dinc azərbaycanlılara vəhşi üsullarla divan tutmaq üçün onlara hədsiz şərait yaratmışdı.

...Daşnaklar uşaqları, körpələri süngüyə taxıb göyə qaldırmış, qadınları saçlarından bağlayıb küçə boyu qaçmağa məcbur etmişdilər. Vəhşiləşmiş silahlılar adamları öldürməklə kifayətlənməmiş, onların qulaqlarını, burunlarını kəsmiş, qarınlarını yırtmış və görünməmiş vəhşiliklər törətmişdilər. Ermənilər Bakıda qiymətli milli-tarixi abidələri, binaları da dağıtmış, yandırmış, yararsız hala salmışdılar.

Yerli azərbaycanlı əhalinin rəhmsizliklə məhv edilməsi, öz doğma şəhərlərindən didərgin salınması, heç şübhəsiz, uzaq məqsədlər güdən erməni millətçilərinin siyasi niyyətlərinə xidmət etmişdi. Onlar bu yolla Bakını yerli əhalidən təmizləmək, onun sərvətlərinə sahib çıxmaq, hətta bu qədim Azərbaycan şəhərini Ermənistan torpağı elan etmək istəmişdilər.



Martın 31-də müsəlmanlar Bakı Sovetinin ultimatumunu qəbul edəndən sonra səhər iki günlüyə qatillərin ixtiyarına verilmiş və bundan istifadə edən silahlı daşnaklar saysız hesabsız cinayətlər törətmişlər. Yalnız ayrı-ayrı yerlərdə azərbaycanlı əhalinin fədakarlıqla müdafiə olunması onların tamamilə məhv edilməsinin qarşısını almışdı.

Beləliklə, azərbaycanlı əhali 17 min nəfər itki versə də, öz şərəfinin və ləyaqətinin axıra qədər tapdalanmasına yol verməmişdi. İnqilabi Müdafiə Komitəsinin "fəal səyləri sayəsində", guya, aprelin 2-də Bakı şəhərində qayda-qanun bərpa olunmuş və talanların qarşısı alınmışdı. Lakin Erməni milli şurası və daşnak polkları buraxılmadığı halda qayda-qanunun bərpa olunmasından danışmaq olmazdı. Həmin talanlar və qırğınlar yüngül formada olsa da, aprelin 18-dək davam etdirilmişdi.

Qırğının 13-cü günü S.Şaumyan V.Leninə yazmışdı: "Biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir". Bakı şəhərində törədilən qırğınlardan sonra da Şaumyan Azərbaycanın digər bölgə və şəhərlərində də müsəlmanlara qarşı soyqırımları və talanlar törətmək niyyətində olmuşdu. Daşnak Amiryanın və Lalayanın başçılığı ilə Şamaxının bütün müsəlman əhalisi qılıncdan keçirilmişdi. On minlərlə kişi, qadın və uşaq amansızlıqla qətlə yetirilmişdi.

Quba qırğınında isə ermənilərin əsas məqsədi azərbaycanlıların kütləvi soyqırımını həyata keçirmək olmuşdu. Daha doğrusu, Daşnaksütyun partiyası Şaumyanın rəhbərliyi ilə 1918-ci ilin ilk aylarından etibarən Bakıdan başlayaraq Tiflisə qədər məskunlaşan azərbaycanlıları qırıb Kür çayına, Qubadan Astarayadək yaşayanları isə Xəzər dənizinə tökməyi planlaşdırmışdılar. Quba şəhərindən əlavə, daşnaklar həmin mahalda 120 kəndi yandırmış, dağıtmış, viran qoymuşlar, erməni daşnak dəstəsi və bolşeviklər həmin dövrdə yalnız Bakıda, Şamaxıda, Qubada deyil, Salyanda, Lənkəranda, Muğanda və azərbaycanlıların məskunlaşdıqları digər ərazilərdə də xalqımıza qarşı qanlı faciələr törətmişlər.

1918-ci ilin yaz–payız aylarında Zəngəzur qəzasında azərbaycanlılar yaşayan 116 kənd məhv edilmiş, 7 min 729 nəfər vəhşicəsinə öldürülmüşdü. 1917-ci ilin dekabrından 1918-ci ilin axırına qədər İrəvan, Şərur, Təzə Bəyazid ərazilərindən varidatları talanan, doğma yurd-yuvalarından qovulan azərbaycanlıların sayı iki yüz min nəfərə çatmışdı.

1918-ci ildə yaradılmış Fövqəladə İstintaq Komissiyasının hazırladığı məruzədə erməni vəhşilikləri kifayət qədər əks etdirilmişdir. Hətta həmin məruzədə azərbaycanlılara qarşı bu cinayətləri törədənlərin ən ağır cəzaya layiq olduqları göstərilmişdir. Lakin belə bir qiymətli sənəd uzun müddət xalqdan gizlədilmişdir. Azərbaycanda 1920-ci ildə hakimiyyətə gələn bolşeviklərin səyi nəticəsində isə xatirələrdən də silinmişdir.

Bu soyqırımı aksiyalarının amansızlığı barədə Üzeyir Hacıbəyli yazmışdı: "1918-ci ilin mart–may aylarında ermənilərin silahsız xalqımıza qarşı qansız və vicdansız hərəkətlərinin qarşısı türk qəhrəmanlarının vaxtında köməyə gəlməsi sayəsində alındı. Əgər belə olmasaydı, Bakıda, Şamaxıda, Qubada deyil, bəlkə də bütün Azərbaycanda ermənilər daş üstündə daş qoymazdılar."

1918-ci ilin 31 Mart soyqırımı, 1992-ci ilin Xocalı soyqırımı nəinki azərbaycanlılara, bütövlükdə bütün bəşəriyyətə qarşı törədilmiş soyqırımıdır. Təbii ki, məğrur Azərbaycan xalqı erməni vandallarının törətdiyi bu qeyri-insani vəhşilikləri heç vaxt unutmayacaq.

***Ədalət FƏRƏCOV,***
***ADPU-nun professoru,***

***Sultanəli QURBANOV,***
***ADPU-nun dosenti***

# Azərbaycan–Çin strateji tərəfdaşlığının ortaq hədəfləri




**Dünən Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Azərbaycan–Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi" mövzusunda konfrans keçirilib.**

Konfransın moderatoru, Milli Məclisin deputatı Pərvin Kərimzadə Azərbaycanla Çin arasında əlaqələrin dinamik inkişaf etdiyini bildirib. O qeyd edib ki, konfrans iki ölkə arasında mövcud əlaqələr və perspektiv əməkdaşlığa dair fikir mübadiləsinin aparılması baxımından mühüm əhəmiyyət kəsb edir.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, bu gün Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasındakı münasibətlər dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və etibarlı strateji tərəfdaşlığa əsaslanır: "Fəal siyasi dialoq və davamlı diplomatik təmaslar fonunda son olaraq 2024-cü ilin iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbulu müstəqil siyasət həyata keçirən iki dövlətin ortaq iradəsini ifadə etməklə gələcəyə yönəlik çox önəmli addım kimi böyük əhəmiyyətə malikdir".

Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançao vurğulayıb ki, Çin və Azərbaycan strateji tərəfdaşlardır və qarşılıqlı faydalı əməkdaşlıq edirlər: "Azərbaycan və Çin xalqları arasında dostluğun qədim tarixi var. Bu tarixi dostluq bizim müasir dövrdəki münasibətlərimizə də böyük təsir göstərir".

Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, Milli Məclisin deputatı Fariz İsmayılzadə Azərbaycan–Çin münasibətlərinin son illərdə uğurla inkişaf etdiyini qeyd edərək qarşıda duran vəzifələrdən, birgə hədəflərin gerçəkləşdirilməsi yollarından danışıblar.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

Konfransa yekun vuran Tahir Budaqov Çin Kommunist Partiyası Mərkəzi Komitəsi heyətinin səfərinin ölkələrimiz arasında əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

# Turanın iqtisadi dayaqları möhkəmlənir

## *Ötən il türk dövlətlərinin ÜDM-i 5,2 faiz artıb*

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyi ilə birgə 8 dildə hazırladığı "Türk iqtisadi icmalı"nın 2024-cü ilin yekunlarına dair buraxılışı nəşr edilib.**

Mərkəzdən redaksiyamıza verilən məlumata görə, nəşrdə TDT-yə üzv ölkələrin – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın, eyni zamanda, müşahidəçi üzvlər olan Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının iqtisadi göstəricilərinin təhlili verilib. İcmalda son iqtisadi inkişaf göstəricilərinə əsaslanılaraq TDT üzvlərinin potensialı və qlobal iqtisadiyyata təsiri qiymətləndirilir. 2024-cü ildə TDT 2,11 trilyon dollar ÜDM ilə qlobal iqtisadiyyatda 1,8 faizlik paya sahib olub. Birliyin əhalisi isə 178,8 milyon nəfər ilə qlobal sayın 2,8 faizini təşkil edib. Təşkilat bu göstəricilərlə beynəlxalq aləmdə həm iqtisadi, həm də demoqrafik baxımdan mühüm yer tutduğunu təsdiqləyib.

Hesabat dövründə TDT 3,2 faizlik qlobal artım tempi ilə müqayisədə 5,2 faiz ÜDM artımı ilə daha sürətli inkişaf nümayiş etdirib. Qırğızıstan 9 faiz, Türkiyə isə qrupun ən böyük iqtisadiyyatına sahib olmaqla 3,2 faiz iqtisadi böyüməyə nail olub. Türkmənistanda iqtisadi artım 6,3 faiz, Şimali Kipr Türk Respublikasında isə 7,3 faiz təşkil edib. Azərbaycan, Qazaxıstan və Özbəkistan müvafiq olaraq 4,1 faiz, 4,8 faiz və 6,5 faiz artım tempini nümayiş etdirərək sənaye və kənd təsərrüfatı sektorunda davamlı inkişafı gerçəkləşdirib. Macarıstanda ÜDM artım tempi 0,5 faiz təşkil edib.

Ticarət dövriyyəsi həm qlobal inteqrasiya, həm də TDT ölkələri arasında iqtisadi inteqrasiya üçün böyük əhəmiyyət daşıyır. 2024-cü ildə Türk dövlətlərinin ümumi ticarət dövriyyəsi 1,17 trilyon dollar təşkil edib ki, bu da 33 trilyon dollar həcmində olan qlobal ticarət dövriyyəsinin, təxminən, 3,5 faizinə bərabərdir. TDT 2025-ci ilə qədər üzv dövlətlər arasındakı ticarət dövriyyəsini ikiqat artırmağı və 100 milyard dollar hədəfinə çatmağı qarşısına məqsəd qoyub ki, bu, regiondakı iqtisadi əlaqələri daha da gücləndirəcək.

Türkiyə ən yüksək ticarət dövriyyəsinə malik olmaqla, bu sahədə 605,88 milyard dollar ilə liderlik edir. Qazaxıstan və Özbəkistan isə müvafiq olaraq 141,41 milyard dollar və 65,93 milyard dollar ilə ticarət həyata keçirib. Qazaxıstanda və Özbəkistanda kənd təsərrüfatı və sənaye sektorlarında davamlı ixrac artımı müşahidə edilib. Azərbaycan 5,27 milyard dollar miqdarında müsbət ticarət balansına nail olub. Bu göstəricilər bölgədəki ticarət dinamikalarının fərqliliyini və Türk dövlətlərinin güclü ixrac performansından faydalandığını göstərir.

Sənaye sektorunda Türkiyə və Qazaxıstan müvafiq olaraq 3,7 faiz və 2,8 faiz artımla liderlik edib. Bu artıma genişmiqyaslı istehsal və infrastruktur layihələri təsir göstərib. Digər tərəfdən, kənd təsərrüfatı sektorunda Qazaxıstan 13,7 faiz ilə ən güclü artım nümayiş etdirib. Qırğızıstan və Özbəkistan da kənd təsərrüfatında müvafiq olaraq 6,3 faiz və 3,1 faiz artım əldə edib. Macarıstan isə -10,4 faiz azalma göstərib ki, buna Avropada kənd təsərrüfatı sahəsində genişmiqyaslı problemlərin səbəb olduğu ehtimal edilir.

İnvestisiyalar, xüsusilə sabit kapital sahəsindəki investisiyalar uzunmüddətli artım üçün çox vacibdir. 2024-cü ildə Qazaxıstan və Türkiyə sabit kapital investisiyalarında müvafiq olaraq 7,5 faiz və 6,1 faiz artım nümayiş etdirib, bu da infrastruktur, enerji və istehsal sahələrinə edilən böyük investisiyalarla dəstəklənib. Qırğızıstan və Özbəkistan da sabit kapital investisiyalarında sağlam artım göstərərək xarici birbaşa investisiyaların artırılıb və işgüzar mühitlərində müsbət inkişaf əldə edib.

Türk dövlətlərində bank sektoru da əhəmiyyətli artım nümayiş etdirib. Hesabat dövründə Qırğızıstanın bank sektorunun cəmi aktivlərində 3,8 faiz, Qazaxıstanda 20 faiz, Özbəkistanda 18 faiz, Türkiyədə 16 faiz artım olub. Bu göstəricilər iqtisadi inkişafı və investisiyaları dəstəkləyən maliyyə xidmətlərinin güclənməsinə əsaslanır. Macarıstanın bank sektoru isə daha mülayim artım göstərib.

Dövlət büdcəsinin performansı iqtisadi sağlamlığın digər vacib göstəricisidir. Türkiyə dövlət büdcəsi gəlirlərində 66,5 faiz, dövlət büdcəsi xərclərində isə 63,6 faiz olmaqla ən yüksək artım qeydə alıb. Azərbaycan, Qazaxıstan və Özbəkistan həm gəlirlər, həm də xərclər sahəsində sabit artım göstərərək effektiv maliyyə idarəetməsi nümayiş etdirib. Qırğızıstan daha yüksək fiskal kəsirə malik olsa da, dövlət büdcəsi gəlirlərində əhəmiyyətli artım əldə edib. Türk dövlətləri ÜDM artımı və ticarət dövriyyəsi baxımından qlobal artımı üstələyib və əhəmiyyətli investisiyalara nail olub.

Türk dünyasının iqtisadi əməkdaşlığının daha da dərinləşdirilməsi üçün qarşıda duran əsas çağırışlar arasında daxili bazarlarda rəqabət qabiliyyətinin artırılması və ticari əlaqələrin daha da şaxələndirilməsi önəmlidir. TDT ölkələrinin təbii sərvətləri böyük iqtisadi potensiala sahib olsa da, onların beynəlxalq bazarlarda daha təsirli və sabit mövqe tutması üçün daha irimiqyaslı infrastruktur investisiyaları, regional sərmayə təşviq siyasətləri və vahid iqtisadi siyasətlərin inkişaf etdirilməsi əsas çağırışlardır.




2024-cü ildə TDT dünya iqtisadiyyatında əsas geosiyasi və iqtisadi faktor rolunu daha da gücləndirmək üçün müxtəlif əməkdaşlıq modelləri və layihələri üzərində işləyir. Təşkilata üzv dövlətlərin təbii sərvətləri, xüsusilə enerji ehtiyatları bu ölkələrin qlobal enerji bazarlarında əhəmiyyətli oyunçulara çevrilməsinə zəmin yaradır. 2023-cü ildə təşkilata üzv ölkələrdəki təsdiqlənmiş təbii qaz ehtiyatları 18,6 trilyon kubmetr, neft ehtiyatları isə 5,3 milyard ton səviyyəsində qiymətləndirilir.

Onu da deyək ki, Azərbaycanla TDT-yə üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün son illərdə bir sıra layihələr reallaşdırılıb. Məsələn, Milli Məclisin 4 aprel 2023-cü il tarixli iclasında "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanan saziş təsdiqlənib.

Bununla da TDT hökumətlərinin gömrük orqanları arasında malların və nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı məlumat mübadiləsi asanlaşıb. Başqa sözlə, belə bir layihənin icrası nəticəsində təşkilata üzv hökumətlər arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında məlumatların elektron şəkildə mübadiləsi gerçəkləşib, nəticədə sürətli yük daşımaları, o cümlədən yük daşımaların həcmində nəzərəçarpacaq dərəcədə artıma nail olmaq reallaşıb.

"Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" sazişin təsdiqlənməsi isə Orta Dəhlizin praktiki əhəmiyyətinə müsbət təsir göstərməklə yanaşı, regionda baş verən yeni geosiyasi və geoiqtisadi reallıqlar çərçivəsində sözügedən marşrutla Çindən Avropaya quru yolla daşınan yüklərin Qazaxıstan və Azərbaycandan keçərək ötürülməsi reallaşıb.

(əvvəli 1-ci səhifədə)

Bildirilib ki, ötənilki toplantıda dövlət başçısı İlham Əliyev çıxış edərək "Bakı Enerji Həftəsi"nin ölkəyə xarici investisiyaların cəlb edilməsindəki rolunu vurğulayıb. Enerji Həftəsinin beynəlxalq miqyasda əhəmiyyətini təsdiq edən amillərdən biri də artıq uzun illərdir ki, "Bakı Enerji Həftəsi"nin iştirakçılarına ABŞ və Türkiyə prezidentlərinin, Böyük Britaniya Baş nazirinin salamlama məktubları göndərməsidir. Bununla yanaşı, "Bakı Enerji Həftəsi"nə Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) isə baş tərəfdaş qismində çıxış edir.

Ənənəvi olaraq bu il də "Bakı Enerji Həftəsi" çərçivəsində ikitərəfli işgüzar görüşlər (B2B, B2G) keçiriləcək. Burada yerli və xarici şirkətlərin nümayəndələri üzbəüz formatda əməkdaşlıq və gələcək tərəfdaşlıq yollarını müzakirə edə biləcəklər. Bununla yanaşı, yubiley tədbirinin proqramı da zəngin olacaq. Bakı Ekspo Mərkəzinin foyesində "Smart Energy Hub" adlı startap zonası, "Enerjinin sənətlə görüşdüyü yer" – instalyasiya zonası nümayiş olunacaq, həmçinin iştirakçı və ziyarətçilərin diqqətini cəlb edəcək digər maraqlı tədbirlər təşkil olunacaq.

# Bakı 30-cu Enerji Həftəsinə hazırlaşır




Dünyanın sənaye liderləri və innovatorlar üçün çox vacib olan "Bakı Enerji Həftəsi" regionun aparıcı şirkətlərinin və enerji sektorunun ən önəmli iştirakçılarının bir araya gələrək mühüm məsələlərin müzakirə etdiyi və əhəmiyyətli qərarlar verdiyi səmərəli bir platformadır. 30 illik yubileyini qeyd edəcək "Bakı Enerji Həftəsi"nə hazırlıq işləri fəal şəkildə davam edir. Azərbaycanla yanaşı, ABŞ, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Fransa, Gürcüstan, Hindistan, İsrail, İtaliya, Qazaxıstan, Lüksemburq, Macarıstan, Monako, Niderland, Özbəkistan, Slovakiya, Türkiyə və Ukraynanı təmsil edən şirkətlər artıq tədbirdə iştirakını təsdiqləyiblər.

"Bakı Enerji Həftəsi" enerji keçidi üzrə müzakirələr üçün əsas platforma olaraq statusunu daha da möhkəmləndirəcək. Ənənəvi enerji növlərindən "yaşıl" enerji yeniliklərinə qədər mövzuları əhatə edən bu tədbir Azərbaycanın enerji təhlükəsizliyi və ətraf mühitə qarşı məsuliyyətində ölkənin liderliyini gücləndirməyə xidmət edir.

İyunun 3-4-də Bakı Konqres Mərkəzində mötəbər beynəlxalq tədbirin əsas hadisəsi olan "Bakı Enerji Forumu" baş tutacaq. Yeri gəlmişkən, 30 illik yubileyini qeyd edən forum "Bakı Enerji Həftəsi"nin əsas iştirakçılarını, aparıcı dünya mütəxəssislərini, dövlət qurumlarının və özəl sektorun nümayəndələrini, investorları və biznes nümayəndələrini strateji dialoq üçün bir araya gətirir. Burada enerji sənayesinin gələcək gündəliyi formalaşır, strateji təşəbbüslər və inkişafın əsas tendensiyaları müzakirə edilir.

Bu il "Bakı Enerji Forumu"nun əsas mövzuları dayanıqlı enerji sənayesinin inkişafı, enerji sektorunun rəqəmsallaşdırılması, "yaşıl" enerji layihələrinin sürətləndirilməsi və dekarbonizasiya üçün innovativ həllərin araşdırılmasıdır. Bu müzakirələr qlobal enerji sektorunun transformasiyasına istiqamət verərək onun gələcəyini müəyyənləşdirməkdə mühüm rol oynayacaq.

Həftə çərçivəsində "Zero Waste" və "Zero Food Waste" təşəbbüsləri həyata keçirilir ki, bu da təşkilatçıların dayanıqlı inkişaf prinsiplərinə sadiqliyini vurğulayır.

# AYİB-in yatırımları artıb

**Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) 2025-ci ilin fevralın 28-nə Azərbaycandakı aktiv portfelinin həcmi yanvar ayı ilə müqayisədə 0,37 faiz və ya 4 milyon avro artaraq 1 milyard 86 milyon avroya çatıb. Ötən müddətdə bank tərəfindən ölkəmizdə 33 layihə reallaşdırılıb. Bu və digər məlumatlar bankın hesabatında yer alıb.**




Bildirilib ki, ümumi portfelin 92 faizini (994 milyon avro) dayanıqlı infrastruktura yatırımlar, 5 faizini (52 milyon avro) sənaye, ticarət və aqrobiznes investisiyaları, 4 faizini (40 milyon avro) isə maliyyə institutlarına yatırımlar təşkil edib. Fevral ayında bankın ölkədəki əməliyyat aktivlərinin həcmi isə əvvəlki aya nisbətən 1 faiz artaraq 757 milyon avroya çatıb.

Bütövlükdə isə, AYİB indiyədək ölkəmizə 196 layihə çərçivəsində 4 milyard 64 milyon avro həcmində investisiya yatırıb. Ümumi yatırımın 3,339 milyard avrosu borcgötürənlər tərəfindən xərclənib. Ötən müddətdə ümumi investisiyalarda özəl sektorun payı 36 faiz təşkil edib.

# Dünya Bankının "yaşıl" layihəsi

**Dünya Bankı bu gün Azərbaycan üçün Bərpaolunan Enerjinin Miqyasının Genişləndirilməsi Layihəsini (AZURE) təsdiq edib. Bu barədə beynəlxalq maliyyə qurumundan bildirilib.**




Məlumata görə, layihə Azərbaycanın elektrik ötürücü şəbəkəsini gücləndirəcək və ölkəyə öz enerji gücünü şaxələndirmək imkanı verəcək. 173,5 milyon ABŞ dolları məbləğində kredit Azərbaycanın enerji infrastrukturunu genişləndirmək və müasirləşdirmək səylərini dəstəkləyəcək.

Qeyd edək ki, layihə ilkin mərhələdə 384 milyon dollar məbləğində özəl investisiyaların reallaşdırılmasına kömək edəcək və bərpaolunan enerjiyə gələcək investisiyalar üçün yol açacaq. Etibarlı, sərfəli və dayanıqlı elektrik enerjisi çatdırılmasına imkan verəcək bu layihə ölkəmizin enerji təhlükəsizliyi ilə bağlı uzunmüddətli baxışına nail olmaqda kömək edəcək.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

Dünyadan gələn sorağımız

# Gənc alim soydaşımızın Kanadada “xərçəng” savaşı

**Belə bir fikir var ki, elmdə böyük kəşflərə daha çox gənc alimlər imza atırlar. Axı onlar enerjili, cəsarətli, kreativ olurlar. Eyni zamanda, elmdə təsadüfi heç nə olmur. Əvvəlki uğur və ənənələri də gözardı etmək olmaz və bu, əslində, qeyri-mümkündür. Bir sözlə, bütün sahələrdə, eləcə də elmdə gənclik və təcrübə əl-ələ verib çalışanda daha parlaq yeniliklər əldə edilir. Bundan qazanan isə insanlıq olur.**

Kanadanın aparıcı universitetlərinin birində xərçəng xəstəliyinin tədqiqatı və müalicəsi ilə bağlı gərgin elmi araşdırmalar aparan 32 yaşlı həmyerlimiz Nazimdayaq Şeyxkərimlinin ümidverici uğurları da məhz bu amala xidmət edir. Arzu edək ki, tədqiqatçı həkim soydaşımız bəşəriyyətin bu ağır bəladan qurtulmasına nail olacaq ən görkəmli alimlərin cərgəsində yer alsın.

Nazimdayaq Şeyxkərimli 2010–2014-cü illərdə Toronto universitetində molekulyar tibbi genetika ixtisası üzrə bakalavr təhsili alıb. Sonra elə həmin ali təhsil ocağında molekulyar genetika üzrə doktorluq dissertasiyasını doktor Frederik Rothun rəhbərliyi altında müdafiə edib. Dissertasiya müddətində o, virus və insan zülalları da daxil olmaqla, milyonlarla cüt zülalın qarşılıqlı təsirlərini xəritələndirmək üçün texnologiya hazırlayıb.

N.Şeyxkərimli 2025-ci il üzrə kimyaterapiya preparatlarını birbaşa xərçəng hüceyrələrinə çatdırmaq üçün istifadə oluna biləcək yenilikçi və perspektivli tədqiqatlarına görə nüfuzlu “NRC HL Holmes” mükafatına layiq görülüb. Yeri gəlmişkən, 2 ildən bir verilən, 200 min ABŞ dolları məbləğində olan bu yüksək ödül soydaşımıza bu sahədə elmi araşdırmalarını davam etdirməyə imkan verəcək.

Azərbaycanlı alim bundan əvvəl isə “Sony Tədqiqat Mərkəzi”, “MİTACS təqaüdü və Osakadakı İnsan Metavers Təbabəti Əsaslı Tədqiqat İnstitutunda (PRİME) beyin əlaqələrinin xəritələnməsi üçün genetik ştrix-kodların işlənib hazırlanması üzrə təqaüd də daxil olmaqla, digər mükafatlara da layiq görülüb. Bütün bunlar ona dəlalət edir ki, dünyanın ən nüfuzlu alimləri gənc soydaşımızın bu sahədə yüksək nəticələr əldə edəcəyinə böyük ümid bəsləyirlər.

Bu günlərdə Kanada ilə telefon əlaqəsi saxlayaraq N.Şeykərimlidən “Xalq qəzeti” üçün eksklyüziv onlayn müsahibə aldıq. Qeyd etməyə dəyər ki, vaxtının az olmasına rəğmən, onun Bakıdan olan jurnalistin suallarına həvəslə cavablandırması bizi məmnun etməyə bilməzdi.

**– Həkim, gəlin, söhbətimizə sizin Bakı Avropa Liseyində oxuduğunuz günlərdən başlayaq...**

– Həmin dövr həyatımın ən gözəl illəridir. Liseyin direktoru hörmətli Zülfiyyə xanım da, sinif rəhbərim Bahar Kərimova və fənn müəllimlərimiz də dərin biliklər almağımız üçün çox gözəl yaradıcı təhsil mühiti yaratmışdılar. Onlar çalışırdılar ki, biz dərslərə həvəslə, motivasiyalı yanaşaq və uğurlar qazanaq.

Hesab edirəm ki, böyük elmin etibarlı bünövrəsi hələ orta məktəb illərindən qoyulur. Bu barədə bəxtim gətirib ki, doğma Bakıda kifayət qədər dərin biliklər almışam. Mən həkim olmaq arzusundayam. Bunu dostlarım da, müəllimlərim də yaxşı bilirdilər və mənə hər cür mənəvi dəstək verirdilər.

**– Liseyi bitirdikdən sonra niyə məhz Kanadada ali təhsil almağa üstünlük verdiniz? Axı orada təhsil haqqı xeyli**



**yüksəkdir. Sizin ailənin də elə böyük maliyyə imkanları yoxdur...**

– Liseyi 2009-cu ildə fərqlənmə attestatı ilə bitirdim. Dünyanın bir neçə ali təhsil ocağından qəbul dəvəti alsam da, tələb olunan təhsil haqqı ailəmizin maddi imkanları xaricində idi. Bir il gözləməli oldum. Amma növbəti il xaricdə təhsil almağım üçün real imkanlar yarandı.

Məlum olduğu kimi, möhtərəm Prezidentimiz İlham Əliyevin göstərişi ilə “2007-2014-cü illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” qəbul olunub. Həmin proqramda müəyyən edilmiş şərtlər daxilində mənim Kanadanın nüfuzlu Toronto Universitetində təhsil almağım mümkün oldu.

Fürsətdən istifadə edərək bir daha möhtərəm Prezidentimə biz gənclərə göstərdiyi dəstəyə görə dərin təşəkkürümü bildirirəm. Yeri gəlmişkən, dövlətimizin başçısına yazdığım minnətdarlıq məktubunda bu barədə ürəyimdən dilimə axan səmimi ürək sözlərimi qələmə almışam.

**– Toronto Universitetində tədrisin təşkili və keyfiyyəti ilə bağlı gözləntiləriniz özünü doğrultdumu?**

– Mən Toronto Universitetində 4 il ərzində molekulyar genetika və biotexnologiya ixtisasları üzrə bakalavr və magistr dərəcələri aldım. Bu universitet, həqiqətən, hazırda dünyanın ən mötəbər təhsil ocaqlarından sayılır. Vankuverdəki Britaniya Kolumbiyası Universitetinin Biotibbi Mühəndislik Məktəbində (SBME) elmi tədqiqatlarımı davam etdirirəm. Burada 2024-cü ilin aprelindən etibarən doktorantura sonrası (post-doc) elmi işçi kimi SBME professoru və Sintetik biologiya üzrə Kanada tədqiqatları kafedrasının rəhbəri, doktor Nozomu Yachinin rəhbərlik etdiyi laboratoriyada çalışıram.

Hazırda isə insan orqanizmindəki milyonlarla cüt zülalın qarşılıqlı təsirlərinin xəritələndirmək üçün genetik trixkodları işləyib hazırlanması ilə məşğulam. Bu sahədə araşdırmalar xərçəng xəstəliyinin effektli müalicəsi üçün açar rolunu oynaya bilər. Bu, nisbətən yeni və çox vacib istiqamətdir.

**– Sizin məşğul olduğunuz sahə dünya tibb elminin diqqət mərkəzindədir. Bu çətin problemin uğurlu həlli yollarını dünyanın çox sayda görkəmli alimləri araşdırırlar. Onlarla elmi əlaqələriniz hansı səviyyədədir?**

– Bu problem hazırda dünyanın bir çox elm mərkəzlərində öyrənilir. Mənim bu sahədəki qabaqcıl tədqiqatçıların daxil olduğu multidisiplinar qrupla, eləcə də Toronto Universitetindən doktor Daniel Şramek və doktor Mikko Taipale, Münxendəki Helmholtz Universitetindən doktor Əli Ərtürk, Juntendo Universitetindən doktor Etsuo Susaki (PhD, MD), Tokio Universitetindən Hiroki Ueda və digər mütəxəssislərlə əlaqələrim var.

Biz bu istiqamətdə əldə etdiyimiz bütün faydalı informasiyaları dərhal paylaşırıq. Bəşəriyyət bu gün tibb elmindən bu sahədə inqilabi uğurlar gözləyir. İnanın mənə, dünya elmi bu istiqamətdə bütün gücünü ortaya qoyub.

**– Eşitmişəm ki, sizə ayrılan pul vəsaitinin bir hissəsini sizinlə bu sahədə əməkdaşlıq etmək istəyən alimlərə verməyə hazır olduğunuzu bildiribsiniz?**

– Mən bizə ayrılan maddi vəsaitin təkcə bir hissəsini deyil, dörddə üçünü də verməyə hazır olduğumu söyləmişəm. Bir daha vurğulamaq istəyirəm. Bu gün Yer kürəsində milyonlarla insan xərçəng xəstəliyindən əziyyət çəkir. Onların arasında uşaq, yeniyetmə və gənclər də var. Bu insanların dərdlərinə çarə tapmaqdan şərəfli nə ola bilər?

**– Siz artıq 15 ildir ki, Kanadadasınız. Oradakı təhsil və tədris sistemi ilə bağlı kifayət qədər məlumatlısınız. Azərbaycan elminin gələcəyini necə görürsünüz?**

– Bu suala qısa cavab vermək çətindir. Gərək əhatəli cavab verəsən. Hələlik, yalnız onu deyə bilərəm ki, mən şəxsən daim Azərbaycan elminin gələcəyinə optimist yanaşıram.

Azərbaycanın Yusif Məmmədəliyev, Azad Mirzəcanzadə, Lütfü Zadəni kimi dünya şöhrətli görkəmli alimləri olub. Onların davamçıları yaranır və yaranacaq və soydaşlarımız elmdə bundan sonra da öz sözünü deyəcəklər. Azərbaycan xalqı yüksək intellektə malik olan xalqdır. Bizim uşaq, yeniyetmə və gənclərin ən çətin elmləri belə qavrama qabiliyyəti kifayət qədər yüksəkdir. Mən bununla hər zaman fəxr etmişəm.

**– Nazimdayaq həkim, sonuncu sual. Bu gün Bakıda, Abşeronda günəşli bir gündür, hava da mülayimdir. Bəs orada hava necədir?**

– Bir neçə gündür ki, buralarda hava çiskinlidir. Arabir yağış da yağır. Nə gizlədim, bəzən doğma Abşeron, Bakı, valideynlərim, dostlarım üçün çox darıxıram. Amma xahiş edirəm, bu barədə atama deməyin. Atam da, anam da çox həssas insanlardır. Tez-tez zəng edərək deyirlər ki, özünü soyuqdan qoru, rütubətdən qoru! Onların mənim barəmdə narahat olmalarını istəmirəm.

**– Müsahibə üçün təşəkkür edirəm.**

– Mən də sizə və kollektivinizə uğurlar arzu edirəm.

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

Təqdimat

# “Risalə”nin yeni töhfələri

**Aprelin 2-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində “Risalə” elmi araşdırmalar jurnalının yeni nömrələrinin təqdimatı keçirilib.**



Mərasimi giriş nitqi ilə muzeyin direktoru, akademik Rafael Hüseynov açaraq Ədəbiyyat Muzeyində “Risalə” elmi araşdırmalar jurnalı ilə yanaşı, “Beşlik” - “Qaynaq” mənbələr, “Şərq” tərcümə, “Xəzinə” kataloqlar və “Məclis” mərasimlər toplularının da dərc edildiyini diqqətə çatdırıb. Sanballı yazıların toplandığını bu nəşrlərin hər birinin böyük dəyər daşıdığını deyən akademik Rafael Hüseynov “Risalə” jurnalının ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu olduğunu bildirib. O, yaxın gələcəkdə “Risalə” jurnalının ildə bir dəfə olmaqla ingilis dilində məqalələrdən ibarət nəşrinin nəzərdə tutulduğunu söyləyib.

Akademik Rafael Hüseynov jurnalın yeni sayında işıq üzü görmüş “Apostrofun Azərbaycan dilindəki yeri və ona qarşı olmanın yersizliyi” adlı məqaləsindən də bəhs edib. Bildirib ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan dilində, təxminən, minə qədər apostroflu söz olub. Sözlərin leksik-semantik planda məna fərqlərinin müəyyənləşdirilməsində, omoqrafların (şəkilcə omonim, oxşar, vurğusuna görə fərqlənən sözlər) yazılışında, bu sözlərin aydın tələffüzündə, hecaya ayırmasında apostrof vacib köməkçi vasitədir. Həmçinin apostrof klassik ədəbiyyatın düzgün oxunulması üçün əsas vasitələrdən biridir.

Əlifbada apostrofun bərpasının tərəfdarı olduğunu deyən alim vurğulayıb ki, apostrofun qalması Azərbaycan dilini öyrənənlərə bu dili daha dərindən, incəliklərinə qədər öyrətməyə imkan verir. O, apostrofdan dünya dillərində də tələffüzü asanlaşdıran bir işarə kimi istifadə olunduğunu bildirib.

Akademik Rafael Hüseynov “Risalə” elmi araşdırmalar jurnalının filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövrü elmi nəşrlər siyahısında olduğunu deyib.

Direktor jurnalın yeni saylarında muzey əməkdaşlarının, elmlər doktorları, fəlsəfə doktorları, dissertasiya müdafiəsinə hazırlaşan gənc tədqiqatçıların müxtəlif mövzuları ehtiva edən elmi məqalələrinin dərc edildiyini söyləyib. O qeyd edib ki, jurnalının növbəti nömrələrində Faiq Əliyevin “Nəsiminin “ənəlhəq” fəlsəfəsi”, Günel Səfərovanın “Salam Qədirzadənin “Qış gecəsi” romanı”, Elazə Musayevanın “Pirəbədil” xalçaları xarici tədqiqatçıların gözü ilə”, Aytac Həmidovanın “Rüfət Əhmədzadənin həyat yolu”, İlahə Dadaşovanın “Şahin Fazilin “Meylimə imkan eləyən Şahinəm” qəzəli sənətkarın təqdimatı kimi”, Cəmilə Dəmirovanın “Yəhudi şairlərin islama zidd mövqeyi”, Məhəmmədəli Hüseyninin “Sultan Əhməd Cəlairi” və digər məqalələr işıqlandırılıb. O, jurnalda görkəmli yazıçılar Salam Qədirzadə, Rüfət Əhmədzadə və tarixçi, şərqşünas Şahin Fazilin yaradıcılığından bəhs edən məqalələrin də yer aldığını söyləyib.

Çıxışının sonunda akademik Rafael Hüseynov jurnalda dərc olunan məqalələrin elmi əhəmiyyətini qeyd edib, müəlliflərə yaradıcılıq uğurları arzulayıb.

Sonda tədbirdə iştirak edən məqalə müəlliflərinə “Risalə” elmi araşdırmalar jurnalının yeni nömrələri təqdim olunub.

# “Tarif müharibələri”: Kim uduzur, kim udur?

**Ölkələr arasında ticarət əlaqələri həmişə qlobal iqtisadiyyatın mühüm elementi olub. Bununla belə, son illərdə tarif müharibələrinin getdikcə artdığını görürük - ölkələr öz iqtisadiyyatlarını qorumaq üçün bir-birlərinin mallarına daha yüksək rüsumlar tətbiq etməyə başlayıblar. Bu cür tədbirlər milli istehsalçıları dəstəkləmək üçün səmərəli üsul kimi görünsə də, uzunmüddətli perspektivdə həm ayrı-ayrı ölkələrə, həm də bütövlükdə qlobal bazara ciddi ziyan vurur.**



Tariflər malların maya dəyərini artırır ki, bu da onların istehlakının azalmasına səbəb olur. Ticarət məhdudiyyətləri bazarları daraldır, şirkətin gəlirlərini azaldır, sərmayədarları daha qənaətcil olmağa vadar edir. Nəticədə iqtisadiyyat yavaşlayır ki, bu da iqtisadiyyatı ixracdan asılı olan ölkələr üçün xüsusilə nəzərə çarpır.

İdxal olunan mallara rüsum tətbiq olunduğu üçün onların ölkə daxilində maya dəyəri artır. Bu, qiymətlərin ümumi artımına səbəb olur ki, bu da inflyasiyanı sürətləndirir. Buna cavab olaraq mərkəzi banklar pul siyasətini sərtləşdirir ki, bu da kreditlərin əlçatanlığına mənfi təsir göstərir və əhalinin alıcılıq qabiliyyətini azaldır.

Tariflər rəqabət mühitinə də mənfi təsir göstərir. Ölkələr tarif maneələri tətbiq etdikdə beynəlxalq bazarlarda fəaliyyət göstərən şirkətlər ucuz xammal və komponentlərə çıxışı itirirlər. Bu, məhsulların bahalaşmasına gətirib çıxarır ki, bu da digər ölkələrin malları ilə müqayisədə onların rəqabət qabiliyyətini aşağı salır.

Tariflərin tətbiqi təchizat zəncirinin pozulmasına gətirib çıxarır. Müasir iqtisadiyyat qloballaşan təchizat zəncirlərinə əsaslanır. Bir çox şirkət xaricdə istehsal olunan komponentlərdən və materiallardan istifadə edir. Tarif müharibələri onları yeni təchizatçılar axtarmağa və ya istehsalı köçürməyə məcbur edir ki, bu da xərcləri artırır və biznesin səmərəliliyini azaldır.

Bu müharibədən istehlakçılar da zərər görürlər. İdxal olunan mallara rüsum tətbiq edildikdə, onların dəyəri artır. Bu isə o deməkdir ki, son müştəri eyni məhsul üçün daha çox pul ödəməyə məcbur olur. Belə ki, tarif müharibələri vətəndaşların həyat səviyyəsinə mənfi təsir göstərir.

Tarif müharibələri təkcə iqtisadi problemlərə yol açmır, geosiyasi gərginliyə də səbəb olur. Belə ki, ticarət münaqişələri çox vaxt siyasi münaqişələrə çevrilir. Tariflərin tətbiqi cavab tədbirləri ilə nəticələnə bilər ki, bu da dövlətlər arasında gərginlik yaradır. Bu, diplomatik böhranlara və bütün dünyada proteksionizmin artmasına səbəb olur.

Son aylar ABŞ və Avropa arasında ticarət müharibələri xüsusilə son hadisələr fonunda aktual mövzu olaraq qalır. Məsələn, ABŞ administrasiyası Avropa mallarına, o cümlədən avtomobillərə və spirtli içkilərə yeni rüsumlar tətbiq etməyi düşünür ki, bu da Avropa İttifaqında narahatlığa səbəb olur. Bu tədbirlər Aİ-nin cavab tədbirlərinə, o cümlədən Amerika mallarına yüksək tariflərə səbəb ola bilər. ABŞ və Avropa arasında iqtisadi qarşılıqlı asılılıq bu cür münaqişələri xüsusilə mürəkkəbləşdirir. Hər iki tərəf əsas ticarət tərəfdaşıdır və istənilən məhdudiyyət hər iki iqtisadiyyata zərər verə bilər. Bununla belə, iri korporasiyaların tənzimlənməsi və müdafiə xərcləri kimi siyasi fikir ayrılıqları vəziyyəti daha da gərginləşdirməkdə davam edir. Qeyd etmək yerinə düşər ki, Aİ ABŞ-a mal ixracatında birinci yerdədir.

Bir sözlə, tarif müharibələri bəzi sənaye sahələri üçün qısamüddətli faydalarına baxmayaraq, uzunmüddətli perspektivdə iqtisadiyyata ziyan vurur. Onlar yavaş artıma, yüksək inflyasiyaya, rəqabət qabiliyyətinin azalmasına və beynəlxalq münasibətlərdə gərginliyə səbəb olur. Ölkələr üçün iqtisadi əməkdaşlığı inkişaf etdirmək, innovasiyaya sərmayə qoymaq və ciddi məhdudiyyətlərdən istifadə etmədən ticarət əlaqələrini gücləndirməyə imkan verən kompromis həll yolları axtarmaq daha səmərəlidir.

***S.ELAY***
***XQ***

**“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin İşçi kreslolarının satın alınması üçün açıq tenderin qiymət təklifinin təqdim edilməsi tarixi 4 aprel 2025-ci il saat 17.00-a qədər uzadılmışdır.**

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin işçi kreslolarının satın alınmasının açıq tenderində, iştirakçılar imran.k.mammadov@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Prosedur üzrə əlaqələndirici şəxs – İmran Məmmədov, mütəxəssis,
imran.k.mammadov@azal.az,
Əlaqə telefonu – (+99412) 4972600;
daxili 5803.

“Qaradağ Tikinti Materialları” ASC səhmdarlarının nəzərinə!

17 may 2025-ci il saat 11.00-da “Qaradağ Tikinti Materialları” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Səhmdar cəmiyyətin 2024-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Səhmdar cəmiyyətin səhmdarları tərəfindən yeni investorların cəlb edilməsi istiqamətində müvafiq tədbirlərin görülməsinin müzakirəsi.
3. Səhmdar cəmiyyətin fəaliyyətinin genişləndirilməsi məqsədilə gələcəkdə görüləcək işlər barədə müzakirələrin aparılması.
4. Digər məsələlər.

Ünvan– Bakı şəhəri, Qaradağ rayonu, Qaradağ Lahmacun kafesi (Salyan şossesi 30 km)

*İdarə heyəti*

“Sumqayıt Santexnik Hissə” ATSC səhmdarlarının nəzərinə!

“Sumqayıt Santexnik Hissə” ATSC səhmdarlarının növbəti illik ümumi yığıncağı 17 may 2025-ci il saat 10.00-da Sumqayıt şəhəri, Metallurqlar küçəsi 25 nömrəli ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2024-cü il ərzində gördüyü işlər və qarşıda duran məsələlər barədə idarə heyətinin illik hesabatı.
2. Cəmiyyətin 2024-cü il üçün maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabat və 2024-cü ilin balansının təsdiq edilməsi.
3. Digər məsələlər.

Ünvan- Sumqayıt şəhəri, Metallurqlar küçəsi 25.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 63 (30757) 3 aprel 2025-ci il, cümə axşamı

İdman

# İdmançılarımızın gimnaziada sınağı

## Serbiyada 192 yeniyetmə atletimiz 18 növdə yarışacaq

**Azərbaycan idmançılarını yeni sınaq gözləyir. Beynəlxalq Məktəb İdmanı Federasiyasının (ISF) təşkilatçılığı ilə Serbiyada aprelin 4-də start götürəcək beynəlxalq multi-idman yarışında 15 yaşadək atletlərimiz mübarizə aparacaq. Ölkəmiz bu oyunlarda 192 idmançı ilə təmsil olunacaq.**



Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin Regionlarla iş sektorunun müdiri Elvin Zeynallı qəzetimizə bildirdi ki, idmançılarımız yarışda 22 növdən 18-də iştirak edəcəklər. Komandamız oyunlara aprelin 5-də kamandan oxatma üzrə yığmamızın mübarizəsi ilə start verəcək:



– Builki gimnaziadada əsas yeniliklərdən biri odur ki, yarış 7 şəhərdə keçiriləcək. Komandamızın iştirak edəcəyi yarışlar – idman gimnastikası Novi-Sad, kamandan oxatma, 3x3 basketbol, çimərlik voleybolu, boks, şahmat, tennis Zlatibor, badminton, parabadminton, üzgüçülük, paraüzgüçülük, stolüstü tennis Ujiçe, taekvondo, karate Pojeqa, cüdo, güləş Luçani, qılıncoynatma Nova-Varoş, nəhayət atletika Priboy şəhərlərində təşkil ediləcək.

Ötən il analoji yarışda əldə edilən nailiyyətlərdən danışan E.Zeynallı qeyd etdi ki, komandamız 160 idmançı ilə mübarizə aparıb, 23-ü qızıl, 26-sı gümüş və 28-i bürünc olmaqla, ümumilikdə, 77 medal qazanıb. Bu nəticə ilə ölkəmiz ümumi sıralamada 7-ci yeri tutub. Yığmamız mükafatları güləş, cüdo, boks, bədii və aerobika gimnastikası, güləş, taekvondo, qılıncoynatma, paracüdo, paraüzgüçülükdə əldə edib. Ondan əvvəlki gimnaziadada isə komandamız cəmi 2 medal qazanmışdı.

Elvin Zeynallının sözlərinə onu da əlavə edək ki, Bəhreyn Krallığının paytaxtı Manama şəhərində təşkil edilən ötən gimnaziadada komandamız 16 növ üzrə yarışlarda mükafatlar uğrunda mübarizə aparmışdı. Budəfəki yarışda isə yığmamız daha çox idman növündə və daha geniş heyətlə iştirak edir.

***Güləş komandamızın məşqçisi Həsrət Məmmədyarov budəfəki yarışda sərbəst güləş üzrə 10 qızın mübarizə aparacağını söylədi:***

– Təbii ki, daha yüksək nəticələr gözləyirik. Ötən gimnaziadada 4 qız güləşçi ilə təmsil olunduq. Onlardan 3-ü medal qazandı. Qızlarımızı yarışa yaxşı hazırlamışıq. Onların hər biri Serbiyaya mükafat üçün gedəcək. İştirakçılardan həmişəki kimi, Rusiyanı əsas rəqiblərdən biri hesab edirik. Amma bizim komandamız da zəif deyil.

***Yunan-Roma güləşi üzrə məşqçi Əbülfət Məmmədov da 15 yaşadək güləşçilərin mübarizəsində fərqlənəcəklərinə ümid etdiyini dedi:***

– Ölkədaxili yarışlarda yaxşı nəticə göstərən güləşçiləri seçmişik. Ən nüfuzlu turnirlərdə Azərbaycan güləşçiləri həmişə fərqləniblər. Ümid edirik ki, istədiyimiz nəticəni əldə edə biləcəyik. Yarışda 9 çəki dərəcəsi üzrə 10 güləşçi ilə təmsil olunacağıq.

***Beynəlxalq arenalarda ən nüfuzlu yarışlarda fərqlənən komandamızdan bu dəfə də uğurlu nəticələr gözləyirik. Nazirliyin nümayəndəsi Elvin Zeynallı da komandamızın qələbəyə kökləndiyini bildirdi:***

– Bütün idman növləri üzrə ən güclülər yığmaya cəlb edilib. Yarışa hazırlıq lazımi səviyyədədir. Federasiyalardan götürdüyümüz proqnozlar da bunu göstərir. Bütün idman növləri üzrə – ən əsas da güləş, cüdo, boks, taekvondo üzrə uğurlu nəticələr gözləyirik. Komandamız qələbəyə köklənib. İdmançılarımızın gimnaziadada uğurla iştirak edəcəyinə inanırıq.

*Leyla QURBANOVA*
*XQ*

## Millimizin seçmə mərhələ təqvimi

**Çimərlik futbolu üzrə Avropa çempionatının I seçmə mərhələsində (EBSL) keçiriləcək oyunların təqvimi müəyyənləşib.**

B Liqasının A qrupunda yer alan Azərbaycan milli komandası Litva (25 may, 14:15), İngiltərə (23 may, 13:00) və Belçika (24 may, 13:00) yığmaları ilə mübarizə aparacaq. Bu qrupun oyunları mayın 23-25-də İspaniyanın El Puerto de Santa Maria şəhərində keçiriləcək.

Qeyd edək ki, oyunların başlama saatı Bakı vaxtı ilə göstərilib.

## 8–18 yaşlı şahmat qaliblərimiz



**Şahmat üzrə 8, 10, 12, 14, 16 və 18 yaşadək oğlanlar və qızlar arasında Azərbaycan çempionatının qalibləri müəyyənləşib.**

Müxtəlif yaş kateqoriyalarında Kənan Babasoy, Mələk Əsədli (8 yaşadək), Atilla Orman, Mehriban Əhmədli (10 yaşadək), Nurlan Əzizli, Fatimə Mirzəliyeva (12 yaşadək), Paşam Əlizadə, Səadət Başirli (14 yaşadək), Rüstəm Rüstəmov və Ayan Hüseynli (16 yaşadək), Rəvan Uguzov, Nurtən Nuriyeva (18 yaşadək) ən çox xal toplamaqla birinci yeri tutublar.

Qeyd edək ki, ölkə çempionatında, ümumilikdə, 136 şahmatçı mübarizə aparıb.

## Minifutbol avrokuboku Bolqarıstanda keçiriləcək



**Minifutbol üzrə Azərbaycan çempionatının qalibi "Birbaşa Bakı" və gümüş mükafatçısı "Zirə"nin iştirak edəcəyi Çempionlar Liqasının hansı ölkədə keçiriləcəyi bəlli olub.**

Matçlar sentyabrın 17-dən 21-dək Sofiyada (Bolqarıstan) təşkil ediləcək. ÇL-dən bir həftə sonra isə eyni məkanda ölkəmizi Avropa kubokunda "Aznur" təmsil edəcək.

*LA ZAD*
*XQ*

*"Azəristiliktəchizat" ASC-nin yük avtonəqliyyatı üçün verilmiş HCİ seriyalı, 069902 nömrəli yol vərəqəsi itdiyi üçün etibarsız sayılır.*

# Darçın içək – öskürəyi kəsək

**Qrip və virusa yoluxan zaman xəstələr təbii üsullarla bundan xilas olmağa çalışırlar. Yaz və payız mövsümündə havalar daha dəyişkən olduğundan sinədə tez-tez öskürək və xırıltı olur. Bəzən nəfəs alarkən eşidilən fitəbənzər səs, adətən, ağciyərlərdə hava axınının çətinləşməsi nəticəsində yaranır.**



Sinədəki xırıltını aradan qaldırmaq, öskürəyi azaltmaq üçün fitoterapevtlərin tövsiyə etdikləri müxtəlif təbii vasitələrdən – bitki şirələri və çaylardan istifadə edilir. Sinəni yumşaltmaq üçün həm də bəzi ədviyyat növləri də köməyə gəlir. Bunlardan biri darçındır. Darçın antioksidant və iltihaba qarşı işlədilən ədviyyatdır. Ondan istifadə etməklə həm öskürəyi sakitləşdirmək olar, həm də tənəffüs yollarını açmaq mümkündür.

Müalicə məqsədilə darçından istifadə etmək üçün bir stəkan qaynar suya bir çay qaşığı darçın tozunu əlavə edib qarışdırmaq lazımdır. Zövqə görə suya bal da əlavə etmək olar. Hazırlanan məlhəmi isti-isti içmək onun müalicəvi təsirini artırır.

*Z.HÜSEYNLİ*
*XQ*

## "Alo, uçan taksi göndərin"

*Çində bu mobil tətbiqə başlanmasına az qalıb*



Çinin "EHang Holdings" və "Hefei Hey Airlines" şirkətləri uçan taksilərin işə salınması üçün son icazəni əldə ediblər. Hava taksi xidmətinin fəaliyyətə başlama tarixi açıqlanmasa da, ÇXR hökuməti aşağı hündürlükdə uçuş sektorunun perspektivlərini yüksək qiymətləndirir. Pekin bu yeni müştəri bazarının gəlirlərinin bu il 207 milyard dollar həcmində ola biləcəyini proqnozlaşdırır.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının kollektivi Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevə qayınatası

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Belarus Respublikasında səfiri Məhərrəm Əliyev və Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Adil Əliyev Milli Məclis sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Rasim Kazımova qardaşı

**TOFİQ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərsutikinti" SC-nin sədri Yusif Hümbətov Milli Məclis sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Belarus Respublikasında səfiri Məhərrəm Əliyev və Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Adil Əliyev Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi rayonu "Yeni Qaradolaq" bələdiyyəsinin sədri Namiq Hüseynov və bələdiyyənin kollektivi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Bərdə Regional Ədliyyə İdarəsi rəisinin müavini Eldəniz İbrahimova əzizi

**ADİLƏ ABDULLAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

HAVA

# Abşeronda yağmursuz, bölgələrdə yağış, duman, külək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 3-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Lakin gecəyə doğru bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 10-14°, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi 753 mm civə sütunundan 757 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda yağıntıda fasilə olacaq. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 22-27°, dağlarda gecə 3-8°, gündüz 12-17° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3230
SİFARİŞ 643
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00